**AZƏRBAYCAN RESPUBLİKASI DÖVLƏT STATİSTİKA KOMİTƏSİ**
**AZƏRBAYCAN RESPUBLİKASININ DÖVLƏT TƏSNİFATI**

# XƏRCLƏRİN MƏQSƏDLƏR ÜZRƏ

# TƏSNİFATLARI

**AZT014-2002**

***Rəsmi nəşr***

***BAKI-2002***

Azərbaycan Respublikası Dövlət Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Agentliyində təsdiq edilmişdir
**Əmr №02**
**"09" oktyabr 2002-ci il**

Azərbaycan Respublikası Statistika Komitəsinin **25 sentyabr 2002-ci il** tarixli kollegiya qərarı ilə təsdiq edilmişdir

# XƏRCLƏRİN MƏQSƏDLƏR ÜZRƏ TƏSNİFATLARI

**Bu təsnifat Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Agentliyinin icazəsi olmadan rəsmi nəşr kimi tam və ya qismən yenidən çap oluna, çoxaldıla və ya yayıla bilməz.**

Azərbyacan Respublikasının İqtisadi İnkişaf, Maliyyə, Vergilər, Əmək və Əhalinin Sosial Müdafiəsi, Səhiyyə, Təhsil nazirlikləri ilə

***razılaşdırılmışdır***

**-----------------------------------------------------------**

***Təsnifat «1998-2002-ci illərdə Azərbaycan Respublikasının dövlət statistika sistemində islahatların aparılmasına dair Dövlət Proqramı»na uyğun olaraq işlənib hazırlanmışdır.***

Təsnifat A.M.Vəliyevin rəhbərliyi ilə

A.H.Mansurov, F.H.Hacıyev, Q.F.Əliyev və E.H.Hacıyev tərəfindən işlənib hazırlanmışdır.

**AZƏRBAYCAN RESPUBLİKASININ DÖVLƏT TƏSNİFATI**

**Xərclərin məqsədlər üzrə təsnifatları**

**Consumption classifications on objects**

**AZT014-2002**

**Tətbiq edilmə tarixi 2002-10-20**

# ÖN SÖZ

Bu nəşrdə xərclərin məqsədlər üzrə dörd təsnifatı verilmişdir: Dövlət idarəetmə orqanlarının funksiyalarının təsnifatı (DİOFT), Şəxsi (fərdi) istehlak məqsədləri üçün istifadə edilən mal, məhsul və xidmətlərin təsnifatı (ŞİMT), Ev təsərrüfatlarına xidmət göstərən qeyri-kommersiya təşkilatlarının məqsədlər üzrə təsnifatı (QTMT) və Məqsədlər üzrə istehsalçıların xərclər təsnifatı (MİXT). Bu təsnifatlar 1999-cu ilin mart ayında Birləşmiş Millətlər Təşkilatının Statistika komissiyasının otuzuncu sessiyası tərəfindən təsdiq edilmişdir.

1995-ci ildə Milli hesablar üzrə Katibliklərarası işçi qrupu İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatına (İƏKT) 1993-cü ilin Milli Hesablar Sisteminə daxil edilmiş məqsədlər üzrə xərclərin dörd təsnifatından üçünün yenidən baxılmış variantlarının hazırlanmasını təklif etmişdir. Bunlar Dövlət idarəetmə orqanlarının funksiyalarının təsnifatı, Şəxsi (fərdi) istehlak məqsədləri üçün istifadə edilən mal, məhsul və xidmətlərin təsnifatı və Ev təsərrüfatlarına xidmət göstərən qeyri-kommersiya təşkilatlarının məqsədlər üzrə təsnifatıdır. Bununla yanaşı Milli hesablar üzrə katibliklərarası işçi qrupu Birləşmiş Millətlər Təşkilatına dördüncü təsnifata, məqsədlər üzrə İstehsalçıların xərcləri təsnifatına yenidən baxlmasını təklif etmişdir. Dövlət idarəetmə orqanlarının funksiyalarının təsnifatı, Şəxsi (fərdi) istehlak məqsədləri üçün istifadə edilən mal, məhsul və xidmətlərin təsnifatı və Ev təsərrüfatlarına xidmət göstərən qeyri-kommersiya təşkilatlarının məqsədlər üzrə təsnifatının yenidən baxılmış variantları İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının Statistika idarəsi tərəfindən, Məqsədlər üzrə İstehsalçıların xərcləri təsnifatının yenidən baxılmış variantı isə Birləşmiş Millətlər Təşkilatının Statistika şöbəsi tərəfindən işlənib hazırlanmışdır.

Yenidən baxılma prosesinin gedişatı zamanı İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı Avropa Birliyi Statistika Bürosu (Avrostat), Birləşmiş Millətlər Təşkilatının Statistika şöbəsi və onun üzvü olan dövlətlərin milli

statistika orqanları ilə müntəzəm məsləhətləşmələr aparmışdır. Bu təsnifatların əvvəlki variantları İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı, Avrostat və Birləşmiş Millətlər Təşkilatının Avropa İqtisadi Komissiyası tərəfindən Lüksemburqda, Parisdə və Cenevrədə təşkil edilmiş milli hesablar üzrə mütəxəssislərin müxtəlif iclaslarında müzakirə edilmişdir. Bu dörd təsnifatın Birləşmiş Millətlər Təşkilatı tərəfindən irad və təkliflərin yığılması məqsədilə yayılmış layihələri həmçinin bütün dünyanın milli və beynəlxalq statistika orqanları tərəfindən baxılmışdır.

Bu nəşrə Dövlət idarəetmə orqanlarının funksiyaları, Şəxsi (fərdi) istehlak məqsədləri üçün istifadə edilən mal, məhsul və xidmətlərin təsnifatı, Ev təsərrüfatlarına xidmət göstərən qeyri-kommersiya təşkilatlarının məqsədlər üzrə və məqsədlər üzrə İstehsalçıların xərcləri təsnifatlarının kateqoriyaları üçün ətraflı izahatlar və qeydlər daxil edilmişdir. Lakin bu qeydlər müxtəlif ölkələrdə bütün mümkün olan vəziyyəti və durumları əhatə etmir. Ümid edilir ki, bu təsnifatların əməli istifadə təcrübəsi onların yenidən işlənilməsi və təkmilləşdirilməsinə imkan yaradacaqdır. Bu vəziyyəti nəzərə alaraq, İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı, Avrostat və Birləşmiş Millətlər Təşkilatının statistika şöbəsi tərəfindən yeni məhsullara və dəyişilmiş vəziyyətlərə yanaşmanın müəyyənləşdirilməsi məqsədilə məsləhətləşmələrin aparılması mexanizmi işlənib hazırlanmışdır. Hər bir konkret hal üzrə təsnifatların əsas meyarlarına və  faktiki məlumatlara əsaslanaraq qərarlar qəbul ediləcəkdir.

**Birinci hissə**

# G İ R İ Ş

# I fəsil. Milli hesablar sistemində funksional təsnifatlar

Milli Hesablar Sistemində (MHS) istehlakın və ya müxtəlif sektorların məqsədlər üzrə xərclərinin təhlili üçün xüsusi təsnifatlardan istifadə edilir. Onlara aşağıdakılar daxildir:

a. Məqsədlər üzrə fərdi istehlakın təsnifatı (MFİT);
b. Dövlət idarəetmə orqanlarının funksiyalarının təsnifatı (DİOFT);
c. Ev təsərrüfatlarına xidmət göstərən qeyri-kommersiya təşkilatlarının məqsədlər üzrə təsnifatı (QTMT);
ç. Məqsədlər üzrə istehsalçıların xərcləri təsnifatı (MİXT).

Bu təsnifatların əsas məqsədi müxtəlif analitik məsələlərin həllində istifadəçilərin böyük maraq kəsb edən statistik məlumatlarla təmin edilməsidir. “Məqsədlər üzrə fərdi istehlakın təsnifatı” milli rifahın mühüm göstəriciləri olan ev təsərrüfatlarının ərzaq, səhiyyə və təhsil xərcləri kimi göstəricilərini ehtiva edir; “Dövlət idarəetmə orqanlarının funksiyalarının təsnifatı” səhiyyə, təhsil, müdafiə və s. sahələrə dövlət xərclərini əks etdirir, həmçinin dövlət tərəfindən təqdim olunan kollektiv xidmətləri mal və xidmətlərin fərdi istehlakından fərqləndirmək üçün istifadə olunur. “Məqsədlər üzrə istehsalçıların xərcləri təsnifatı” biznes xidmətlərinin "autsorsinq"i, yəni əvvəllər müəssisə daxilində köməkçi fəaliyyət kimi həyata keçirilən iaşə, təmizlik, nəqliyyat, audit və digər xidmətlərin kənardan satınalınmasının payı haqqında məlumat verə bilər.

Funksional təsnifatlar, həmçinin istifadəçilərə MHS-nin əsas aqreqatlarını xüsusi təhlil növlərinin tələblərinə uyğunlaşdırmaq üçün bir alət təqdim edir. Məsələn:

a. MHS-də verilən bəzi analitik məqsədlər üçün ümumi kapitalın formalaşmasının tərifi çox məhduddur. Əmək məhsuldarlığı amillərinin təhlili zamanı tədqiqatçılar çox vaxt “insan kapitalı” göstəricisinə ehtiyac duyurlar ki, bu da adətən ötən dövrlərdə təhsil xərclərinə dair məlumatlar əsasında müəyyən edilir. Bu təsnifatlarda təhsil xərcləri fərqlənir və buna görə də ev təsərrüfatlarının, dövlət idarəetmə orqanlarının, qeyri-kommersiya təşkilatlarının və istehlakçıların təhsilə çəkdikləri xərcləri müəyyən etmək mümkündür;

b. ev təsərrüfatlarının xərclərini və qənaətlərini öyrənərkən bəzi tədqiqatçılar uzunmüddətli istehlak mallarını cari xərclər deyil, kapital hesab edirlər. Bu baxımdan "Məqsədlər üzrə fərdi istehlakın təsnifatı" uzunmüddətli istifadə üçün nəzərdə tutulan mallara çəkilən xərcləri fərqləndirməklə bu işi asanlaşdırır;
c. iqtisadi artımın ətraf mühitə təsirini öyrənərkən tədqiqatçılar çox vaxt ətraf mühitin mühafizəsinə çəkilən xərcləri fərqləndirir. İstər "Dövlət idarəetmə orqanlarının funksiyalarının təsnifatı", istərsə də "Məqsədlər üzrə fərdi istehlakın təsnifatı" bu növ xərcləri birinci səviyyə kateqoriyalarından biri kimi əks etdirir.

## Məqsədlər üzrə fərdi istehlakın təsnifatı (MFİT)

MFİT 15 əsas bölməni özündə birləşdirir. İlk 13 bölmə ev təsərrüfatlarının ümumi istehlak xərclərini əks etdirir. Son iki bölmə ev təsərrüfatlarına xidmət göstərən qeyri-kommersiya təşkilatlarının və dövlət idarəetmə orqanlarının istehlak xərclərinin natura şəklində sosial transferlər hesab edilən hissəsini ifadə edir. Ev təsərrüfatlarının faktiki son istehlakını əks etdirən 15 bölməyə aşağıdakı xərc maddələri daxildir:

1. Ərzaq məhsulları və alkoqolsuz içkilər;
2. Alkoqollu içkilər və tütün məhsulları;
3. Geyim və ayaqqabılar;
4. Məişət və kommunal xidmətlər;
5. Mebel, məişət texnikası və evdə gündəlik istifadə üçün mal və xidmətlər;
6. Səhiyyə;
7. Nəqliyyat vasitələri və xidmətləri;
8. İnformasiya və kommunikasiya avadanlıqları və xidmətləri;
9. İstirahət, idman və mədəni tədbirlərin təşkili üzrə xidmətlər;
10. Təhsil xidmətləri;
11. Restoranlar və yaşayış yerlərinin təşkili üzrə xidmətlər;
12. Sığorta və maliyyə xidmətləri;
13. Şəxsi qulluq üçün mal və xidmətlər, sosial müdafiə xidmətləri və bu kimi digər mal və xidmətlər;
14. Ev təsərrüfatlarına xidmət göstərən qeyri-kommersiya təşkilatlarının fərdi istehlak xərcləri;
15. Dövlət idarəetmə orqanlarının fərdi istehlak xərcləri.

Ev təsərrüfatlarının büdcəsi üzrə müayinə məlumatlarında çox vaxt ev təsərrüfatlarının xərcləri haqqında məlumat toplamaq üçün "Məqsədlər üzrə fərdi istehlakın təsnifatı"na əsaslanan təsnifat sxemindən istifadə edir.

## Dövlət idarəetmə orqanlarının funksiyalarının təsnifatı (DİOFT)

DİOFT 10 əsas bölməni özündə birləşdirir:

1. Ümumi təyinatlı dövlət idarələri;
2. Müdafiə;
3. İctimai asayiş və təhlükəsizlik;
4. İqtisadi məsələlər;
5. Ətraf mühitin mühafizəsi;
6. Mənzil və kommunal xidmətləri;
7. Səhiyyə;
8. İstirahət, mədəniyyət və din;
9. Təhsil;
10. Sosial müdafiə.

DİOFT dövlət maliyyəsi statistikasına dair məlumatları təhlil və təqdim etmək üçün istifadə olunur.

## Ev təsərrüfatlarına xidmət göstərən qeyri-kommersiya təşkilatlarının məqsədlər üzrə təsnifatı (QTMT)

QTMT 9 bölməni özündə birləşdirir:

1. Mənzil xidmətləri;
2. Səhiyyə;
3. İstirahət və mədəniyyət;
4. Təhsil;
5. Sosial müdafiə;
6. Din;
7. Siyasi partiyalar, həmkarlar və peşə təşkilatları;
8. Ətraf mühitin mühafizəsi;

9. Digər kateqoriyalara daxil edilməyən xidmətlər.

## Məqsədlər üzrə istehsalçıların xərcləri təsnifatı (MİXT)

MİXT 6 bölməni özündə birləşdirir:

1. İnfrastruktura yönəldilən xərclər;
2. Elmi-tədqiqat və təcrübi-konstruktor işlərinə yönəldilən xərclər;
3. Ətraf mühitin mühafizəsinə yönəldilən xərclər;
4. Marketinq xərcləri;
5. İnsan resurslarına yönəldilən xərclər;
6. Cari istehsal proqramlarına, inzibati-təsərrüfat fəaliyyətinə və idarəetməyə yönəldilən xərclər.

MİXT-in kateqoriyaları hər iki istehsalçı (bazar və qeyri-bazar) növü üçün eyni maraq doğurmasa da, bütün istehsalçılara şamil edilir.

## II fəsil. Dövlət idarəetmə orqanlarının funksiyalarının təsnifatı (DİOFT)

### TƏSNİFATIN TƏTBİQ SAHƏLƏRİ

15. DİOFT-nın əsas tətbiq sahələrindən biri fərdi ev təsərrüfatlarının xeyrinə sərf edilən və ev təsərrüfatlarının son istehlakının (və ya fərdi istehlakın) ümumiləşdirilmiş faktiki həcminin alınması üçün MFİT-nın 15-ci bölməsinə köçürülən istehlaka yönəldilmiş xərclərin müəyyənləşdirilməsidir. Bu təsnifatda belə xərcləri özündə birləşdirən bölmələr, qruplar və altqruplar dəqiq verilmişdir.

16. DİOFT həmçinin Dövlət idarəetmə orqanlarının konkret funksiyalar və məqsədlər üçün sərf etdikləri xərclərdə zaman keçdikcə baş verən tendensiyaları təhlil etməyə imkan verir. Adətən bu məqsədlər üçün Dövlət idarəetmə orqanlarının hesabları bir qayda olaraq yaramır, belə ki, bu hesablar Dövlət idarəetmə orqanlarının təşkilat strukturlarını işıqlandırır və ona görə də təşkilati dəyişikliklər ucbatından dövri sıralarda kənarlaşmalar baş verə bilər. Məsələn, əgər Dövlət idarəetmə orqanı əvvəllər hər biri ayrı-ayrı departamentlər tərəfindən və ya Dövlət idarəetmə orqanlarının müxtəlif səviyyələrində həyata keçirilən bir neçə funksiyanı birləşdirən yeni departament yaradarsa, onda bir qayda olaraq müəyyən dövr ərzində bu məqsədlər üçün sərf edilən xərclərin müqayisə edilməsi üçün Dövlət idarəetmə orqanlarının adi hesablarından istifadə edilməsi mümkün olmur.

17.DİOFT-ndan həmçinin iqtisadi və sosial funksiyaların həyata keçirilməsində Dövlət idarəetmə orqanlarının iştirak dərəcəsinin dövlətlərarası müqayisəsi üçün də istifadə edilir. DİOFT ölkənin Dövlət idarəetmə orqanlarında baş verən təşkilati dəyişikliklərin neytrallaşdırılmasına kömək etməklə yanaşı, ölkələr arasında təşkilati müxtəlifliklərdən asılı deyil. Məsələn, bir ölkədə su təchizatı ilə bağlı bütün funksiyaları bir dövlət idarəsi həyata keçirə bilər, digər ölkələrdə isə bu fuksiyalar ətraf mühitin mühafizəsi məsələlərinə, yaşayış yerləri ilə bağlı məsələlərlə birləşdirilə və ya sənayenin inkişafı məsələləri ilə məşğul olan müxtəlif departamentlər arasında bölüşdürülə bilər. Məqsədlər üzrə xərclər təsnifatında bütün bu müxtəlif bölmələri «su təchizatı» kimi bir funksiya çərçivəsində birləşdirmək olar.

## TƏSNİFATIN VAHİDLƏRİ

18.Prinsipcə ayrı-ayrı əməliyyatlar təsnifatın vahidləri hesab edilir. Bu o deməkdir ki, hər bir mal alışına, əmək haqqının verilməsinə, transferə, borcun qaytarılmasına və digər xərc növlərinə bu əməliyyatın aid olduğu funksiyaya uyğun olaraq DİOFT-nın kod indeksi verilməlidir. Əsaslı və cari transferlər və maliyyə aktivlərinin xalis alınması ilə bağlı məsələlərdə bu prinsipə ciddi əməl edilməsi tövsiyə edilir. Lakin bir qayda olaraq, digər əməliyyatların çoxu üçün əməliyyatları təsnifatın vahidi kimi qəbul etmək olmur. Belə hallarda DİOFT-nun kod indeksləri idarələrə, təşkilatlara, istehsal vahidlərinə, bürolara və Dövlət departamentlərinin və ya nazirliklərin oxşar bölmələrinə verilməlidir. Onda müəyyən bir bölmənin bütün xərcləri (transferlər və maliyyə aktivlərinin xalis alınmasından başqa) həmin bölmənin DİOFT üzrə kod indeksi ilə işarə edilməlidir.

19.Təsnifatın vahidi kimi əməliyyatlar deyil dövlət orqanları götürüldüyü zaman, Dövlət idarəetmə orqanlarının hesablarında ayrıla bilən çox kiçik orqanlar da DİOFT-na uyğun olaraq iki və daha artıq funksiya həyata keçirə bilərlər. Bəzən çoxfunksiyalı orqanların xərclərini həmin müxtəlif funksiyaların payına düşən iş aylarına uyğun olaraq DİOFT-nın funksiyaları üzrə bölüşdürmək mümkün olur. Lakin çox zaman elə olur ki, çoxfunksiyalı bölmələrin bütün xərclərini həmin xərclərin ən çox hissəsi sərf edilən yalnız bir məqsədə aid etmək mümkün olur.

## DÖVLƏT İDARƏETMƏ ORQANLARININ FUNKSİYALARININ MÜƏYYƏN EDİLMƏSİ PROBLEMLƏRİ

20.Dövlət idarəetmə orqanlarının xərclərinin çoxu birmənalı olaraq təsnifatda nəzərdə tutulmuş bu və ya digər bir funksiyaya aid edilə bilər, lakin elə hallar da olur ki, seçim etmək lazım olur. Əsas çətinliklər kənd təsərrüfatı, emal sənayesi və ya xərclərin məqsədlərinə uyğun digər kateqoriyalar sahəsində müəssisə və təşkilatlara verilən subsidiyalar və kreditlərlə əlaqədar baş verə bilər. Bu cür dövlət yardımının əsas məqsədlərindən biri, məsələn, milli müdafiə məsələləri üçün mühüm həyati əhəmiyyət kəsb edən hərbi gəmilərin tikintisi imkanının təmin edilməsi, və ya əhalinin fermerlər və ya şaxtaçılar kimi mühüm qruplarının həyat səviyyəsinə müəyyən dərəcədə kömək göstərilməsi və yaxud da xəstəxanaların tam iş günü ilə təmin olunmamış işçiləri üçün məşğulluğun təmin edilməsidir.

21.Belə siyasi məsələləri funksiya və məqsədlər terminlərinin hazırkı nəşrdə verilmiş mənaları ilə qarışdırmaq olmaz. Ona görə də gəmi

tikintisinə dövlət tərəfindən verilən subsidiyalar «Emal sənayesi» kateqoriyası; fermerlərə verilən kredit və borclar «Kənd təsərrüfatı» kateqoriyası; kömür şaxtalarına verilən subsidiyalar «Kömür və mineral yanacağın digər növləri» kateqoriyası; xəstəxanalara verilən dotasiyalar isə «Xəstəxanaların xidmətləri» kateqoriyası üzrə təsnifləşdirilir. Bu qayda yalnız ümumilikdə işə düzəlmə imkanlarının genişləndirilməsi üçün (məsələn, cinsi əlamətə görə diskriminasiyanın və ya əlillərə qeyri-normal münasibətin aradan qaldırılması yolu ilə) nəzərdə tutulmuş proqramlar, subsidiyalar, borclar və dotasiyalara aid edilmir. Buraya iqtisadi cəhətdən qeyri-münasib və ya zəif inkişaf etmiş regionlarda məşğulluq səviyyəsinin yüksəldilməsi üzrə proqramlar da daxildir. Belə ki, bu cür proqramlar DİOFT-da ayrılmış müəyyən sahə ilə məhdudlaşdırılmadığı üçün, onlar «İşçi qüvvəsinə aid edilən ümumi məsələlər» kateqoriyası üzrə təsnifləşdirilir.

## ƏTRAF MÜHİTİN MÜHAFİZƏSİ

22.Ətraf mühitin mühafizəsinə sərf edilən xərclərin müəyyənləşdirilməsi zamanı tez-tez praktika xarakterli problemlər ortaya çıxacaq, belə ki, bu xərclər tamamilə başqa funksiyaları həyata keçirən inzibati orqanların nisbətən ikinci dərəcəli xərclər maddələrində göstərilə bilər. Məsələn, bu cür problem kimyəvi gübrələrin ətraf mühitə təsirini öyrənmək üçün xüsusi proqram həyata keçirən kənd təsərrüfatı nazirliyi ilə, yeni magistralın tikintisinin ətraf mühitə təsiri məsələlərini öyrənən nəqliyyat departamenti ilə və yaxud da buxar qazlarının atmosferə buraxılmasının təsirinin öyrənilməsi üzrə Yanacaq və energetika nazirliyi ilə əlaqədar olaraq qarşıya çıxa bilər. Hal-hazırda bir çox ölkələrdə Dövlət idarəetmə orqanlarının ətraf mühitin mühafizəsi xərclərinin ümumi həcmi ehtimal ki, çox aşağıdır, lakin gələcək onilliklərdə onların əhəmiyyəti arta biləcəyi təqdirdə DİOFT üçün statistik məlumatları hazırlayanlar bu cür xərclərin «Ətraf mühitin mühafizəsi» bölməsinə düzgün aid edilməsinə xüsusi nəzarət etməlidirlər.

## NAZİRLİKLƏRİN XƏRCLƏRİNİN VƏ İNZİBATİ XƏRCLƏRİN MÜƏYYƏNLƏŞDİRİLMƏSİ

23.Bir qayda olaraq nazirliklər ümumi siyasətin, planların, proqramların və büdcələrin işlənib hazırlanmasına, həyata keçirilməsinə, əlaqələndirilməsi və onların yerinə yetirilməsinə nəzarət edilməsinə; qanunvericilik aktlarının hazırlanması və yerinə yetirilməsinə; həmçinin ümumi məlumatların, texniki sənədlərin və statistik məlumatların hazırlanması və yayılmasına cavabdehdirlər. Bunlar DİOFT-da müxtəlif cür öz əksini tapmışlar. Maliyyə və xarici əlaqələrlə bağlı nazirliklər

dürüst sərbəst qrupa ayrılmışdır. Müdafiə, ictimai asayişin və təhlükəsizliyin təmin edilməsi, ətraf mühitin mühafizəsi, mənzil-kommunal təsərrüfatı, səhiyyə, istirahət, mədəniyyət və din, təhsil və sosial müdafiə məsələləri ilə məşğul olan nazirliklər isə uyğun bölmənin «digər kateqoriyalara aid edilməyən» altqrupuna düşür. Bir sahə və ya altsahə ilə məşğul olan nazirliklər altqruplar üzrə bölüşdürülməmişdir. Deməli bu nazirliklərin xərcləri onların tabeçiliyində olan altqruplar üzrə bölüşdürülməlidir. Məsələn, nəqliyyat nazirliyinin xərcləri «Avtomobil nəqliyyatı», «Su nəqliyyatı», «Dəmir yolu nəqliyyatı», «Hava nəqliyyatı», «Boru kəmərləri və digər nəqliyyat sistemləri» kimi altqruplar arasında bölüşdürülməlidir.

24.Nazirlik və ya departamentlər, idarələr, təşkilatlar, istehsal şöbələri, bürolar və nazirliklərin daxilində olan oxşar bölmələr tərəfindən həyata keçirilən kadr, təchizat, mühasibat uçotu və audit, hesablama texnikası və məlumatların işlənməsi kimi ümumi xidmətlərə sərf edilən inzibati xərclər maksimum detallaşma səviyyəsində, yəni altqrup və ya dörd rəqəmli kod səviyyəsində təsnifləşdirilməlidir. Əgər inzibati xərclər eyni vaxtda iki və daha artıq alt qrupa düşürsə, onda bütün hallarda bu xərclərin müvafiq altqruplar arasında bölüşdürülməsinə çalışmaq lazımdır. Əgər bu mümkün olmazsa, bütün xərclər payı ən çox olan altqrupa aid edilməlidir. Bu və ya digər altqrupa aid edilə bilinməyən xərclər uyğun bölmənin «digər kateqoriyalara aid edilməyən» altqrupuna aid edilməlidir.

## DİOFT-ı ƏHATƏ EDƏN XƏRCLƏR

25.2.1 cədvəlində DİOFT-na uyğun olaraq təsnifləşdirilən xərclər verilmişdir. Burada əsas yeri son istehlaka yönəldilmiş xərclər (P3) tutur, belə ki, fərdi xidmətlərin istehlakına yönəldilmiş xərclər ev təsərrüfatlarının son istehlakının faktiki həcminin (və ya fərdi istehlakın faktiki həcminin) alınması məqsədi ilə MİFT-nın 15-ci bölməsinə köçürülür. Ümumi kapital yığımının (P5) təsnifləşdirilməsi də mühüm əhəmiyyət kəsb edir.

**Cədvəl 2.1 DİOFT üzrə təsnifləşdirilən xərclər**

| Xərclər | MHS-93-də əməliyyatların kodu |
|---|---|
| Son istehlaka yönəldilən xərclər, *o cümlədən*…………… | P3 |
| aralıq istehlak…………………………………………….. | P2 |
| işçilərin əmək haqqı…………………………………... | D1 |
| əsas kapitalın istehlakı………………………………... | K1 |
| bazar istehsalı *çıxılmaqla*…………………………….. | P11 |
| Ümumi kapital yığımı…………………………………….. | P5 |
| Subsidiyalar………………………………………………. | D3 |
| Mülkiyyətdən gələn gəlir………………………………… | D4 |
| Natural formada sosial transfertlərdən başqa sosial müavinətlər……………………………………………… | D62 |
| Digər cari transfertlər…………………………………….. | D7 |
| Əsaslı transfertlər………………………………………… | D9 |
| Səhmlərdən başqa qiymətli kağızlar……………………… | F3 |
| Kreditlər və borclar……………………………………….. | F4 |
| Səhmlər və kapitalda iştirakın digər formaları…………… | F5 |

26.DİOFT-nı həmçinin dövlət xərclərinin müəyyən növünün örtülməsi məqsədi ilə gəlirlərin artırılması və ya cəmiyyətin ümumi maraqlarının qorunması məqsədi ilə (məsələn, tütün və alkoqoldan istifadənin azaldılması və ya ekoloji cəhətdən təmiz istehsal texnologiyalarından istifadə edilməsinin həvəsləndirilməsi məqsədi ilə) insanlara təsir etmək üçün bu və ya digər konkret məqsəd üçün nəzərdə tutulan sosial ödəmələr və vergilərin təsnifləşdirilməsi üçün də istifadə etmək olar. DİOFT-nın bölmələri dövlət xidmətində məşğulluğun təsnifləşdirilməsi üçün də əhəmiyyətli ola bilər. Lakin hazırkı dövrdə bu cür əlavə məqsədlər üçün təsnifatın istifadəsini ölkələrə beynəlxalq hesabatlarda istifadə edilmə tövsiyəsi kimi deyil, yalnız təcrübə aparmaq üçün təklif edilir.

## ƏSAS KAPİTALIN İSTEHLAKI

27.Çox ehtimal ki, bir çox ölkələr əsas kapitalın istehlakının məqsədlər üzrə bölüşdürülməsi zamanı xüsusi çətinliklərlə üzləşəcəklər. Milli hesabların məqsədləri üçün əsas kapitalın istehlakı praktiki olaraq həmişə fasiləsiz inventarlaşdırma üsulu ilə hesablanır. Lakin, prinsipcə fasiləsiz inventarlaşdırma üsulu ilə hesablamaları detallaşdırılmış funksional bölmələr üzrə də aparmaq olar. Təcrübədə bir çox ölkələrdə Dövlət idarəetmə orqanlarında əsas fondların və kapitalın istehlakının ümumiləşdirilmiş göstəriciləri qurulur. Bu şəraitdə əsas kapitalın istehlakının funksiyalar üzrə bölüşdürülməsi üçün yaxınlaşma üsullarından istifadə etmək lazım olur. Belə üsullardan biri, əgər Dövlət idarəetmə orqanlarının kiçik təşkilati bölmələri üzrə uyğun məlumatları mövcuddursa, əsas kapitalın istehlakının «balans qiymətinin»

amortizasiyası üzrə bölüşdürülməsidir. Digər üsul isə əsas kapitalın istehlakının funksiyalar üzrə əsas kapitalın ümumi yığımın keçmiş bir neçə illər ərzində yönəldilmiş xərclərə mütənasib olaraq bölüşdürülməsidir.

## SOSİAL MÜDAFİƏ

28.Bu təsnifatda ayrıca verilməsi çətinlik törədən sahələrdən biri də sosial müdafiədir. Problem ondadır ki, bu təsnifatın «Sosial müdafiə» bölməsinə aid edilən natural formada sosial müavinətlərin bir hissəsi MİFT-nın digər bölmələrinə düşə bilər. Məsələn, ərzaq talonları birmənalı «Sosial müdafiə»yə aiddir. Lakin təhlilin bəzi növləri üçün, onlar haqqında məlumatların «Ərzaq məhsulları və alkoqolsuz içkilər» kateqoriyasına aid edilməsi məqsədə uyğundur. Bu, ərzaq məhsulları və alkoqolsuz içkilərin faktiki istehlakının tam qiymətləndirilməsinin həyata keçirilməsinin mümkünlüyü üçün lazımdır. Bu cür təhlil üçün məlumatların alınmasının ən sadə üsulu böyük xərclərin «Sosial müdafiə» bölməsinə şərti kateqoriyalar kimi daxil edilməsidir. Belə şərti kateqoriyalar istifadə edilən təsnifləşmədə MİFT-nın bölmələri üst-üstə düşə bilər. Məsələn, paylanmış ərzaq talonlarının ümumi dəyərini «Sosial müdafiə» bölməsinin «Ərzaq məhsulları və alkoqolsuz içkilər» qrupunda göstərmək olar. Bununla yanaşı qeyd etmək lazımdır ki, faktiki fərdi istehlakın təsnifləşdirilməsi MFİT üzrə aparıldığı zaman da bu dəyər «Sosial müdafiə» bölməsində şərti kateqoriya kimi göstərilir. Bu ərzaq talonlarının DİOFT-nın «Sosial müdafiə» bölməsindən MİFT-nın «Ərzaq məhsulları və alkoqolsuz içkilər» bölməsinə yenidən təsnifləşdirilməsi demək deyildir.

## ƏLAQƏLİ TƏSNİFATLAR

29.Bütün növ iqtisadi fəaliyyətin beynəlxalq standart sahə təsnifatı (ISIC) istehsal bölmələrinin fəaliyyət növləri üzrə təsnifatıdır. Təcrübədə DİOFT-nın onunla çox oxşarlıqları var. Prinsip etibarı ilə DİOFT-da istifadə edilən təsnifat vahidi ayrıca əməliyyatdır, lakin, xərclərin bir çox növləri üçün belə vahid kimi ISIC təsnifatında olan dövlət bölməsi tez-tez çıxış edəcəkdir. Bundan başqa təsnifatın kriteriyaları, DİOFT-da funksiya və ISIC-də fəaliyyət növü, konseptual olaraq oxşardır. Buna baxmayaraq Dövlət idarəetmə orqanlarının xərclərinin təsnifləşdirilməsi üçün DİOFT ISIC-dən daha faydalıdır. Ona görə ki, DİOFT-da funksiyaların ISIC–də verilmiş siyahısından daha detallaşdırılmış siyahısı mövcuddur.

30.DİOFT müəyyən funksiyalar üzrə xüsusi olaraq bu məqsədlər üçün işlənib hazırlanmış təsnifatlara əsaslanmışdır. Bu təsnifatda Ətraf mühitin

mühafizəsi üzrə funksiyaların bölüşdürülməsi, Ətraf mühit haqqında iqtisadi məlumatların yığılmasının Avropa sistemi (SERIEE) tərəfindən işlənib hazırlanmış Ətraf mühitin mühafizəsi üzrə fəaliyyət təsnifatına (CEPA) əsaslanmışdır. Eyni qayda ilə, sosial müdafiə məsələlərinin təsnifləşdirilməsi Sosial müdafiə sahəsində ümumiləşdirilmiş statistik məlumatların Avropa sistemi (ESSPROS) əsasında həyata keçirilmişdir. Əsaslı tədqiqatlar, tətbiqi tədqiqatlar və təcrübi işləmələr kimi anlayışların tərifləri Fraskatinin redaksiyası altında nəşr olunmuş 1993-cü ilin metodoloji qaydalarından götürülmüşdür.

31. Qeyd etmək lazımdır ki, «əsasında, əsaslanmışdır» sözləri DİOFT-ın altqrupları və əlaqəli təsnifatların kateqoriyaları arasında birə-bir uyğunluğun olmasına dəlalət etmir. DİOFT, əlaqəli təsnifatların detallaşdırılmış maddələri üzrə bölünən toplu altqruplara malikdir.

## IV fəsil. Ev təsərrüfatlarına xidmət göstərən qeyri-kommersiya təşkilatlarının məqsədlər üzrə təsnifatı (QTMT)

### TƏSNİFATIN TƏTBİQ SAHƏLƏRİ

52.MHS-93-də ev təsərrüfatlarına xidmət göstərən qeyri-kommersiya təşkilatlarının bütün xərclərinin fərdi istehlaka aid edilməsi qəbul edilmişdir. QTMT-nın əsas məqsədi MHS-1993-ə (bax. bölmə 35 və 36, yuxarı) əsasən ev təsərrüfatlarının faktiki son istehlakı (və ya faktiki fərdi istehlakı) üzrə iriləşdirilmiş məlumatlar almaq üçün, ev təsərrüfatlarına xidmət göstərən qeyri-kommersiya təşkilatlarının xərclərini və ev təsərrüfatlarının fərdi istehlakı və dövlət idarəetmə orqanlarının məqsədli xərclərinə müvafiq olaraq təsnifləşdirməkdən ibarətdir.

53.QTMT-dən həmçinin ev təsərrüfatlarına xidmət göstərən qeyri-kommersiya təşkilatları təsnifatının fəaliyyət növlərinin beynəlxalq müqayisəliliyini asanlaşdırmaq üçün də istifadə edilə bilər. Bir çox ölkələrdə əhaliyə təhsil, səhiyyə və sosial müdafiə sahəsində xidmət göstərilməsi üzrə bu təşkilatların fəaliyyəti dövlət idarəetmə orqanlarının fəaliyyətinin tamamlayıcısı rolunu oynayır. Bəzi ölkələrdə ev təsərrüfatlarına xidmət göstərən qeyri-kommersiya təşkilatlarının təsnifatı ətraf mühit, insan hüquqlarının müdafiəsi və azlıqların müdafiəsi kimi sahələrdə istifadə edilməyə başlamışdır. QTMT-da səhiyyə və sosial sahə kimi daha ənənəvi sahələrlə yanaşı bu yeni məqsədlərdə ayrılır.

### TƏSNİFAT VAHİDLƏRİ

54.Prinsipcə, QTMT-da ev təsərrüfatlarına xidmət göstərən qeyri-kommersiya təşkilatlarının məqsədlər üzrə ayrı-ayrı xərcləri təsnifləşdirilir. Bununla yanaşı bir çox ölkələrdə ev təsərrüfatlarına xidmət göstərən qeyri- kommersiya təşkilatlarının fəaliyyəti haqqında informasiya azdır, ona görə də təsnifatın vahidləri kimi ev təsərrüfatlarına xidmət göstərən qeyri- kommersiya təşkilatlarının özləri çıxış edirlər. Əksəriyyəti olmasa da, bəzi ev təsərrüfatlarına xidmət göstərən qeyri-kommersiya təşkilatlarının əsas bir məqsədi var və onlar adları çəkilən təsnifat məqsədlərindən birinə aid edilə bilərlər. Əgər ev təsərrüfatlarına xidmət göstərən bu və ya digər qeyri- kommersiya təşkilatı iki və daha artıq funksiya yerinə yetirirsə (məsələn, məktəb və xəstəxananı maliyyələşdirən dini təşkilatlar), hər funksiyaya görə ayrı vahidləri müəyyənləşdirmək lazımdır. Əgər hər funksiyaya görə ayrı vahidi müəyyənləşdirmək və qiymətləndirmə göstəricisi çıxarmaq mümkün olmazsa, o halda mövcud ev təsərrüfatlarına xidmət göstərən qeyri-

kommersiya təşkilatlarını bütövlüklə məşğulluq amilinə və ya ümumi xərc həcminə əsasən müəyyənləşdirmək lazımdır.

55.Yuxarıda göstərilənlərdən iki və daha artıq istiqamətdə olan elmi tədqiqat fəaliyyətini maliyyələşdirən xeyriyyə fondları və təşkilatları əsas sayılır. Bu cür tədqiqatlara xərcləri iş fəaliyyətinə aid etməyərək, müvafiq funksiyalar üzrə ayrı yerləşdirmək lazımdır.

## QTMT TƏRƏFİNDƏN ƏHATƏ OLUNAN XƏRCLƏR

56.4.1 cədvəlində göstərilən xərclər prinsipcə QTMT əsasında təsnifləşdirilə bilər. Ev təsərrüfatlarına xidmət göstərən qeyri-kommersiya təşkilatları təsnifatında statistik məlumatların az olması və aşağıdakı cədvəldə göstərilən xərclərin QTMT əsasında təsnifatlaşdırılması bir çox ölkələrdə inandırıcı görünmür. Xərclər təsnifatında əsasən son istehlaka (P3) arxalanmaq lazımdır. Belə ki, ev təsərrüfatlarının faktiki son istehlakının (və ya faktiki fərdi istehlak) daxil edilməsi üçün bu göstəricini MİFT-nın 14-cü bölməsinə daxil etmək lazımdır.

**Cədvəl 4.1. QTMT üzrə təsnifləşdirilən xərclər**

| Xərclər | MHS-93-də əməliyyatların kodları |
|---|---|
| Son istehlaka yönəldilmiş xərclər, onlardan: | P3 |
| Aralıq istehlak xərcləri | P2 |
| İşçilərin əməyinin ödənişi | D1 |
| Əsas kapitalın istehlakı | K1 |
| Bazar istehsalı istisna olmaqla | P11 |
| Ümumi kapital yığımı | P5 |
| Subsidialar | D3 |
| Mülkiyyətdən gəlir | D4 |
| Natural formada sosial transferlərdən başqa sosial müavinətlər | D62 |
| Digər cari transferlər | D7 |
| Kapital transferləri | D9 |
| Səhmlərdən başqa, qiymətli kağızlar | F3 |
| Kreditlər və borclar | F4 |
| Səhmlər və kapitalda digər iştirak formaları | F5 |

## ƏLAQƏLİ TƏSNİFATLAR

57.Con Hopkins adına universitetin siyasi tədqiqatlar institutunda qeyri kommersiya təşkilatlarının beynəlxalq təsnifatı hazırlanmışdır (QKBT). Təsnifat QTMT bölmələrinin analoqu olan 12 tam qrupdan, "Mədəniyyət və istirahət", "Təhsil və tədqiqat", "Səhiyyə", "Sosial xidmətlər", "Ətraf mühit", "Dini fəaliyyət" və s. kimi qruplardan ibarətdir. Bununla yanaşı QKBT fəaliyyətin məqsədi deyil, növü üzrə olan bir təsnifatdır. Məsələn, qeyri- kommersiya təşkilatlarının beynəlxalq təsnifatında bütün tədqiqatlar, məqsədlər üzrə bölünməyərək, qeyri-kommersiya təşkilatlarının məqsədləri təsnifatında olduğu kimi bir altqrupa aid edilmişdir. Ona görə də qeyri- kommersiya təşkilatlarının beynəlxalq təsnifatının məlumatlarını, qeyri- kommersiya təşkilatlarının təsnifatına çevirdikdə bir qədər təshih etmək lazım gəlir.

# V fəsil. Məqsədlər üzrə istehsalçıların xərcləri təsnifatı (MİXT)

## MİXT-nın ƏHATƏ SAHƏSİ

58. MİXT-nın əhatə sahəsi, təsnifatın adından göründüyü kimi, istehsalçıların, əsasən də korporativ (maliyyə və qeyri-maliyyə) sektorun bazar istehsalçılarının (MHS-93 bənd 18.14) xərcləridir. MİXT Dövlət idarəetmə orqanlarının, ev təsərrüfatlarına xidmət göstərən qeyri-kommersiya təşkilatlarının və ev təsərrüfatlarının özlərinin istehsalla əlaqədar xərclərinin təsnifləşdirilməsi üçün praktiki olaraq istifadə edilə bilməz. Belə ki, bu sektorlarda istehsalın əsas həcmi son istehlaka yönəldilən xərclərə aid edimişdir ki, bunlar da öz növbəsində DİOFT, MFİT və QTMT-nın köməyi ilə çox yaxşı təhlil edilə bilirlər.

59. Müəssisələrin məqsədlər üzrə xərcləri aşağıda verilmiş 5.1 cədvəlindəki kimi cari xərclərə və kapital qoyuluşuna bölüşdürülə bilər. Kapital qoyuluşuna kapitallaşdırılmış cari xərclər (MHS-93-də ümumi kapital yığımı kimi verilmişdir), istehsal aktivlərinə investisiyalar (MHS-93-də həmçinin ümumi kapital yığımı kimi verilmişdir) və qeyri-istehsal aktivlərinə investisiyalar daxildir. Cari əməliyyat xərclərinə aralıq əmtəə və xidmətlərə yönəldilmiş xərclər, işçilərin əmək haqqları, subsidiyalar çıxılmaqla istehsala olan digər vergilər, kapitalın istehlakı və mənfəət aid edilir. Kapitallaşdırılmış cari xərclər müəssisələrin, məsələn, proqram təminatının işlənməsi, yolların tikintisi və ya iri təmir işlərinin aparılması və istehsal vasitələrinin modernləşdirilməsi kimi xərclərdir.

60. Müəssisələrin məqsədlər üzrə xərcləri toqquşa bilərlər. Əgər istifadəçi variantların müxtəlifliyi ilə qarşılaşmaq istəmirsə, onda xərclərin əsas bir məqsəd üzrə təsnifləşdirilməsi tövsiyə edilir. Məsələn, məlumatların idarə edilməsi xərcləri müəssisənin istənilən funksiyasının həyata keçirilməsinə (məsələn, marketinqə, elmi-tədqiqi və təcrübi-konstruktor işlərinə və cari istehsal proqramlarına) yönəldilə bilər. Əgər bu xərclərin əsas məqsədi məlumatların idarə edilməsidirsə, onda bu xərcləri bütün digər funksiyalardan ayırıb «Məlumatın idarə edilməsi xərcləri» maddəsinin bir hissəsi kimi təsnifləşdirmək lazımdır.

## MİXT-nın ANALİTİK İSTİFADƏ SAHƏLƏRİ

61. MİXT və məqsədlər üzrə digər təsnifatlar təhlildə iki müxtəlif rol oynayırlar. Birinci rol xərclərin sektorlar arası təhlilinin, ikincisi isə sektordaxili təhlilinin təmin edilməsindən ibarətdir. Birinci halda məqsədlər üzrə təsnifatlar köməkçi təhlillərin müxtəlif növlərinin həyata

keçirilməsi zamanı istifadə edilir və yalnız iqtisadi siyasət məsələlərinin həll edilməsində əsas rol oynayan kapitallaşdırılmamış cari əməliyyat xərclərinə tətbiq edilir (yuxarıda verilmiş 59-cu maddədə müəyyən olunduğu kimi). Bu rolda MİXT istehsalçıların kapitallaşdırılmamış cari əməliyyat xərclərinə, DİOFT, MFİT və QTMT isə müvafiq olaraq Dövlət idarəetmə orqanlarının, ev təsərrüfatlarının və ev təsərrüfatlarına xidmət göstərən qeyri-kommersiya təşkilatlarının son istehlaka yonəldilən xərclərinə tətbiq edilir. İstehsalçıların kapitallaşdırılmamış cari əməliyyat xərclərinə əlavə təhlil zamanı ayrıca bölmə kimi baxılan köməkçi fəaliyyətin nəticəsi olan məhsulun şərti hesablanmış istehsalının aralıq istehlakı daxil olacaqdır.

**Cədvəl 5.1 MİXT üzrə təsnifləşdirilən xərclər**

| Xərclər | Kapitallaşdırıl-mamış cari əməliyyat xərcləri* | Kapital qoyuluşu | |
|---|---|---|---|
| | | Kapitallaşdırılmış cari xərclər* | Əsas fondlara investisiyalar* |
| 01 İnfrastruktura yonəldilən xərclər……. | X | X | X |
| 01.1 Yolların tikintisinə və torpaqların meliorasiyasına yönəldilən xərclər | X | X | X |
| 01.2 Mühəndis-texniki işlərə yönəldilən xərclər……………………………… | X | | X |
| 01.3 Məlumatların idarəedilməsinə yönəldilən xərclər………………… | X | X | X |
| 01.3.1 Məlumatların idarəedilməsinin operativ məqsədlərinə yönəldilən xərclər ………. | X | | X |
| 01.3.2 Proqram təminatının işlənib hazırlanmasına yönəldilən xərclər …………………………. | | X | X |
| 02 Elmi-tədqiqat və təcrübi-konstruktor işlərinə yönəldilən xərclər………….. | X | | X |
| 03 Ətraf mühitin mühafizəsinə yönəldilən xərclər…………………….. | X | | X |
| 04 Marketinq xərcləri…………………….. | X | | X |
| 05 Əmək ehtiyatlarına yönəldilən xərclər. | X | | X |
| 06 Cari istehsal proqramlarına, inzibati-təsərrüfat fəaliyyətinə və idarəetməyə yönəldilən xərclər……... | X | | X |

62. Məqsədlər üzrə xərclər təsnifatlarının ikinci təyinatı sektordaxili təhlilin həyata keçirilməsidir. Xərclərin sektordaxili təsnifləşdirilməsi zamanı müxtəlif mexanizmlər aşkar edirlir ki, bunların da köməyi ilə müəyyən sektor siyasi problemləri iqtisadi üsullarla həll edilir. Belə ki, DİOFT-nı tətbiq etməklə Dövlət son istehlaka, kapital yığımına, cari və əsaslı transferlərə yönəldilən xərclər və ya digər sektorlara kreditlər və

---

* bu termin adətən kommersiya əməliyyatları uçotu zamanı tətbiq edilir

borclar verilməsi vasitəsilə siyasi məqsədlərə nail ola bilər. Ev təsərrüfatları sektorunda son istehlaka yönəldilən xərclərin, mülkiyyətdən və cari transferlərdən gələn gəlirin sektordaxili təhlili üçün MFİT-nı tətbiq edilə bilər. Digər nümunə təhsilə verilən subsidiyalar və ya istehsalçılar tərəfindən öz işçilərinə təhsil sahəsində digər yardımın göstərilməsinə aiddir. Bu xərclərə müəyyən şəraitdə işçilərin əmək haqlarının bir hissəsinin natura formasında ödənilməsi kimi baxıla və ev təsərrüfatlarının son istehlakına yönəldilmiş xərclərinə aid edilə bilər. Bu cür xərclər MİXT-nda işçilərin konkret fəaliyyət növünə aid edilən məqsəd kateqoriyaları üzrə təsnifləşdirilə bilər və bu, bir çox hallarda «Təhsil» kateqoriyası olmayacaq. Bu nümunələrdən görmək olar ki, sektorlararası ümumiləşdirmə aparmaq olmaz, belə ki, bu hal xərclərin müxtəlif sektorlarda və müxtəlif məqsəd kateqoriyaları üzrə aparılan ikili uçotuna gətirib çıxara bilər.

63. MİXT və məqsədlər üzrə xərclərin digər təsnifatları sektordaxili təhlil zamanı MHS-93-ün XVIII fəslində («Funksional təsnifatlar») hər bir sektor üzrə müəyyən edilmiş xərclərin növünə tətbiq edilir. Sektordaxili təhlili həyata keçirən zaman çeviklik göstərilməlidir, bu o deməkdir ki, müəyyən şəraitdə belə təhlil gəlir və xərclərin ayrı-ayrı maddələrini əhatə edə bilər. Belə ki, istehsalçılar üçün MİXT-nda təkcə «Elmi-tədqiqat və təcrübi-konstruktor işlərinə yönəldilən xərclər», «Ətraf mühitin mühafizəsinə yönəldilən xərclər», «İnfrastruktura yonəldilən xərclər»in bir hissəsi olan yolların tikintisinə yönəldilən xərclər kimi xərclərin verilməsi deyil, həmçinin bu kateqoriyalara həmin xərclərin maliyələşdirilməsi üçün istehsalçıların ala biləcəkləri əsaslı transferlərin və kreditlərin də aid edilməsi müəyyən maraq kəsb edir.

## KÖMƏKÇİ FƏALİYYƏT

64. Sektorlararası təhlil üçün MİXT-dan istifadə edərkən təsnifat vahidi kimi ya aralıq xərclərin konkret məqsədlər üçün əldə edilmiş məhsullar kimi ayrı-ayrı elementləri və yaxud da «vektorlar» çıxış edir. Bu «vektorlar» məcmu halında müəyyən konkret məqsədə nail olunmasına xidmət edir və onlar, aralıq istehlaka aid edilən və köməkçi fəaliiyətin nəticəsi olan məhsulun şərti hesablanmış istehsalına daxil edilir.

65. Əlavə təhlil zamanı köməkçi fəaliyyət ayrıca bölmə kimi ayrılır. Belə ayrılma üçün əlavə statistik məlumatlar tələb olunur. Belə ki, MHS-93-də köməkçi fəaliyyət müstəqil bölmə kimi izah edilmir. MHS-93-ün 5.13 bəndində verildiyi kimi «köməkçi fəaliyyətin yeganə təyinatı onun bağlı olduğu əsas və ya əlavə fəaliyyət növünə yardımın təmin edilməsidir».

Köməkçi fəaliyyətin tipik növləri daşınma, anbara yığma, satış, maliyyə və işgüzar xidmətlərin müxtəlif növləri, hesablama texnikasından istifadə, rabitənin təmin edilməsi, personalın hazırlanması, mühafizə, texniki xidmət və s. (tipik nümunələr MHS-93-ün 5.9 bəndində verilmişdir). MHS-nin mərkəzi strukturu üçün köməkçi fəaliyyət üzrə məlumatlar tələb edilməsə də, köməkçi fəaliyyətin müəyyən rol oynadığı xüsusi əlavə təhlillərin həyata keçirilməsində belə məlumatlara ehtiyac vardır. Tipik nümunə kimi ETTKİ, ətraf mühit, təhsil, səhiyyə və s. sahələrdə tədqiqatların həyata keçirilməsini göstərmək olar (MHS-93, XXIi fəsil, «Köməkçi təhlil və hesablar»). Daha bir nümunə üçün «məlumat texnologiyalarının» istehsala təsirinin təhlilini göstərmək olar ki, bu zaman köməkçi fəaliyyətin tipik növü kimi məlumatların işlənməsi və ötürülməsi çıxış edir (MHS-93, bənd 5.16).

66. Köməkçi fəaliyyət haqqında məlumatları müəssisənin istehsal uçotu sistemindən əldə etmək olar. Bunula yanaşı köməkçi fəaliyyətin onun əlaqəli olduğu əsas və ya əlavə fəaliyyətlə müqayisədə xarakteri və həcmini nəzərə alaraq təcrübədə bu fəaliyət haqqında müvafiq məlumatların alınması böyük çətinliklər törədir. Köməkçi fəaliyyətin bu cür ayrılması xərc və buraxılışın təhlili zamanı həmcins istehsal vahidlərinin (bu vahidlərdə MHS-93-ün 15.14-cü bəndində göstərildiyi kimi «yalnız bir növ istehsal (qeyri-köməkçi) fəaliyyəti həyata keçirilir») ayrılmasından da çətin ola bilər. MHS-93-ün 5.47-ci bəndində təklif olunur ki, köməkçi fəaliyyət haqqında göstəriciləri, həmcins istehsal vahidləri haqqında məlumatlarda olduğu kimi, «müəssisələrin məlumatları əsasında müxtəlif ehtimallara və hipotizalara əsaslanaraq hesablansın».

## MİXT-nın XARAKTERİK XÜSUSİYYƏTLƏRİ VƏ ONUN DİGƏR TƏSNİFATLARLA ƏLAQƏSİ

67. MİXT üçün iki meyar mühüm əhəmiyyət kəsb edə bilər. Bunlardan birincisi iqtisadi siyasət sahəsində MİXT tətbiq edilə bilən tədqiqat növünün (məsələn, iqtisadi inkişafın öyrənilməsi üzrə tədqiqatlar, ətraf mühitə təsirin öyrənilməsi üzrə tədqiqatlar və s.) qiymətləndirilməsinə əsaslanır. Belə qiymətləndirmə zamanı köməkçi fəaliyyətin ayrıca bölmə kimi baxıldığı əlavə təhlillər həyata keçirilərkən MİXT-nın istifadəsi nəzərə alınmalıdır. İkinci meyar Beynəlxalq iqtisadi və sosial təsnifatlar üzrə mütəxəssis qrupunun göstərişlərinə cavab verir. Bu qrup öz məruzəsində MİXT-nın digər təsnifatlarla, əsasən də məqsəd üzrə xərclərin digər üç təsnifatı, həmçinin fəaliyyət növləri və məhsul təsnifatları ilə hormonizə edilməsini tövsiyə etmişdir.

68. Bu təsnifatın çoxməqsədli xarakteri ümumilikdə digər təsnifatların da istifadə edildiyi bir sıra tədqiqatlarda tətbiqini asanlaşdırmalıdır. Bununla yanaşı siyasət sahəsində müxtəlif məsələlərin eyni vaxtda uçotu xərclərin MİXT-nın ayrı-ayrı kateqoriyalarına aid edilməsində kənarlaşmalara gətirib çıxara bilər. Bunun baş verməməsi üçün uçotun aydın qaydaları olmalıdır ki, hər bir kateqoriyanın əhatə dairəsinin digər kateqoriyalarla münasibətdə izah edilməsində istifadəçiyə yardım etsin. Bundan əlavə xırdalanmış altkateqoriyalar olmalıdır ki, ayrı-ayrı kateqoriyaların siyasət sahəsində alternativ tədqiqatların məqsədlərinə uyğun olaraq yenidən təsnifləşdirilməsi mümkün olsun.

## MİXT-nın MƏQSƏDLƏR ÜZRƏ DİGƏR TƏSNİFATLARLA ƏLAQƏSİ

69. MİXT-na məqsədlər üzrə digər təsnifatlarla yanaşı baxıldıqda görmək olar ki, MİXT-nın kateqoriyaları korporativ sektorun bütün kateqoriyalarını əhatə edə bilmir və konkret məsələlərin həlli üçün digər sektorlara məqsədlər üzrə xərclər təsnifatları cəlb edilməlidir. Belə ki, DİOFT, Dövlət idarəetmə orqanlarının funksiyalarının təsnifatı kimi, işçilərin sosial problemlərinin təhlilinin həyata keçirilməsinə və müəssisələrin qarşılaşdıqları infrasruktur problemlərinin həllində yardım edir. Həm Dövlət idarəetmə orqanlarının, həm də ev təsərrüfatlarının iştirak etdiyi ətraf mühitin mühafizəsinə yönəldilən xərclər üçün də bu sözləri demək olar. Bunları DİOFT, MFİT və MİXT-nın eyni zamanda istifadəsi ilə təhlil etmək olar.

70. Ona görə də MİXT-nın DİOFT, MFİT və QTMT-nın iqtisadi siyasət sahəsində Dövlətin maraqlarını və müəssisələrin maraqları ilə kəsişən ev təsərrüfatları ilə əlaqədar maraqları əks etdirən bölmələrin hormonizə edilməsinə çalışmaq lazımdır. Məsələn, bu dörd sektorun hər birinin məşğul olduğu «Təhsil» və «Səhiyyə» kateqoriyalarına aiddir. Bununla yanaşı belə məsələlərin həllində müəssisələrin, həmçinin Dövlət idarəetmə orqanlarının və ev təsərrüfatlarının dayaq nöqtəsi müxtəlif ola bildiyindən, bu xərclər bütün təsnifatlarda eyni dərəcədə xırdalanma səviyyəsində göstərilməməlidir. Bir halda xərclər (məsələn, «Marketinq xərcləri») MİXT-nın bölmə səviyyəsində (digər təsnifatlarda göstərilmir) göstərilir. Digər halda «Müdafiə», «İctimai asayiş və təhlükəsizlik» və s. maddələr DİOFT-nın bölmə səviyyəsində (MFİT və ya MİXT-da göstərilmir) göstərilir. Digər xərclər (məsələn, «Ətraf mühitin mühafizəsinə yönəldilən xərclər») MİXT və DİOFT-nın bölmə səviyyəsində və MFİT-nın yalnız sinif səviyyəsində göstərilir.

71. Bütün məqsədlər üzrə təsnifatların birlikdə baxılmasının bir səbəbi də MHS-93-ə yeni konsepsiyanın, faktiki istehlakın (MHS-93, bənd 9.72), daxil edilməsidir. Bu konsepsiyanın daxil edilməsinin məqsədlər üzrə xərclər təsnifatları üçün bir başa nəticəsi ev təsərrüfatları tərəfindən Dövlət idarəetmə orqanlarından və ev təsərrüfatlarına xidmət göstərən qeyri-kommersiya təşkilatlarından alınan natura formasında transfertlərə aid edilən bütün xərclər üzrə DİOFT, MFİT və QTMT-ın hormonizə edilməsinə tələbat oldu. MHS-93 də verilmiş anlayışlar baxımından bu yeni konsepsiya MİXT-nın strukturuna toxunmamışdır. Lakin, əgər ev təsərrüfatlarının həyat səviyyəsinin təmin edilməsində təkcə Dövlət idarəetmə orqanları və ev təsərrüfatlarına xidmət göstərən qeyri-kommersiya təşkilatları deyil, həmçinin müəssisələrin də əməyinin olması qəbul edilərsə, vəziyyət dəyişilə bilər.

72. MHS-93-də müəssisələrin ev təsərrüfatlarının həyat səviyyəsində iştirakı aralıq istehlak və ya əmək haqqı və natural formasında əmək haqqı şəklində öz əksini tapmışdır. «İşlə təmin edənlər tərəfindən işçilərin öz vəzifələrinin həyata keçirilməsi üçün onlara təqdim edilməli olan əmtəə və ya xidmətlər aralıq istehlaka aid edilmir» (MHS-93, bənd 7.39). MHS-93-ün 6.155-ci bəndində bu əmtəə və xidmətlərin ayrı-ayrı nümunələri verilmişdir. «Natural formada haqq … iş üçün vacib olan əmtəə və xidmətlərdən ibarətdir və işçilər onlardan iş vaxtından kənarda öz ixtiyarları ilə şəxsi tələbatlarının və həmçinin öz ev təsərrüfatlarının digər üzvlərinin tələbatlarının təmin edilməsi üçün istifadə edə bilərlər» (MHS-93, bənd 7.39). Bu xərclər natural formada haqq kimi izah olunduğu halda nəticədə onlar ev təsərrüfatlarının son istehlakına düşür və sonra da MİXT əsasında məqsədlər üzrə təsnifləşdirilir. MHS-93-ün 7.40 bəndində natural formada haqqa aid edilə bilən bir çox əmtəə və xidmətlər verilmişdir. Ev təsərrüfatlarının həyat səviyyəsinin təmin edilməsində müəssisələrin əməyinin təkcə əmək haqqı və natural formada haqq şəklində deyil, həmçinin natural formada mədəni transferlər də daxil edilməklə sosial transferlərin bütün növləri şəklində işıqlandırılması üçün MİXT-nın kateqoriyalarının əlavə təhlildə (müəssisələrin xərclərinin kateqoriyalarının köməkçi fəaliyyət şəklində ayrılması üçün) istifadəsi təklif olunur. Yuxarıda verilmiş terminalogiyalardan istifadə edərək demək olar ki, bu xərclər insan kapitalına investiyalar xarakteri daşıyacaq və müəssisələrin işçilərin təhsilinə və ya peşə hazırlığına (məsələn, hazırlıq kurslarına, texniki-peşə hazırlığına), tibbi xidmətə (tibbi müayinəyə – peşə yararlılığının müəyyən edilməsi məqsədi ilə olan məcburi müayinələrdən başqa, immunizasiyasını) və s. yönəltdikləri xərcləri özündə birləşdirə bilər. Bu məqsədlər üçün MİXT-nın istifadə edilməsi onun kateqoriyalarının MFİT-nın və məqsədələr üzrə xərclərin digər təsnifatlarının

kateqoriyaları ilə uzlaşdırılması tələb olunur. Bu, onun üçün tələb olunur ki, bütün sektorlar üzrə aralıq və son istehlak xərclərinin uyğun gələnlərinin aqreqasiyalaşdırılmasının həyata keçirilməsi mümkün olsun.

## MİXT və onun fəaliyyət və məhsul növləri təsnifatları ilə əlaqəsi

73. MİXT-nin hazırlanması zamanı nəzərə alınmışdır ki, o, əsasən təşkilatlar tərəfindən müəyyənləşdirilən istehsal məlumatlarını, kapital yığımı və digər istehsalla bağlı məlumatların təsnifatlaşdırılması üçün istifadə ediləcəkdir. Nəzərə alsaq ki, belə məlumatlar ISIC-in kateqoriyaları tərəfindən də təsnifatlaşdırılır, o halda MİXT, ISIC və eləcədə əsas məhsul təsnifatı olan CPC arasında sıx əlaqəni müəyyənləşdirmək lazım gələcəkdir. Belə ki, MİXT əsasən milli hesabların əsas təhlilində təşkilatlara aid edilməyən müəssisələrin köməkçi fəaliyyəti üzrə istehsala aid olan məlumatların müəyyən edilməsi üçün istifadə ediləcəkdir. Lakin köməkçi hesablarda ətraf mühitin mühafizəsi, səhiyyə və təhsil kimi məsələlər ayrıca vahidlərlə verilməlidir. Digər tərəfdən, qeyd edildiyi kimi, MİXT yalnız istehsalın xərcləri təsnifatı kimi deyil, eləcədə digər məlumatların, kreditlərin və borcların, kapital transferlərinin, istehsal fəaliyyətinin maliyyələşdirilməsi ilə bağlı investisiyaların cəlb edilməsi və faizlərin verilməsi kimi məsələlərin təsnifatlaşdırılması üçün də istifadə edilə bilər. Buna görə də CPC və ISIC - in əsas kateqoriyalarının hamısı MİXT altbölmələrində əks olunmamalıdır. Yalnız onlardan bəziləri MİXT-nin altqruplarına aid edilə bilər.

74. MİXT kateqoriyasını ISIC-in təkrar baxılmış üçüncü variantında və CPC-nin 1.0 variantında asan ayırmaq mümkündür. Ümumi götürdükdə isə ISIC-ə nisbətən CPC çox xırda detalizasiyaya malikdir. Misal üçün ISIC 73 altbölməsində ETTKİ "tədqiqatlar və işləmələr" iki tədqiqat sahəsi üzrə təsnifləşdirilir: birincisi – təbiət elmləri və mühəndislik, digəri – ictimai və humanitar elmlər. CPC-nin 81 (tədqiqatlar və işləmələr sahəsində xidmətlər) altbölməsində isə 12 müxtəlif ETTKİ kateqoriyaları ayrılır. Hər iki təsnifatda onlar tədqiqat sahəsində bölünürlər. Bu isə o deməkdir ki, MİXT-da da TMXT-da edildiyi kimi tədqiqat mərhələləri (əsaslı tədqiqatlar, tətbiqi tədqiqatlar və s.) üzrə deyil, tədqiqat sahələri üzrə altbölmələr olmalıdır.

75. MİXT 01 "infrastruktura xərcləri" altbölməsini ISIC-nin 64 "Poçt və rabitə" altbölməsi, 72 "kompüter və qarışıq fəaliyyət" altbölməsi və 742 "arxitektura, mühəndislik və digər texniki fəaliyyət sahəsində fəaliyyət" altbölməsi üzrə təsvir etmək mümkündür. Onu həmçinin CPC-nin uyğun

xidmətlər kateqoriyası vasitəsi ilə də təsvir etmək olar. Misal üçün CPC 1.0 variantında 83 "Digər peşəkar, elmi və texniki xidmətlər" altbölməsi ilə birlikdə, kompüterlə məsləhət xidmətləri, arxitektura xidmətləri, mühəndis və digər texniki xidmətlər də qruplaşdırılır. Bu MİXT altbölməsi də həmçinin CPC 841 "rabitə xidmətləri" qrupuna aid edilə bilər.

76. Təkrar baxılması nəticəsində MİXT cədvəl 5.2-də verildiyi kimi əvvəlki variantda ayrılmış doqquz altbölməyə uyğun gələn altı altbölmələrə bölünmüşdür.

**Cədvəl 5.2. MİXT və TMXT arasında olan uyğunluq**

| MİXT | TMXT |
|---|---|
| 01 infrastruktura xərcləri | 2* texniki xidmət və təmir xərcləri |
| | 3 mühəndis-texniki işləri xərcləri |
| 02 elmi-tədqiqat və təcrübi-konstruktor işlərinə sərf olunan xərclər | 2* texniki xidmət və təmir xərcləri |
| | 4 elmi-tədqiqat və təcrübi-konstruktor işlərinə çəkilən xərclər |
| 03 ətraf mühitin mühafizəsinə çəkilən xərclər | 2* texniki xidmət və təmir xərcləri |
| | 5 ətraf mühitin çirklənməsinə qarşı mübarizə və çirklənmənin səviyyəsinə nəzarət xərcləri |
| 04 Marketinq xərcləri | 2* texniki xidmət və təmir xərcləri |
| | 6 satışın genişləndirilməsinə çəkilən xərclər |
| 05 əmək ehtiyatlarının inkişafına xərclər | 2* texniki xidmət və təmir xərcləri |
| | 8 normal iş fəaliyyətinin yaradılması üzrə sosial kömək və tədbirlərə çəkilən xərclər |
| 06 Cari istehsal proqramlarına, inzibati-təsərrüfat fəaliyyətinə və idarəetməyə çəkilən xərclər | 1 Cari istehsal proqramlarına çəkilən xərclər |
| | 2* Texniki xidmət və təmir xərcləri |
| | 7 Xarici nəqliyyat xidməti xərcləri |
| | 9 Ümumi inzibati-təsərrüfat fəaliyyəti xərcləri |

**Qeyd:** (*) işarəsi qismən uyğunluğu göstərir, yəni «texniki xidmətə və təmirə sərf olunan xərclər» kateqoriyası MİXT-nin bütün altı altbölməsi arasında paylanır, belə ki, artıq tam kateqoriya hesab edilmir.

**İkinci hissə**

# DÖVLƏT İDARƏETMƏ ORQANLARININ FUNKSİYALARININ TƏSNİFATI (DİOFT)

# Dövlət idarəetmə orqanlarının funksiyalarının təsnifatı

Bölmələr

| | |
|---|---|
| **01** | **Ümumi təyinatlı dövlət idarələri** |
| **02** | **Müdafiə** |
| **03** | **İctimai asayiş və təhlükəsizlik** |
| **04** | **İqtisadi məsələlər** |
| **05** | **Ətraf mühitin mühafizəsi** |
| **06** | **Mənzil və kommunal xidmətləri** |
| **07** | **Səhiyyə** |
| **08** | **İstirahət, mədəniyyət və din** |
| **09** | **Təhsil** |
| **10** | **Sosial müdafiə** |

# Dövlət idarəetmə orqanlarının funksiyalarının təsnifatı

## Bölmələr və qruplar üzrə bölünmə

**01 Ümumi təyinatlı dövlət idarələri**

01.1 İcra və qanunverici orqanlar, büdcə-maliyyə məsələləri, beynəlxalq münasibətlər
01.2 Xarici iqtisadi yardım
01.3 Ümumi xidmətlər
01.4 Əsaslı tədqiqatlar
01.5 Ümumi təyinatlı dövlət xidmətləri ilə əlaqədar ETTKİ
01.6 Digər kateqoriyalara aid edilməyən ümumi təyinatlı dövlət xidmətləri
01.7 Dövlət borcları ilə əlaqədar əməliyyatlar
01.8 Müxtəlif səviyyəli dövlət idarəetmə orqanları arasında ümumi xarakterli transferlər

**02 Müdafiə**

02.1 Silahlı qüvvələr
02.2 Mülki müdafiə
02.3 Xarici hərbi yardım
02.4 Müdafiə sahəsində ETTKİ
02.5 Digər kateqoriyalara aid edilməyən müdafiə məsələləri

**03 İctimai asayiş və təhlükəsizlik**

03.1 Polis xidmətləri
03.2 Yanğından mühafizə
03.3 Məhkəmələr
03.4 Həbsxanalar
03.5 İctimai asayiş və təhlükəsizlik məsələləri ilə əlaqədar ETTKİ
03.6 Digər kateqoriyalara aid edilməyən ictimai asayiş və təhlükəsizlik məsələləri

**04 İqtisadi məsələlər**

04.1 Ümumi iqtisadi və kommersiya məsələləri və işçi qüvvəsinə aid olan məsələlər
04.2 Kənd təsərrüfatı, meşə təsərrüfatı, balıqçılıq və ovçuluq
04.3 Yanacaq və energetika
04.4 Mədənçıxarma sənayesi, emal sənayesi və tikinti

04.5 Nəqliyyat
04.6 Rabitə
04.7 Digər sahələr
04.8 İqtisadi məsələlərlə əlaqədar ETTKİ
04.9 Digər kateqoriyalara aid edilməyən iqtisadi məsələlər

**05 Ətraf mühitin mühafizəsi**

05.1 Tullantıların yığılması və təmizlənməsi
05.2 Çirkab suların yığılması və təmizlənməsi
05.3 Ətraf mühitin çirklənməsi ilə mübarizə
05.4 Biomüxtəlifliyin qorunması və landşaftın mühafizəsi
05.5 Ətraf mühitin mühafizəsi sahəsində ETTKİ
05.6 Ətraf mühitin mühafizəsinin digər kateqoriyalarına daxil edilməyən məsələləri

**06 Mənzil və kommunal xidmətləri**

06.1 Mənzil tikintisi
06.2 Kommunal inkişaf
06.3 Su təchizatı
06.4 Küçələrin işıqlandırılması
06.5 Mənzil və kommunal təsərrüfatı sahəsində ETTKİ
06.6 Digər kateqoriyalara daxil edilməyən mənzil və kommunal xidmətləri

**07 Səhiyyə**

07.1 Səhiyyədə istifadə edilən tibbi məhsullar, avadanlıq və məmulatlar
07.2 Ambulator xidmətləri
07.3 Xəstəxanaların xidmətləri
07.4 Səhiyyə sahəsində xidmətlər
07.5 Səhiyyə sahəsində ETTKİ
07.6 Digər kateqoriyalara daxil edilməyən səhiyyə məsələləri

**08 İstirahət, mədəniyyət və din**

08.1 İstirahətin və idmanla məşğuliyyətin təşkili sahəsində xidmətlər
08.2 Mədəniyyət sahəsində xidmətlər
08.3 Radio, televerilişlər və nəşriyyat işləri sahəsində xidmətlər
08.4 Dini və digər ictimai xidmətlər
08.5 İstirahət, mədəniyyət və din sahəsində ETTKİ

08.6 Digər kateqoriyalara daxil edilməyən İstirahət, mədəniyyət və din məsələləri

**09 Təhsil**

09.1 Məktəbəqədər və ibtidai təhsil
09.2 Orta təhsil
09.3 Üzadılmış orta təhsil
09.4 Ali təhsil
09.5 Pillələrə bölünməmiş təhsil
09.6 Təhsil sistemində köməkçi xidmətlər
09.7 Təhsil sahəsində ETTKİ
09.8 Digər kateqoriyalara daxil edilməyən təhsil məsələləri

**10 Sosial müdafiə**

10.1 Xəstəliklər və əmək qabiliyyətini itirmə
10.2 Qocalıq
10.3 Ailə başçısından məhrum olmuş öhdədə olanlar
10.4 Ailə və uşaqlar
10.5 İşsizlik
10.6 Yaşayış yeri
10.7 Digər kateqoriyalara daxil edilməyən sosial acizlik məsələləri
10.8 Sosial müdafiə sahəsində ETTKİ
10.9 Digər kateqoriyalara daxil edilməyən sosial müdafiə məsələləri

# Dövlət idarəetmə orqanlarının funksiyalarının təsnifatı

## Altruplar üzrə bölünmə

Qeyd: CS və IS işarələri müvafiq olaraq kollektiv və fərdi xassəli xidmətləri göstərir

**01 ÜMUMI TƏYINATLI DÖVLƏT IDARƏLƏRI**

**01.1 İcra və qanunverici orqanlar, büdcə-maliyyə məsələləri, beynəlxalq münasibətlər**

*01.1.1 İcra və qanunverici orqanlar (CS)*

- icra və qanunverici orqanlara rəhbərlik və onların idarə edilməsi və ya onlara kömək göstərilməsi.

Daxildir: bütün inzibati səviyyələrdə icra hakimiyyəti başçısının dəftərxanası – monarxın, general-qubernatorun, prezidentin, baş nazirin, qubernatrun, merin və s. dəftərxanası; bütün inzibati səviyyələrdə qanunverici orqanlar – parlamentlər, deputat palataları, senatlar, assambleyalar, bələdiyyələr və s.; belə icra dəftərxanalarına və qanunverici orqanlara xidmət göstərən məsləhətçi, inzibati və siyasi işçilər; əsasən icra və qanunverici hakimiyyət orqanlarına xidmət göstərən kitabxana və digər məlumat idarələri; ali icra və qanunverici hakimiyyətin nümayəndələrinin və onların köməkçilərinin sərəncamına verilmiş maddi vəsaitlər; ali icra və qanunverici hakimiyyət nümayəndələri tərəfindən yaradılmış və ya onların adından hərəkət edən daimi və ya xüsusi komissiya və komitələr.

Daxil deyil: konkret funksiyalar həyata keçirən təsisat orqanları, yerli hakimiyyət orqanlarının şöbə rəislərinin dəftərxanaları, idarələrarası komitələr və s. (həyata keçirdikləri funksiyalara uyğun olaraq təsnifləşdirilirlər).

*01.1.2 Büdcə-maliyyə məsələləri (CS)*

- büdcə-maliyyə fəaliyyətinə və bununla bağlı xidmətlərə rəhbərlik; dövlət fondlarının sərf edilməsi və dövlət borclarının idarə edilməsi; vergi sisteminin idarə edilməsi;

- xəzinədarlıq və maliyyə nazirliyinin, büdcə idarələrinin, dövlət gəlirlərinin yığılmasının daxili sisteminin, gömrük orqanlarının, mühasibatlığın və auditor xidmətinin idarə edilməsi;
- ümumi səpkili məlumatların, texniki sənədləşmənin hazırlanması və yayılması, büdcə-maliyyə məsələləri və bununla əlaqədar xidmətlər üzrə statistik məlumatların yığılması.

Daxildir: bütün inzibati səviyyələrdə büdcə-maliyyə məsələləri və bununla bağlı xidmətlər.

Daxil deyil: dövlət istiqrazları üçün zəmanətlərə görə və ya onların yerləşdirilməsi üçün xərclər və istiqrazların faizlərinə görə ödəmələr (01.7.0); bank sisteminə nəzarət (04.1.1).

*01.1.3 Beynəlxalq münasibətlər (CS)*

- beynəlxalq münasibətlərlə bağlı məsələlərə rəhbərlik və bunula əlaqədar xidmətlər;
- xarici işlər nazirliyinin və xaricdə və beynəlxalq təşkilatlarda yerləşdirilmiş diplomatik və konsulluq missiyalarının idarə edilməsi; xarici fəaliyyətin həyata keçirilməsi üçün təsis edilmiş məlumat və mədəniyyət xidmətlərinin idarə edilməsi və ya onlara köməklik göstərilməsi; xaricdə yerləşən kitabxanaların, oxu zallarının və məlumat xidmətlərinin idarə edilməsi və ya onlara kömək göstərilməsi;
- beynəlxalq təşkilatların ümumi cari xərclərinin təminatı üçün vaxtaşırı yazılma və xüsusi ödənişlər.

Daxil deyil: inkişaf etməkdə olan və iqtisadiyyatları keçid dövrünü yaşayan ölkələrə iqtisadi kömək (01.2.1); iqtisadi kömək göstərilmə məsələləri üzrə xarici hökumətlərin yanında akkreditə olunmuş səfərlər (01.2.1); beynəlxalq və ya dini təşkilatların həyata keçirdikləri kömək proqramlarına ödənişlər (01.2.2); xaricdə yerləşdirilmiş hərbi hissələr (02.1.0); digər ölkələrə hərbi yardım (02.3.0); ümumi xarici iqtisadi və kommersiya məsələləri (04.1.1); turizmlə bağlı məsələlər və bununla əlaqədar xidmətlər (04.7.3).

## 01.2 Xarici iqtisadi yardım

*01.2.1 İnkişaf etməkdə olan və iqtisadiyyatları keçid dövrünü yaşayan ölkələrə iqtisadi yardım (CS)*

- İnkişaf etməkdə olan və iqtisadiyyatları keçid dövrünü yaşayan ölkələrlə iqtisadi əməkdaşlıq məsələlərinə rəhbərlik;
- iqtisadi yardım göstərilməsi üzrə xarici hökumətlərin yanında akkreditə olunmuş missiyaların idarə edilməsi; təqaüdlərin verilməsi proqramları və ya kadrlara köməklik göstərilməsi də daxil olmaqla texniki yardım və kadrların hazırlanması proqramlarının idarə edilməsi;
- qaytarılmayan borclar (maliyyə və maddi formada) və ya kreditlər (onlara görə alınan faizlərdən asılı olmayaraq) şəklində iqtisadi yardım.

Daxil deyil: beynəlxalq və regional təşkilatların iqtisadi inkişaf fondlarına ödənişləri (01.2.2); digər dövlətlərə hərbi yardım (02.3.0).

*01.2.2 Beynəlxalq təşkilatlar vasitəsilə göstərilən iqtisadi yardım (CS)*

- Beynəlxalq təşkilatlar vasitəsilə göstərilən iqtisadi yardımla bağlı məsələlərə rəhbərlik;
- Beynəlxalq, regional və ya digər çoxmillətli təşkilatların iqtisadi inkişaf fondlarına maliyyə və maddi formada edilən ödənişlər.

Daxil deyil: sülhün saxlanılması üzrə beynəlxalq əməliyyatlara köməklik göstərilməsi (02.3.0).

## 01.3 Ümumi xidmətlər

Bu qrup bir qayda olaraq idarəetmənin müxtəlif səviyyələrində olan mərkəzi orqanlar tərəfindən göstərilən, konkret funksiyanı həyata keçirməklə əlaqədar olmayan xidmətləri əhatə edir. O, həmçinin belə mərkəzi orqanların göstərdiyi konkret funksyaların həyata keçirilməsi ilə əlaqədar xidmətləri də əhatə edir. Məsələn, buraya iqtisadi fəaliyyətin sahələri, ətraf mühitin qorunması, səhiyyə və ya təhsil üzrə statistik məlumatların mərkəzi statistika orqanları tərəfindən yığılması da daxildir.

*01.3.1 Kadrlar sahəsində xidmətlərlə bağlı ümumi məsələlər (CS)*

- ümumi kadr siyasəti və işçilərin seçilməsi və onların vəzifələrinin qaldırılması, vəzifələrin tarifləşdirilməsi, müəyyənləşdirilməsi, qiymətləndirilməsi və təsnifləşdirilməsi ilə bağlı məsələlərə, dövlət mülki xidmətini tənzimləyən normalara riayət edilməsinə nəzarəti və s. əhatə edən üsulların işlənib hazırlanması və həyata keçirilməsi də daxil olmaqla, kadrlar sahəsində xidmətlərlə bağlı ümumi məsələlərə rəhbərlik və onun idarə edilməsi.

<u>Daxil deyil</u>: kadrlar sahəsində fəaliyyət və konkret funksiyanın həyata keçirilməsi ilə əlaqədar xidmətlər (həyata keçirilən funksiyaya uyğun olaraq təsnifləşdirilir).

*01.3.2 Planlaşdırma xidmətləri və ümumi təyinatlı statistika xidmətləri (CS)*

- iqtisadi və sosial, həmçinin ümumi təyinatlı statistik plan və proqramların işlənib hazırlanması, onların əlaqələndirilməsi və həyata keçirilməsinə daimi nəzarət də daxil olmaqla, iqtisadi və sosial planlaşdırma idarələrinə və ümumi təyinatlı statistika idarələrinə rəhbərlik və onların idarə edilməsi.

<u>Daxil deyil</u>: konkret funksiyanın həyata keçirilməsi ilə əlaqədar iqtisadi və sosial planlaşdırma idarələri və statistika idarələri (həyata keçirdikləri funksiyaya uyğun olaraq təsnifləşdirilir).

*01.3.3 Digər ümumi idarələr (CS)*

- mərkəzləşdirilmiş tədarük və təchizat idarələri, dövlət sənədlərinin və arxivlərin uçotu və saxlanması, hökumətə mənsub olan və ya onun yerləşdiyi binaların, mərkəzi avtoparkların, dövlət mətbəələrinin istismarı, mərkəzləşdirilmiş kompüter xidmətləri və məlumatların işlənməsi üzrə xidmətlər və s. kimi digər ümumi idarələrə və xidmətlərə rəhbərlik və onların idarə edilməsi.

<u>Daxil deyil</u>: konkret funksiyanın həyata keçirilməsi ilə əlaqədar digər ümumi idarələr (həyata keçirdikləri funksiyaya uyğun olaraq təsnifləşdirilir).

**01.4 Əsaslı tədqiqatlar**

Əsaslı tədqiqatlar – bu, əsas hadisələr və müşahidə olunan faktlar haqqında yeni biliklərin alınması üçün həyata keçirilən, hər hansı konkret tətbiqi və ya təcrübi məqsəd güdməyən eksperimental və ya nəzəri fəaliyyətdir.

*01.4.0 Əsaslı tədqiqatlar (CS)*

- əsaslı tədqiqatlarla məşğul olan dövlət idarələrinə rəhbərlik və onların idarə edilməsi;
- elmi-tədqiqat institutları və universitetləri kimi qeyri-dövlət təşkilatları tərəfindən həyata keçirilən əsaslı tədqiqatlara yardım məqsədilə qaytarılmayan borcların, kreditlərin və subsidiyaların verilməsi;

Daxil deyil: tətbiqi və eksperimental işləmələr (həyata keçirdikləri funksiyaya uyğun olaraq təsnifləşdirilir).

**01.5 Ümumi təyinatlı dövlət xidmətləri ilə əlaqədar ETTKİ**

Tətbiqi tədqiqatlar – bu, əsasən konkret praktiki məqsədlərə nail olunması üçün yönəldilmiş yeni biliklərin əldə edilməsi sahəsində həyata keçirilən xüsusi tədqiqat fəaliyyətidir.

Təcrübi işləmələr – bu, elmi tədqiqatlar və praktiki təcrübə nəticəsində əldə olunmuş biliklərin istifadəsinə əsaslanan, yeni materialların, məmulat və qurğuların yaradılmasına, yeni proseslərin, sistemlərin və xidmətlərin tətbiqinə və ya artıq mövcud olan materialların, məmulatların və qurğuların yaxud proseslərin, sistemlərin və xidmətlərin xeyli təkmilləşdirilməsinə yönəldilən sistematik işdir.

*01.5.0 Ümumi təyinatlı dövlət idarələri ilə əlaqədar ETTKİ (CS)*

- ümumi təyinatlı dövlət idarələri ilə əlaqədar tətbiqi tədqiqatlarla və təcrübi işləmələrlə məşğul olan dövlət idarələrinə rəhbərlik və onların idarə edilməsi;
- elmi-tədqiqat institutları və universitetləri kimi qeyri-dövlət təşkilatları tərəfindən həyata keçirilən ümumi təyinatlı dövlət idarələri ilə əlaqədar tətbiqi tədqiqatlara və təcrübi işləmələrə yardım məqsədilə qaytarılmayan borcların, kreditlərin və subsidiyaların verilməsi.

Daxil deyil: əsaslı tədqiqatlar (01.4.0).

**01.6 Digər kateqoriyalara aid edilməyən ümumi təyinatlı dövlət xidmətləri**

*01.6.0 Digər kateqoriyalara aid edilməyən ümumi təyinatlı dövlət xidmətləri (CS)*

- seçicilərin qeydiyyatı, seçkilərin və referendumların keçirilməsi, həmçinin özü-özünü idarə etməyən və qəyyumluq altında olan ərazilərin işləri və s., və ya onlara kömək göstərilməsi kimi məsələlərlə məşğul olan ümumi təyinatlı dövlət idarələrinə rəhbərlik və onların idarə edilməsi.

Daxildir: (01.1), (01.2), (01.3), (01.4) və ya (01.5) qruparına aid edilə biləcək ümumi təyinatlı dövlət idarələri.

Daxil deyil: dövlət borcları ilə əlaqədar əməliyyatlar (01.7); müxtəlif səviyyəli dövlət idarəetmə orqanları arasında ümumi xarakterli transferlər (01.8).

**01.7 Dövlət borcları ilə əlaqədar əməliyyatlar**

*01.7.0 Dövlət borcları ilə əlaqədar əməliyyatlar (CS)*

- dövlət istiqrazlarının zəmanətləri və ya onların yerləşdirilməsi ilə əlaqədar faizlərin və məsariflərin ödənilməsi.

Daxil deyil: dövlət borclarının idarəedilməsi ilə əlaqədar inzibati xərclər (01.1.2).

**01.8 Müxtəlif səviyyəli dövlət idarəetmə orqanları arasında ümumi xarakterli transferlər**

*01.8.0 Müxtəlif səviyyəli dövlət idarəetmə orqanları arasında ümumi xarakterli transferlər (CS)*

- müxtəlif səviyyəli dövlət idarəetmə orqanları arasında ümumi xarakter daşıyan və konkret funksiyaya aid edilə bilməyən transferlər.

## 02 MÜDAFİƏ

### 02.1 Silahlı qüvvələr

*02.1.0 Silahlı qüvvələr (CS)*

- silahlı qüvvələr və müdafiə sahəsində məsələlər və xidmətlərə rəhbərlik;
- quru, dəniz, hava və kosmik hücumlardan müdafiə qüvvələrinin idarə edilməsi; mühəndis və nəqliyyat qovşaqlarının, rabitə qoşunlarının, kəşfiyyatın, kadrlar xidmətinin və digər qeyri-nizami xidmətlərin idarə edilməsi; ehtiyatda olanların və müdafiə məqsədli köməkçi qüvvələrin idarə edilməsi və ya onlara kömək göstərilməsi.

<u>Daxildir</u>: xaricdə olan hərbi attaşelərin aparatları; səhra hospitalları.

<u>Daxil deyil</u>: hərbi yardımın göstərilməsi üzrə missiyalar (02.3.0); köçürmə hospitalları (07.3); dərs proqramları mülki məktəblərin proqramlarına uyğun olan hərbi məktəblər, baxmayaraq ki, orada təhsil alanlar yalnız hərbiçilər və onların ailə üzvləri ilə məhdudlaşa bilər [(09.1), (09.2), (09.3) və ya (09.4)]; hərbiçilərin təqaüd təminatı proqramları (10.2).

### 02.2 Mülki müdafiə

*02.2.0 Mülki müdafiə (CS)*

- mülki müdafiə məsələləri və bununla bağlı xidmətlərə rəhbərlik; müxtəlif şəraitdə hərəkət planlarının işlənib hazırlanması; mülki idarələrin və əhalinin cəlb edilməsi ilə təlimlərin keçirilməsi;
- mülki müdafiə qüvvələrinin idarə edilməsi və ya onlara köməklik göstərilməsi.

<u>Daxil deyil</u>: mülki əhalinin qorunması xidmətləri (03.2.0); əmin-amanlıq dövründə fövqəladə vəziyyətlərdə istifadə üçün ərzaq, avadanlıq və digər ehtiyatların alınması və saxlanması (10.9.0).

## 02.3 Xarici hərbi yardım

*02.3.0 Xarici hərbi yardım (CS)*

- hərbi yardım məsələlərinə rəhbərlik və xarici dövlətlərin hökumətləri yanında akkreditə olunmuş və ya beynəlxalq hərbi təşkilatlara və ya ittifaqlara verilmiş, hərbi yardım göstərilməsi üzrə missiyaların idarə edilməsi;
- qaytarılmayan borclar (maliyyə və maddi formada), kreditlər (onlara görə tutulan faizlərdən asılı olmayaraq) şəklində hərbi yardım və ya qaytarılmaq şərti ilə avdanlıqların borc verilməsi; hərbi kontingentlərin verilməsi də daxil olmaqla, sülhün qorunması üzrə beynəlxalq qüvvələrin saxlanmasında iştirak.

## 02.4 Müdafiə sahəsində ETTKİ

Əsaslı və tətbiqi tədqiqatların və təcrübi işləmələrin tərifləri (01.4) və (01.5) qruplarında verilmişdir.

*02.4.0 Müdafiə sahəsində ETTKİ (CS)*

- müdafiə ilə əlaqədar tətbiqi tədqiqatlar və təcrübi işləmələr həyata keçirən dövlət idarələrinə rəhbərlik və onların idarə edilməsi.
- elmi-tədqiqat institutları və universitetləri kimi qeyri-dövlət təşkilatları tərəfindən həyata keçirilən müdafiə ilə əlaqədar tətbiqi tədqiqatların və təcrübi işləmələrin həyata keçirilməsi üçün qaytarılmayan borcların, kreditlərin və subsidiyaların verilməsi.

Daxil deyil: əsaslı tədqiqatlar (01.4.0).

## 02.5 Digər kateqoriyalara aid edilməyən müdafiə məsələləri

*02.5.0 Digər kateqoriyalara aid edilməyən müdafiə məsələləri (CS)*

- müdafiə ilə əlaqədar ümumi siyasətin, planların, proqramların və büdcələrin işlənib hazırlanması, onlara rəhbərlik, onların əlaqələndirilməsi və onların həyata keçirilməsinə nəzarət kimi fəaliyyət növlərinə rəhbərlik, onların idarə edilməsi və onlara köməklik göstərilməsi; müdafiə ilə əlaqədar qanunların işlənib hazırlanması və

onlara əməl olunmasının təmin edilməsi; müdafiə məsələləri üzrə ümumi xarakterli məlumatların, texniki sənədlərin hazırlanması və yayılması və statistik məlumatların yığılması; və s.

Daxildir: (02.1), (02.2), (02.3) və (02.4) qruplarına aid edilə bilinməyən müdafiə məsələləri və bunlarla əlaqədar xidmətlər.

Daxil deiyl: müharibə veteranlarının işlərinin idarə edilməsi (10.2).

## 03 İCTIMAI ASAYIŞ VƏ TƏHLÜKƏSIZLIK

### 03.1 Polis xidmətləri

*03.1.0 Polis xidmətləri (CS)*

- xaricilərin qeydiyyatı, mühacirlərə işçi və yol sənədlərinin verilməsi, məhbuslarla əlaqədar və polisin işi ilə bağlı statistika ilə əlaqədar sənədləşmənin aparılması, yol hərəkətinin nizamlanması və ona nəzarət, qaçaqmalçılıq fəaliyyətinin qarşısının alınması, və dənizdə və okeanda balıq ovuna nəzarət də daxil edilməklə polisin fəaliyyəti və bununla əlaqədar xidmətlərə rəhbərlik.
- dövlət hakimiyyəti orqanları tərəfindən saxlanılan nizami və köməkçi polis qüvvələrinin, liman, sərhəd və sahil mühafizəsinin və digər xüsusi polis qüvvələrinin idarə edilməsi; kriminalist laboratoriyaların idarə edilməsi; polis üçün kadr hazırlığı proqramlarının idarə edilməsi və onlara yardım edilməsi.

Daxildir: yol hərəkəti müfəttişləri.

Daxil deyil: peşəkar hazırlıqla yanaşı ümumi təhsil verən polis kollecləri [(09.1), (09.2), (09.3) və ya (09.4)].

### 03.2 Yanğından mühafizə

*03.2.0 Yanğından mühafizə (CS)*

- yanğınla mübarizə və onun qarşısının alınması üzrə fəaliyyətə və bununla əlaqədar xidmətlərə rəhbərlik;

- dövlət hakimiyyəti orqanları tərəfindən saxlanılan nizami və köməkçi yanğınsöndürmə komandalarının və yanğınla mübarizə və onun qarşısının alınması üzrə digər xidmətlərin idarə edilməsi; yanğınla mübarizə və onun qarşısının alınması üzrə kadr hazırlığı proqramlarının idarə edilməsi və onlara yardım edilməsi.

Daxildir: dağda xilasetmə xidməti, çimərliklərə nəzarət xidməti, su basmış ərazilərdən əhalinin köçürülməsi və s. kimi mülki əhalinin qorunması xidmətləri.

Daxil deyil: mülki müdafiə (02.2.0); meşə yanğınları ilə mübarizə və onların qarşısının alınması üçün xüsusi hazırlanmış və təchiz olunmuş komandalar (04.2.2).

## 03.3 Məhkəmələr

### *03.3.0 Məhkəmələr (CS)*

- məhkəmələrin qərarı ilə cərimələrin alınması və məhkəmə qərarlarının yerinə yetirilməsi, və ya ona köməklik göstərilməsi, vaxtından qabaq şərti olaraq azadlığa buraxılma və şərti mühakimə sistemlərinin idarə edilməsi də daxil olmaqla mülki və cinayət məhkəmələrinə və məhkəmə sistemlərinə rəhbərlik və onların idarə edilməsi;
- hökumət tərəfindən maliyələşə və təchiz olunarsa, hökumət və ya başqa orqanlar adından hüquqi nümayəndəlik və məsləhətlər xidmətləri.

Daxildir: inzibati tribunallar, ombudsmenlər və s.

Daxil deyil: təcridxanalara rəhbərlik (03.4.0).

## 03.4 Həbsxanalar

### *03.4.0 Həbsxanalar (CS)*

- həbsxanalar və həbsxana-fermalar, həbsxana-emalatxanalar, islah evləri, borstal müəssisələr, islah əmək müəssisələri, ruhi xəstə olan cinayətkarlar üçün xəstəxanalar və s. kimi digər təcrid və ya cinayət törətmiş şəxslərin islaholunma yerlərinə rəhbərlik və onların idarə edilməsi, və ya onlara köməklik göstərilməsi.

## 03.5 İctimai asayiş və təhlükəsizlik məsələləri ilə əlaqədar ETTKİ

Əsaslı və tətbiqi tədqiqatların və təcrübi işləmələrin tərifləri (01.4) və (01.5) qruplarında verilmişdir.

*03.5.0 İctimai asayiş və təhlükəsizlik məsələləri ilə əlaqədar ETTKİ (CS)*

- ictimai asayiş və təhlükəsizlik məsələləri ilə əlaqədar tətbiqi tədqiqatlar və təcrübi işləmələr həyata keçirən dövlət idarələrinə rəhbərlik və onların idarə edilməsi;
- elmi-tədqiqat institutları və universitetləri kimi qeyri-dövlət təşkilatları tərəfindən həyata keçirilən, ictimai asayiş və təhlükəsizlik məsələləri ilə əlaqədar tətbiqi tədqiqatların və təcrübi işləmələrin həyata keçirilməsi üçün qaytarılmayan borcların, kreditlərin və subsidiyaların verilməsi.

Daxil deyil: əsaslı tədqiqatlar (01.4.0).

## 03.6 Digər kateqoriyalara aid edilməyən ictimai asayiş və təhlükəsizlik məsələləri

*03.6.0 Digər kateqoriyalara aid edilməyən ictimai asayiş və təhlükəsizlik məsələləri (CS)*

- İctimai asayiş və təhlükəsizlik məsələləri ilə əlaqədar ümumi siyasətin, planların, proqramların və büdcələrin işlənib hazırlanması, onlara rəhbərlik, onların əlaqələndirilməsi və onların həyata keçirilməsinə nəzarət kimi fəaliyyət növlərinə rəhbərlik, onların idarə edilməsi və onlara köməklik göstərilməsi; İctimai asayiş və təhlükəsizlik məsələləri ilə əlaqədar qanun və normativ sənədlərin işlənib hazırlanması və onlara əməl olunmasının təmin edilməsi; İctimai asayiş və təhlükəsizlik məsələləri üzrə ümumi xarakterli məlumatların, texniki sənədlərin hazırlanması və yayılması və statistik məlumatların yığılması.

Daxildir: (03.1), (03.2), (03.3), (03.4) və (03.5) qruplarına aid edilə bilinməyən İctimai asayiş və təhlükəsizlik məsələləri və bunlarla əlaqədar xidmətlər.

# 04. İQTISADI MƏSƏLƏLƏR

## 04.1 Ümumi iqtisadi və kommersiya məsələləri və işçi qüvvəsinə aid olan məsələlər

### *04.1.1 Ümumi iqtisadi və kommersiya məsələləri (CS)*

- Ümumi xarici iqtisadi və kommersiya məsələləri də daxil edilməklə ümumi iqtisadi və kommersiya məsələləri və xidmətlərinə rəhbərlik; ümumi iqtisadi və kommersiya siyasətinin işlənib hazırlanması və həyata keçirilməsi; müxtəlif dövlət idarələri arasında və hökumətlə işgüzar dairələr arasında əlaqələrin təmin edilməsi;
- ümumi idxal və ixrac, əmtəə və qiymətli kağız bazarları, gəlirlərə ümumi nəzarət, ticarətin inkişafına yardımla bağlı ümumi məsələlər, inhisarların fəaliyyətinin, ticarətin və bazara daxilolma münasibətlərinin digər məhdudiyyətlərinin ümumi tənzimlənməsi və s. kimi ümumi iqtisadi və kommersiya fəaliyyətinin tənzimlənməsi və ya onlara köməklik göstərilməsi;
- patentlərin və əmtəə nişanlarının verilməsi, müəllif hüquqları ilə bağlı məsələlər, şirkətlərin qeydiyyatı, hava proqnozu, standartlar, hidroloji tədqiqatların və geodezi axtarışların həyata keçirilməsi və s. ilə məşğul olan idarələrin idarə edilməsi və ya onlara kömək göstərilməsi;
- ümumi iqtisadi və kommersiya siyasətinin və proqramlarının həyata keçirilməsinə yardım məqsədilə qaytarılmayan borcların, kreditlərin və subsidiyaların verilməsi.

Daxildir: istehlakçıların maarifləndirilməsi və müdafiəsi.

Daxil deyil: konkret sahəyə aid olan iqtisadi və kommersiya məsələləri [müvafiq olaraq (04.2)-(04.7) qruplarına aid edilmişdir].

### *04.1.2 İşçi qüvvəsinə aid edilən ümumi məsələlər (CS)*

- İşçi qüvvəsinə aid edilən ümumi məsələlər və xidmətlərə rəhbərlik; işçi qüvvəsi sahəsində ümumi siyasətin işlənib hazırlanması və həyata keçirilməsi; əmək şərtlərinə (iş gününün müddəti, əmək haqqının məbləği, təhlükəsizlik texnikası və s.) nəzarət və onların tənzimlənməsi; müxtəlif

dövlət idarələri arasında və hökumət və bütün sənaye, sahibkar və həmkarlar ittifaqı təşkilatları arasında əlaqələrin təmin edilməsi;
- İşçi qüvvəsinin çevikliyinin artırılması, cins, irq, yaş və digər əlamətlərə görə diskriminasiyaların azaldılmasına, iqtisadi cəhətdən zəif inkişaf etmiş və və ya əlverişsiz vəziyyətdə olan rayonlarda işsizlik səviyyəsinin aşağı salınmasına, işsizlik səviyyəsinin yüksək olması ilə səciyyələnən binəsib və əhalinin digər qruplarında məşğulluğa yardım edilməsinə və s. yönəldilmiş ümumi proqram və planların idarə edilməsi və ya onlara köməklik göstərilməsi; əmək birjasının fəaliyyət göstərməsi; arbitraj və vasitəçilik xidmətlərinin idarə edilməsi və ya onlara köməklik göstərilməsi;
- İşçi qüvvəsinə aid edilən məsələlər və xidmətlər üzrə ümumi xarakterli məlumatların, texniki sənədlərin hazırlanması və yayılması və statistik məlumatların yığılması;
- İşçi qüvvəsi ilə əlaqədar ümumi siyasətin və proqramların həyata keçirilməsinə yardım məqsədilə qaytarılmayan borcların, kreditlərin və subsidiyaların verilməsi.

<u>Daxil deyil</u>: konkret sahəyə aid olan işçi qüvvəsi məsələləri [müvafiq olaraq (04.2)-(04.7) qruplarına aid edilmişdir]; işsizlərin pul və natura formasında müavinətlər şəklində sosial müdafiə ilə təmin edilməsi (10.5.0).

## 04.2 Kənd təsərrüfatı, meşə təsərrüfatı, balıqçılıq və ovçuluq

### *04.2.1 Kənd təsərrüfatı (CS)*

- kənd təsərrüfatı ilə bağlı məsələlər və xidmətlərə rəhbərlik; şumluq torpaqların sahələrinin saxlanması, meliorasiyası və ya artırılması; aqrar islahat və torpaqların məskunlaşdırılması; kənd təsərrüfatı istehsalına nəzarət və onun tənzimlənməsi;
- bu işlərin aparılması üçün qaytarılmayan borcların, kreditlərin və subsidiyaların verilməsi də daxil edilməklə daşqınlarla mübarizə sistemlərinin, süni suvarma (irriqasiya) və drenaj sistemlərinin tikintisi və istismarı;
- kənd təsərrüfatı məhsullarının qiymətlərinin və fermerlərin gəlirlərinin sabitləşdirilməsi və ya qaldırılması proqramlarının və planlarının idarə edilməsi və ya onlara

gömәklik göstәrilmәsi; fermerlәrә göstәrilәn aqrotәbliğat sahәsindә vә ya baytarlıq xidmәtlәrinin, kәnd tәsәrrüfatı ziyanvericilәri ilә mübarizә, toxumun keyfiyyәtinin yoxlanması vә sortlara ayrılması xidmәtlәrinin idarә edilmәsi vә ya onlara kömәklik göstәrilmәsi;

- kәnd tәsәrrüfatı ilә bağlı mәsәlәlәri vә xidmәtlәri üzrә ümumi xarakterli mәlumatların, texniki sәnәdlәrin hazırlanması vә yayılması vә statistik mәlumatların yığılması;
- konkret bitkilәrin istehsalının mәhdudlaşdırılması vә ya hәvәslәndirilmәsi vә ya torpaqların әkilmәmәsi üçün ödәnişlәr dә daxil olmaqla kәnd tәsәrrüfatı fәaliyyәti ilә әlaqәdar olaraq fermerlәrә kompensasiyaların, qaytarılmayan borcların, kreditlәrin vә subsidiyaların verilmәsi.

Daxil deyil: çoxmәqsәdli inkişaf layihәlәri (04.7.4).

*04.2.2 Meşә tәsәrrüfatı (CS)*

- meşә tәsәrrüfatı ilә bağlı mәsәlәlәrә vә xidmәtlәrә rәhbәrlik; meşә ehtiyatlarının saxlanması, genişlәndirilmәsi vә sәmәrәli istifadәsi; meşә ehtiyatlarının istismarına nәzarәt vә ağacların kәsilmәsinә lisenziyaların verilmәsi vә onların tәnzimlәnmәsi;
- meşә bәrpası üzrә işlәrin, ziyanvericilәrlә vә xәstәliklәrlә mübarizә üzrә xidmәtlәrin, meşә yanğınlarının qarşının alınması vә onlarla mübarizә üzrә xidmәtlәrin vә meşә tәsәrrüfatı ilә mәşğul olan şәxslәrә vә tәşkilatlara verilәn biliklәrin yayılması üzrә xidmәtlәrin idarә edilmәsi, vә ya onlara kömәklik göstәrilmәsi;
- meşә tәsәrrüfatı ilә bağlı mәsәlәlәr vә xidmәtlәr üzrә ümumi xarakterli mәlumatların, texniki sәnәdlәrin hazırlanması vә yayılması vә statistik mәlumatların yığılması;
- meşә tәsәrrüfatı sahәsindә kommersiya fәaliyyәtinә kömәklik göstәrilmәsi üçün qaytarılmayan borcların, kreditlәrin vә subsidiyaların verilmәsi.

Daxildir: oduncağın tәdarükünә әlavә olaraq meşә bitkilәri mәhsulunun yığılması.

*04.2.3 Balıqçılıq və ovçuluq (CS)*

Bu altqrup həm kommersiya, həm də idman məqsədilə balıqçılıq və ovçuluğu əhatə edir. Balıqçılıq və ovçuluq sahəsində aşağıda sadalanan məsələ və xidmətlər təbiət parklarının və qoruqların ərazilərindən kənarda həyata keçirilən fəaliyyət növlərinə aiddir.

- balıqçılıq və ovçuluqla bağlı məsələ və xidmətlərə rəhbərlik; balıq ehtiyatlarının və vəhşi heyvanların qorunması, çoxaldılması və səmərəli istifadəsi; çay, sahil və dəniz sularında balıq ovuna, balığın çoxaldılmasına, vəhşi heyvanların ovlanmasına və balıq ovuna və ovçuluğa verilən lisenziyalara nəzarət və onların tənzimlənməsi;
- balıq yetişdirmə məntəqələrinin, biliklərin yayılması üzrə xidmətlərin, ərazilərin heyvanlarla məskunlaşdırılması və ya seleksiya məqsədli ovun və s. idarə edilməsi və ya onlara köməklik göstərilməsi;
- balıqçılıq və ovçuluq ilə bağlı məsələ və xidmətlər üzrə ümumi xarakterli məlumatların, texniki sənədlərin hazırlanması və yayılması və statistik məlumatların yığılması;
- balıq yetişdirmə məntəqələrinin yaradılması və saxlanması da daxil olmaqla, kommersiya məqsədli balıqçılıq və ovçuluğa kömək göstərilməsi məqsədilə qaytarılmayan borcların, kreditlərin və subsidiyaların verilməsi.

Daxil deyil: dəniz və okeanlarda balıq ovuna nəzarət (03.1.0); təbii parklara və qoruqlara rəhbərlik və onların idarə edilməsi və ya onlara köməklik göstərilməsi (05.4.0).

## 04.3 Yanacaq və energetika

*04.3.1 Kömür və digər bərk mineral yanacaq növləri (CS)*

Bu altqrup hasilat və zənginləşdirmə üsulundan asılı olmayaraq kömür, qonur kömür və torfun bütün növlərini, həmçinin yanacağın bu növlərinin koks və ya qaz kimi digər növlərinə çevrilməsini əhatə edir.

- bərk mineral yanacaqla bağlı məsələ və xidmətlərə rəhbərlik; bərk mineral yanacaq ehtiyatlarının saxlanması, kəşfiyyatı, işlənməsi və səmərəli istifadəsi; bərk mineral

yanacağın hasilatına, emalına, bölüşdürülməsinə və istifadəsinə nəzarət və bu məsələlərin tənzimlənməsi;
- bərk mineral yanacaqla bağlı məsələ və xidmətlər üzrə ümumi xarakterli məlumatların, texniki sənədlərin hazırlanması, yayılması və statistik məlumatların yığılması;
- bərk mineral yanacağın istehsalı, koks və briketlərin və ya sənaye qazının istehsalına köməklik göstərilməsi məqsədilə qaytarılmayan borcların, kreditlərin və subsidiyaların verilməsi.

Daxil deyil: bərk mineral yanacağın nəqli ilə bağlı məsələlər (04.5 qrupunun müvafiq sinfinə aid edilmişdir).

*04.3.2 Neft və təbii qaz (CS)*

Bu altqrup təbii qazı, təbii və ya neft emalından alınan maye qazı, həmçinin quyulardan və ya bituminoz minerallar kimi digər mənbələrdən hasil edilən nefti, və paylanılan qazın tərkibindən asılı olmayaraq şəhərdaxili qaz təchizatı şəbəkəsinin idarə edilməsi məsələlərini əhatə edir.

- neft və təbii qazla əlaqədar məsələ və xidmətlərə rəhbərlik; neft və qaz ehtiyatlarının saxlanması, kəşfiyyatı, işlənməsi və səmərəli istifadəsi; neft və təbii qazın hasilatına, emalına, bölüşdürülməsinə və istifadəsinə nəzarət və bu məsələlərin tənzimlənməsi;
- neft və təbii qazla bağlı məsələ və xidmətlər üzrə ümumi xarakterli məlumatların, texniki sənədlərin hazırlanması və yayılması və statistik məlumatların yığılması;
- neft hasilatı sahəsinə və xam neftin və maye və qazşəkilli məhsulların təmizlənməsi sahələrinə kömək göstərilməsi məqsədilə qaytarılmayan borcların, kreditlərin və subsidiyaların verilməsi.

Daxil deyil: neft və ya qazın nəqli ilə bağlı məsələlər (04.5 qrupunun müvafiq sinfinə aid edilmişdir).

*04.3.3 Nüvə yanacağı (CS)*

- nüvə yanacağı ilə bağlı məsələ və xidmətlərə rəhbərlik; nüvə yanacağı ehtiyatlarının saxlanması, kəşfiyyatı, işlənməsi və səmərəli istifadəsi; nüvə yanacağı xammalının hasilatı və emalına, həmçinin nüvə yanacağı elementlərinin

istehsalı, bölüşdürülməsi və istifadəsinə nəzarət və bu məsələlərin tənzimlənməsi;
- nüvə yanacağı ilə bağlı məsələ və xidmətlər üzrə ümumi xarakterli məlumatların, texniki sənədlərin hazırlanması, yayılması və statistik məlumatların yığılması;
- nüvə materiallarının hasilatı sahəsinə və belə materialların emalı sahələrinə kömək göstərilməsi məqsədilə qaytarılmayan borcların, kreditlərin və subsidiyaların verilməsi.

Daxil deyil: nüvə yanacağının nəqli ilə bağlı məsələlər (04.5 qrupunun müvafiq sinfinə aid edilmişdir); radioaktiv tullantıların basdırılması (05.1.0).

*04.3.4 Digər yanacaq növləri (CS)*

- spirt, oduncaq və ağac tullantıları, baqas və yanacağın digər qeyri-kommersiya növləri kimi yanacaqla bağlı məsələ və xidmətlərə rəhbərlik;
- yanacağın bu növlərinin mövcudluğu, istehsalı və istifadəsi haqqında ümumi xarakterli məlumatların, texniki sənədlərin hazırlanması, yayılması və statistik məlumatların yığılması;
- enerjinin istehsalı üçün yanacağın bu növlərindən istifadə edilməsinə kömək göstərilməsi məqsədilə qaytarılmayan borcların, kreditlərin və subsidiyaların verilməsi.

Daxil deyil: meşə təsərrüfatının idarə edilməsi (04.2.2); külək və günəş istilik enerjisi [(04.3.5) və ya (04.3.6)]; geotermal ehtiyatlar (04.3.6).

*04.3.5 Elektrik enerjisi (CS)*

Bu qrup elektrik enerjisinin həm istilik və su elektrik stansiyaları kimi ənənəvi mənbələrini, həm də külək və günəş istilik enerjisi kimi yeni mənbələrini əhatə edir.

- elektrik enerjisi ilə bağlı məsələ və xidmətlərə rəhbərlik; elektrik enerjisi ehtiyatlarının saxlanması, işlənməsi və səmərəli istifadəsi; elektrik enerjisinin istehsalı, ötürülməsi və bölüşdürülməsinə nəzarət və bu məsələlərin tənzimlənməsi;
- elektrik enerjisi təchizatının qeyri-kommersiya sistemlərinin tikintisi və ya istismarı;

- elektroenergetika ilə bağlı məsələ və xidmətlər üzrə ümumi xarakterli məlumatların, texniki sənədlərin hazırlanması, yayılması və statistik məlumatların yığılması;
- əsasən elektrik enerjisinin istehsalı üçün təsis edilmiş bəndlərin və digər qurğuların tikilməsi xərcləri də daxil edilməklə elektroenergetikaya kömək göstərilməsi məqsədilə qaytarılmayan borcların, kreditlərin və subsidiyaların verilməsi.

Daxil deyil: külək və günəş enerjisindən istifadə edilməklə alınan elektrik enerjisi istisna edilməklə, qalan enerji növləri (04.3.6).

*04.3.6 Elektrik enerjisi istisna edilməklə, enerji (CS)*

- elektrik enerjisi istisna edilməklə energetika sahəsində əsasən, buxar, isti su və ya isti hava şəklində istiliyin istehsalı, bölüşdürülməsi və istifadəsi ilə bağlı məsələ və xidmətlərə rəhbərlik;
- elektrik enerjisi təchizatı istisna edilməklə enerji təchizatının qeyri-kommersiya sistemlərinin tikintisi və ya istisması;
- elektrik enerjisi istehsal edilməklə enerjinin mövcudluğu, istehsalı və istifadəsi haqqında ümumi xarakterli məlumatların, texniki sənədlərin hazırlanması və yayılması və statistik məlumatların yığılması;
- elektrik enerjisi istisna edilməklə enerjinin istifadə edilməsinə yardım edilməsi məqsədilə qaytarılmayan borcların, kreditlərin və subsidiyaların verilməsi.

Daxildir: geotermik ehtiyatlar, külək və günəş enerjisindən istifadə edilməklə alınan elektrik enerjisi istisna edilməklə, enerji.

## 04.4 Mədənçıxarma sənayesi, emal sənayesi və tikinti

*04.4.1 Mineral yanacaq istisna olmaqla mineral ehtiyatların hasilatı (CS)*

Bu altqrup tərkibində metal olan minerallarin, qum, gil, daş, kimyəvi xammal və gübrələrin, duz, qiymətli daşların, asbest, gips və s. hasilatı ilə bağlı məsələləri əhatə edir.

- mədənçıxarma sənayesi və mineral ehtiyatlarla bağlı məsələ və xidmətlərə rəhbərlik; mineral ehtiyatların saxlanması, kəşfiyyatı, işlənməsi və səmərəli istifadəsi; mineral ehtiyatların kəşfiyyatına, hasilatına, satışına və hasilatın digər amillərinə nəzarət və bu məsələlərin tənzimlənməsi;
- mədənçıxarma sənayesi və mineral ehtiyatlarla bağlı məsələ və xidmətlər üzrə ümumi xarakterli məlumatların, texniki sənədlərin hazırlanması və yayılması və statistik məlumatların yığılması;
- mineral ehtiyatların hasilatı üzrə kommersiya fəaliyyətinə kömək göstərilməsi məqsədilə qaytarılmayan borcların, kreditlərin və subsidiyaların verilməsi.

<u>Daxildir</u>: lisenziyaların verilməsi, icarə müqavilələrinin bağlanması, hasilatın tempinin tənzimlənməsi, şaxtaların təhlükəsizlik texnikası qaydalarına cavab verməsi baxımından təftişi və s.

<u>Daxil deyil</u>: kömür və bərk yanacağın digər növləri (04.3.1) və nüvə yanacağı (04.3.3).

*04.4.2 Emal sənayesi (CS)*

- emal sənayesi ilə bağlı məsələ və xidmətlərə rəhbərlik; emal sənayesinin inkişafı, genişləndirilməsi və ya təkmilləşdirilməsi; emal sənayesi müəssisələrinin tikintisinə və istismarına nəzarət və bu məsələlərin tənzimlənməsi; hazır sənaye məhsullarının istehsalı ilə bağlı məsələ və xidmətlərlə məşğul olan istehsalçılar assosiasiyaları və digər təşkilatlarla əlaqələrin təmin edilməsi;
- emal sənayesi və bu sahənin məhsulları haqqında ümumi xarakterli məlumatların, texniki sənədlərin hazırlanması, yayılması və statistik məlumatların yığılması;
- emal sənayesinə kömək göstərilməsi məqsədilə qaytarılmayan borcların, kreditlərin və subsidiyaların verilməsi.

<u>Daxildir</u>: emal sənayesi müəssisələrinin istehsal sahələrinin təhlükəsizlik texnikası qaydalarına cavab verməsi baxımından təftişi, istehlakçının təhlükəli məhsulların almasından qorunması və s.

Daxil deyil: kömürün zənginləşdirilməsi sahəsi ilə bağlı məsələ və xidmətlər (04.3.1), neft emalı (04.3.2) və ya nüvə yanacağının istehsalı (04.3.3).

*04.4.3 Tikinti (CS)*

- tikinti ilə bağlı məsələ və xidmətlərə rəhbərlik; tikinti sənayesinə nəzarət; tikinti standartlarının işlənib hazırlanması və onlara riayət olunmasına nəzarət;
- tikinti ilə bağlı məsələ və xidmətlər üzrə ümumi xarakterli məlumatların, texniki sənədlərin hazırlanması, yayılması və statistik məlumatların yığılması;

Daxildir: icarə hüququnu təsdiqləyən şəhadətnamələrin verilməsi, tikinti meydançalarının təhlükəsizlik texnikası qaydalarına cavab verməsi baxımından təftişi və s.

Daxil deyil: yaşayış yerlərinin, sənaye binalarının, kommunal müəssisələrin, mədəniyyət obyektlərinin tikintisi, küçələrin salınması və s. üçün qaytarılmayan borcların, kreditlərin və subsidiyaların verilməsi (həyata keçirilən funksiyalara uyğun olaraq təsnifləşdirilir); yaşayış yerləri ilə bağlı məsələr üzrə standartların işlənib hazırlanması və onlara riayət olunmasına nəzarət (06.1.0)

.

**04.5 Nəqliyyat**

*04.5.1 Avtomobil nəqliyyatı (CS)*

- avtomobil nəqliyyatı sistemləri və müvafiq qurğuların (yollar, körpülər, tunellər, dayanacaqlar, avtovağzallar və s.) istismarı, istifadəsi, tikintisi, texniki xidməti və təmiri ilə bağlı məsələ və xidmətlərə rəhbərlik;
- avtomobil nəqliyyatı istifadəçilərinin fəaliyyətlərinə nəzarət və bu məsələlərin tənzimlənməsi (avtomobillərin qeydiyyatı və sürücülük vəsiqələrinin verilməsi, avtomobillərin texniki vəziyyətlərinin yoxlanılması, sərnişin və yük avtomobil nəqliyyatları üçün ölçülərin və yüklənmənin xüsusiyyətləri, şəhərlərarası avtobusların və yük avtomobillərinin sürücüləri üçün iş günü müddətinin təyin edilməsi və s.); avtomobil nəqliyyatı sistemlərinin işinə nəzarət və bu işin tənzimlənməsi (imtiyazların verilməsi, yükdaşımaların tariflərinin və sərnişin nəqliyyatında gediş haqqlarının,

nəqliyyatın hərəkət qrafiklərinin və intervallarının təyin edilməsi və s.); yolların tikintisinə, texniki xidmətinə və təmirinə nəzarət və bu məsələlərin tənzimlənməsi;
- avtomobil nəqliyyatının qeyri-kommersiya təyinatlı sistemlərinin və onlara aid edilən qurğuların tikintisi və istismarı;
- avtomobil nəqliyyatı sistemlərinin işi və yol tikintisi haqqında ümumi xarakterli məlumatların, texniki sənədlərin hazırlanması, yayılması və statistik məlumatların yığılması;
- avtomobil nəqliyyatı sistemlərinin və onlara aid edilən qurğuların istismarı, tikintisi, texniki xidməti və təmiri və ya təkmilləşdirilməsinə kömək göstərilməsi məqsədilə qaytarılmayan borcların, kreditlərin və subsidiyaların verilməsi.

<u>Daxildir</u>: magistrallar, şəhərdaxili yollar, küçələr, velosipedçilər və piyadalar üçün yollar.

<u>Daxil deyil</u>: yol hərəkətinə nəzarət (03.1.0); avtomobil nəqliyyatı vasitələrinin istehsalçılarına qaytarılmayan borcların, kreditlərin və subsidiyaların verilməsi (04.4.2); küçələrin təmizlənməsi (05.1.0); şəhər avtomagistrallarının xüsusi səsboğucu materiallarla örtülməsi də daxil edilməklə, səsi izolyasiya edən torpaq tökümlərinin, hasarların və digər qurğuların qurulması (05.3.0); küçələrin işıqlandırılması (06.4.0).

*04.5.2 Su nəqliyyatı (CS)*

- daxili, sahilyanı və dəniz su nəqliyyatı sistemləri və onlara aid edilən qurğuların (limanlar, doklar, naviqasiya vasitələri və avadanlıqları, kanallar, körpülər, tunellər, farvaterlər, dalğaqıranlar, pirslər, tərsanələr, terminallar və s.) istismarı, istifadəsi, tikintisi, texniki xidməti və təmiri ilə bağlı məsələ və xidmətlərə rəhbərlik;
- su nəqliyyatı istifadəçilərinin fəaliyyətlərinə nəzarət və bu məsələlərin tənzimlənməsi (gəmilərin və komandaların qeydiyyatı, lisenziyalaşdırılması və təftişi, sərnişin və yüklərin təhlükəsizliyi qaydaları və s.); su nəqliyyatı sistemlərinin işinə nəzarət və bu işin tənzimlənməsi (imtiyazların verilməsi, yük və sərnişin daşımaların tariflərinin, nəqliyyat vasitələrinin hərəkətlərinin vaxtı və reyslərin tezliyinin və s. təyin edilməsi); su nəqliyyatı

qurğularının tikintisinə, texniki xidmətinə və təmirinə nəzarət və bu məsələlərin tənzimlənməsi;
- su nəqliyyatının qeyri-kommersiya təyinatlı sistemlərinin və vasitələrinin (məsələn, bərələrin) tikintisi və ya istismarı;
- su nəqliyyatı sistemlərinin işi və su nəqliyyatı qurğularının tikintisi haqqında ümumi xarakterli məlumatların, texniki sənədlərin hazırlanması, yayılması və statistik məlumatların yığılması;
- su nəqliyyatı sistemlərinin və onlara aid edilən qurğuların istismarı, tikintisi, texniki xidməti, təmiri və ya təkmilləşdirilməsinə kömək göstərilməsi məqsədilə qaytarılmayan borcların, kreditlərin və subsidiyaların verilməsi.

Daxildir: radio və peyk naviqasiya sistemləri; qəza-xilas xidməti və yedəyə alma xidməti.

Daxil deyil: gəmi inşaatçılarına qaytarılmayan borcların, kreditlərin və subsidiyaların verilməsi (04.4.2);

*04.5.3 Dəmir yolu nəqliyyatı (CS)*

- dəmir yolu nəqliyyatı sistemləri və onlara aid edilən qurğuların (dəmir yolları, vağzallar, tunellər, körpülər, torpaq tökümləri, dəmir yollarının salınması üçün qazma işləri və s.) istismarı, istifadəsi, tikintisi, texniki xidməti və təmiri ilə bağlı məsələ və xidmətlərə rəhbərlik;
- dəmir yolu nəqliyyatı istifadəçilərinin fəaliyyətlərinə nəzarət və bu məsələlərin tənzimlənməsi (qatarların və dəmir yollarının vəziyyəti, sərnişinlərin və yüklərin təhlükəsizliyi və s.); dəmir yolu nəqliyyatı sistemlərinin işinə nəzarət və bu işin tənzimlənməsi (imtiyazların verilməsi, yük və sərnişin daşımalarının tariflərinin, nəqliyyat vasitələrinin hərəkətlərinin vaxtı və reyslərin tezliyinin və s. təyin edilməsi); dəmir yollarının tikintisinə, texniki xidmətinə və təmirinə nəzarət və bu məsələlərin tənzimlənməsi;
- dəmir yolu nəqliyyatının qeyri-kommersiya təyinatlı sistemlərinin və onlara aid edilən qurğuların tikintisi və ya istismarı;
- dəmir yolu nəqliyyatı sistemlərinin işi və dəmir yollarının tikintisi haqqında ümumi xarakterli məlumatların, texniki sənədlərin hazırlanması, yayılması və statistik məlumatların yığılması;

- dəmir yolu nəqliyyatı sistemlərinin və onlara aid edilən qurğuların istismarı, tikintisi, texniki xidməti və təmiri və ya təkmilləşdirilməsinə kömək göstərilməsi məqsədilə qaytarılmayan borcların, kreditlərin və subsidiyaların verilməsi.

Daxildir: uzaq məsafələrə şəhərlərarası dəmir yolu daşımaları, yüksəksürətli şəhərdaxili tranzit xidməti və tramvay şəbəkələri ilə əlaqədar dəmir yolu nəqliyyatı sistemləri; qatarların alınması, qatarlara texniki xidmət və onların təmiri.

Daxil deyil: qatarların istehsalçılarına qaytarılmayan borcların, kreditlərin və subsidiyaların verilməsi (04.4.2); dəmir yollarının xüsusi səsboğucu materiallar istifadə edilməklə dəyişdirilməsi də daxil edilməklə, səsi izolyasiya edən torpaq tökümlərinin, hasarların və digər qurğuların qurulması (05.3.0);

*04.5.4 Hava nəqliyyatı (CS)*

- hava nəqliyyatı sistemləri və onlara aid edilən qurğuların (hava limanları, uçuş-eniş zolaqları, hava vağzalları, anqarlar, hava naviqasiya vasitələri və avadanlıqları, uçuşlara nəzarət vasitələri və s.) istismarı, istifadəsi, tikintisi, texniki xidməti, təmiri ilə bağlı məsələ və xidmətlərə rəhbərlik;
- hava nəqliyyatı istifadəçilərinin fəaliyyətlərinə nəzarət və bu məsələlərin tənzimlənməsi (hava nəqliyyatı vasitələrinin, pilotların, ekipajların və yerdəki komandanın qeydiyyatı, lisenziyalaşdırılması və təftişi, sərnişinlərin təhlükəsizlik qaydaları, hava nəqliyyatında baş verən hadisələrin istintaqı və s.); hava nəqliyyatı sistemlərinin işinə nəzarət və bu işin tənzimlənməsi (istiqamətlərin bölüşdürülməsi, hava nəqliyyatı ilə yük və sərnişin daşımaların tariflərinin, reyslərin tezliyinin və xidmətin səviyyəsinin və s. təyin edilməsi); hava nəqliyyatı qurğularının tikintisinə, texniki xidmətinə və təmirinə nəzarət və bu məsələlərin tənzimlənməsi;
- ictimai hava nəqliyyatının qeyri-kommersiya təyinatlı xidmətlərinin və qurğularının tikintisi və ya istismarı;
- hava nəqliyyatı sistemlərinin işi və hava nəqliyyatına aid edilən qurğuların tikintisi haqqında ümumi xarakterli

məlumatların, texniki sənədlərin hazırlanması, yayılması və statistik məlumatların yığılması;
- hava nəqliyyatı sistemlərinin və onlara aid edilən qurğuların istismarı, tikintisi, texniki xidməti, təmiri və ya təkmilləşdirilməsinə kömək göstərilməsi məqsədilə qaytarılmayan borcların, kreditlərin və subsidiyaların verilməsi.

Daxildir: radio- və peyk naviqasiya vasitələri; qəza-xilas xidmətləri; hava nəqliyyatı ilə müntəzəm və qeyri-müntəzəm yük və sərnişin daşımaları; fərdi şəxslər tərəfindən həyata keçirilən uçuşların tənzimlənməsi və nəzarəti.

Daxil deyil: təyyarə istehsalçılarına qaytarılmayan borcların, kreditlərin və subsidiyaların verilməsi (04.4.2);

*04.5.5 Boru kəmərləri və digər nəqliyyat sistemləri (CS)*

- boru kəmərləri və digər nəqliyyat sistemlərinin (funikulyorlar, kanat yolları və asma yollar və s.) istismarı, istifadəsi, tikintisi, texniki xidməti və təmiri ilə bağlı məsələ və xidmətlərə rəhbərlik;
- boru kəmərləri və digər nəqliyyat sistemləri istifadəçilərinin fəaliyyətlərinə nəzarət və bu məsələlərin tənzimlənməsi (qeydiyyat, lisenziyaların verilməsi, avadanlığın yoxlanılması, operatorların təsnifləşdirilməsi və onların hazırlaşdırılması, texniki təhlükəsizlik qaydaları və s.); boru kəmərləri və digər nəqliyyat sistemlərinin işinə nəzarət və bu işin tənzimlənməsi (imtiyazların verilməsi, xidmətin tariflərinin, tezliyinin və səviyyəsinin və s. təyin edilməsi); boru kəmərlərinin və digər nəqliyyat sistemlərinin tikintisinə, texniki xidmətinə və təmirinə nəzarət;
- qeyri-kommersiya təyinatlı boru kəmərlərinin və digər nəqliyyat sistemlərinin tikintisi və ya istismarı;
- boru kəmərlərinin və digər nəqliyyat sistemlərinin istismarı və tikintisi haqqında ümumi xarakterli məlumatların, texniki sənədlərin hazırlanması, yayılması və statistik məlumatların yığılması;
- boru kəmərlərinin və digər nəqliyyat sistemlərinin istismarı, tikintisi, texniki xidməti, təmiri və ya təkmilləşdirilməsinə kömək göstərilməsi məqsədilə qaytarılmayan borcların, kreditlərin və subsidiyaların verilməsi.

## 04.6 Rabitə

*04.6.0 Rabitə (CS)*

- rabitə sistemlərinin (poçt, telefon, teleqraf, simsiz və peyk rabitəsi sistemlərinin) tikintisi, genişləndirilməsi, təkmilləşdirilməsi, istismarı, texniki xidməti, təmiri ilə bağlı məsələ və xidmətlərə rəhbərlik;
- rabitə sistemlərinin işinin tənzimlənməsi (imtiyazların verilməsi, tezliklərin verilməsi, xidmət edilən bazarların və təyin edilən tariflərin və s. müəyyənləşdirilməsi);
- rabitə sahəsi ilə bağlı məsələ və xidmətlər üzrə ümumi xarakterli məlumatların, texniki sənədlərin hazırlanması, yayılması və statistik məlumatların yığılması;
- rabitə sistemlərinin tikintisi, istismarı, texniki xidməti, təmiri və ya təkmilləşdirilməsinə kömək göstərilməsi məqsədilə qaytarılmayan borcların, kreditlərin və subsidiyaların verilməsi.

Daxil deyil: su və hava nəqliyyatları üçün radio- və peyk naviqasiya vasitələri [müvafiq olaraq (04.5.2) və (04.5.4)]; radio- və televeriliş sistemləri (08.3.0).

## 04.7 Digər sahələr

*04.7.1 Topdan və pərakəndə ticarət, saxlama və anbara yığma (CS)*

- topdan və pərakəndə ticarət, saxlama və anbara yığma ilə bağlı məsələ və xidmətlərə rəhbərlik;
- topdan və pərakəndə ticarətə nəzarət və onların tənzimlənməsi (lisenziyaların verilməsi, ticarət qaydaları, ev təsərrüfatları tərəfindən istehlak olunan qablaşdırılmış ərzaq və digər malların markalanması, tərəzilərin və digər çəkici qurğuların yoxlanılması və s.); saxlama və anbara yığmaya nəzarət və bu işlərin tənzimlənməsi (lisenziyaların verilməsi və dövlət gömrük anbarlarının fəaliyyətinə nəzarət də daxil edilməklə);
- daxil edilmiş əmtəələrdən və ya ehtimal edilən istehlakçıdan asılı olmayaraq pərakəndə və topdan satış ticarət səviyyəsində tətbiq edilən qiymətlərə və rasion tətbiq etmə sxemlərinə nəzarət; ərzaq subsidiyaları və digər oxşar subsidiyalar və onların geniş əhali təbəqələrinə verilməsi məsələlərinin idarə edilməsi;

- qiymətlər, əmtəələrin mövcudluğu, pərakəndə və topdan satış ticarətin digər amilləri, həmçinin saxlama və anbara yığma haqqında məlumatların hazırlanması və ticarət müəssisələri və ictimaiyyət arasında yayılması; topdan və pərakəndə satış ticarət, saxlama və anbara yığma üzrə statistik məlumatların yığılması və nəşri;
- topdan və pərakəndə satış ticarət, saxlama və anbara yığmaya kömək göstərilməsi məqsədilə qaytarılmayan borcların, kreditlərin və subsidiyaların verilməsi.

Daxil deyil: istehsalçıya tətbiq edilən qiymət nəzarəti və nəzarətin digər növləri üzrə məsələlərin idarə edilməsi (həyata keçirilən funksiyaya uyğun olaraq təsnifləşdirilir); əhalinin müəyyən qrupları və ya ayrı-ayrı şəxslərə verilən ərzaq subsidiyaları və digər oxşar subsidiyalar (10).

*04.7.2 Mehmanxana və restoranlar (CS)*

- mehmanxana və restoranların tikintisi, genişləndirilməsi, vəziyyətinin yaxşılaşdırılması, istismarı, saxlanması və təmiri ilə bağlı məsələ və xidmətlərə rəhbərlik;
- mehmanxana və restoranların fəaliyyətlərinə nəzarət və bu işlərin tənzimlənməsi (qiymətləri tənzimləyən qaydalar, sanitar normaları və xidmət qaydaları, mehmanxana və restoranların saxlanması üçün lisenziyaların verilməsi və s.);
- mehmanxana və restoranların saxlanması ilə bağlı məsələ və xidmətlər üzrə ümumi xarakterli məlumatların, texniki sənədlərin hazırlanması və yayılması və statistik məlumatların yığılması;
- mehmanxana və restoranların tikintisi, istismarı, texniki xidməti, təmiri və ya təkmilləşdirilməsinə kömək göstərilməsi məqsədilə qaytarılmayan borcların, kreditlərin və subsidiyaların verilməsi.

*04.7.3 Turizm (CS)*

- turizm sahəsində məsələ və xidmətlərə rəhbərlik; turizmin reklamı və inkişafı; turizmdən gəlir əldə edən nəqliyyat müəssisələri, mehmanxana, restoranlar və digər sahələrlə əlaqələrin təmin edilməsi;
- ölkə daxilində və xaricdə yerləşən turist bürolarının idarə edilməsi və s.; reklam və buna oxşar ədəbiyyatın yayılması da daxil edilməklə, reklam kompaniyalarının təşkili;

- turizm üzrə statistik məlumatların yığılması və nəşri;
- mehmanxana və restoranların tikintisi, istismarı, texniki xidməti, təmiri və ya təkmilləşdirilməsinə kömək göstərilməsi məqsədilə qaytarılmayan borcların, kreditlərin və subsidiyaların verilməsi.

*04.7.4 Çoxməqsədli inkişaf layihələri (CS)*

Çoxməqsədli inkişaf layihələri bir qayda olaraq, elektrik enerjisinin istehsalı, daşqınlarla mübarizə, irriqasiya, naviqasiya və istirahətin təşkili üçün kompleks vasitələri özündə birləşdirir.

- çoxməqsədli inkişaf layihələrinin qurulması, genişləndirilməsi, istismarı və texniki xidməti ilə bağlı məsələ və xidmətlərə rəhbərlik;
- çoxməqsədli inkişaf layihələri ilə bağlı məsələ və xidmətlər üzrə ümumi xarakterli məlumatların, texniki sənədlərin hazırlanması, yayılması və statistik məlumatların yığılması;
- çoxməqsədli inkişaf layihələrinin qurulması, istismarı, texniki xidməti, təmiri və ya təkmilləşdirilməsinə kömək göstərilməsi məqsədilə qaytarılmayan borcların, kreditlərin və subsidiyaların verilməsi.

Daxil deyil: qalan funksiyaları ikinci dərəcəli olmaqla bir əsas funksiyalı layihələr (əsas funksiyaya uyğun olaraq təsnifləşdirilir).

**04.8 İqtisadi məsələlərlə əlaqədar ETTKİ**

Əsaslı və tətbiqi tədqiqatların və təcrübi işləmələrin tərifləri (01.4) və (01.5) qruplarında verilmişdir.

*04.8.1 Ümumi iqtisadi və kommersiya məsələləri və işçi qüvvəsi məsələləri ilə əlaqədar ETTKİ (CS)*

- ümumi iqtisadi və kommersiya və işçi qüvvəsi məsələləri ilə əlaqədar tətbiqi tədqiqatlar və təcrübi işləri həyata keçirən dövlət idarələrinə rəhbərlik və onların idarə edilməsi;
- ümumi iqtisadi və kommersiya və işçi qüvvəsi məsələləri ilə əlaqədar, elmi-tədqiqat institutları və universitetlər kimi qeyri-dövlət təşkilatları tərəfindən həyata keçirilən tətbiqi

tədqiqatlar və təcrübi işlərə kömək göstərilməsi məqsədilə qaytarılmayan borcların, kreditlərin və subsidiyaların verilməsi.

Daxil deyil: əsaslı tədqiqatlar (01.4.0).

*04.8.2 Kənd təsərrüfatı, meşə təsərrüfatı, balıqçılıq və ovçuluq sahəsində ETTKİ (CS)*

- kənd təsərrüfatı, meşə təsərrüfatı, balıqçılıq və ovçuluqla əlaqədar tətbiqi tədqiqatlar və təcrübi işlər həyata keçirən dövlət idarələrinə rəhbərlik və onların idarə edilməsi;
- kənd təsərrüfatı, meşə təsərrüfatı, balıqçılıq və ovçuluq sahəsində elmi-tədqiqat institutları və universitetlər kimi qeyri-dövlət təşkilatları tərəfindən həyata keçirilən tətbiqi tədqiqatlar və təcrübi işlərə kömək göstərilməsi məqsədilə qaytarılmayan borcların, kreditlərin və subsidiyaların verilməsi.

Daxil deyil: əsaslı tədqiqatlar (01.4.0).

*04.8.3 Yanacaq və energetika sahəsində ETTKİ (CS)*

- yanacaq və energetika ilə əlaqədar tətbiqi tədqiqatlar və təcrübi işlər həyata keçirən dövlət idarələrinə rəhbərlik və onların idarə edilməsi;
- yanacaq və energetika sahəsində elmi-tədqiqat institutları və universitetləri kimi qeyri-dövlət təşkilatları tərəfindən həyata keçirilən tətbiqi tədqiqatlar və təcrübi işlərə kömək göstərilməsi məqsədilə qaytarılmayan borcların, kreditlərin və subsidiyaların verilməsi.

Daxil deyil: əsaslı tədqiqatlar (01.4.0).

*04.8.4 Mədənçıxarma sənayesi, emal sənayesi və tikinti ilə əlaqədar ETTKİ (CS)*

- mədənçıxarma sənayesi, emal sənayesi və tikinti ilə əlaqədar tətbiqi tədqiqatlar və təcrübi işlər həyata keçirən dövlət idarələrinə rəhbərlik və onların idarə edilməsi;
- mədənçıxarma sənayesi, emal sənayesi və tikinti ilə əlaqədar, elmi-tədqiqat institutları və universitetlər kimi

qeyri-dövlət təşkilatları tərəfindən həyata keçirilən tətbiqi tədqiqatlar və təcrübi işlərə kömək göstərilməsi məqsədilə qaytarılmayan borcların, kreditlərin və subsidiyaların verilməsi.

Daxil deyil: əsaslı tədqiqatlar (01.4.0).

*04.8.5 Nəqliyyat sahəsində ETTKİ (CS)*

- nəqliyyatla əlaqədar tətbiqi tədqiqatlar və təcrübi işlər həyata keçirən dövlət idarələrinə rəhbərlik və onların idarə edilməsi;
- nəqliyyat sahəsində elmi-tədqiqat institutları və universitetləri kimi qeyri-dövlət təşkilatları tərəfindən həyata keçirilən tətbiqi tədqiqatlar və təcrübi işlərə kömək göstərilməsi məqsədilə qaytarılmayan borcların, kreditlərin və subsidiyaların verilməsi.

Daxil deyil: əsaslı tədqiqatlar (01.4.0).

*04.8.6 Rabitə sahəsində ETTKİ (CS)*

- rabitə ilə əlaqədar tətbiqi tədqiqatlar və təcrübi işlər həyata keçirən dövlət idarələrinə rəhbərlik və onların idarə edilməsi;
- rabitə sahəsində elmi-tədqiqat institutları və universitetləri kimi qeyri-dövlət təşkilatları tərəfindən həyata keçirilən tətbiqi tədqiqatlar və təcrübi işlərə kömək göstərilməsi məqsədilə qaytarılmayan borcların, kreditlərin və subsidiyaların verilməsi.

Daxil deyil: əsaslı tədqiqatlar (01.4.0).

*04.8.7 Digər sahələrlə əlaqədar ETTKİ (CS)*

- iqtisadiyyatın digər sektorları ilə əlaqədar tətbiqi tədqiqatlar və təcrübi işlər həyata keçirən dövlət idarələrinə rəhbərlik və onların idarə edilməsi;
- iqtisadiyyatın digər sektorları ilə əlaqədar, elmi-tədqiqat institutları və universitetləri kimi qeyri-dövlət təşkilatları tərəfindən həyata keçirilən tətbiqi tədqiqatlar və təcrübi

işlərə kömək göstərilməsi məqsədilə qaytarılmayan borcların, kreditlərin və subsidiyaların verilməsi.

Daxil deyil: əsaslı tədqiqatlar (01.4.0).

## 04.9 Digər kateqoriyalara aid edilməyən iqtisadi məsələlər

*04.9.0 Digər kateqoriyalara aid edilməyən iqtisadi məsələlər (CS)*

- (04.1), (04.2), (04.3), (04.4), (04.5), (04.6), (04.7) və ya (04.8) qruplarına aid edilə bilən ümumi iqtisadi məsələlər və iqtisadiyyatın ayrı-ayrı sektorlarına aid olan məsələlərlə əlaqədar fəaliyyətə rəhbərlik, onun idarə edilməsi və ona kömək göstərilməsi.

## 05 ƏTRAF MÜHİTİN MÜHAFİZƏSİ

Ətraf mühitin mühafizəsi məsələlərinin bölgüsü Avropa Birliyi Statistika Bürosunun (Avrostat) Ətraf mühit haqqında iqtisadi məlumatların yığılmasının Avropa sistemi (SERIEE) tərəfindən işlənib hazırlanmış Ətraf mühitin mühafizəsi üzrə fəaliyyət təsnifatına (CEPA) əsaslanır.

## 05.1 Tullantıların yığılması və təmizlənməsi

Bu qrup, tullantıların yığılması, emalı və təmizlənməsi məsələlərini əhatə edir.

Tullantıların yığılmasına küçələrin, meydanların, yolların, bazarların, şəhər bağlarının, parkların və s. yığışdırılması; tipinə görə həm çeşidlənən və həm də çeşidlənməyən məhsulların bütün növ tullantılarının yığılması, onların emal və ya təmizlənmə yerinə nəqli daxildir.

Tullantıların emalına, onların neytrallaşdırılması, sağlamlıq üçün təhlükəsiz edilməsi, nəqli üçün daha təhlükəsiz edilməsi, istifadə edilməsi, saxlanılması və ya həcminin kiçildilməsi məqsədilə, istənilən tullantıların fiziki, kimyəvi və ya bioloji xassələrinin dəyişdirilməsi üçün istifadə edilən istənilən üsul və ya proses daxildir.

Tullantıların təmizlənməsindən gələcəkdə bir daha istifadə ediləcəyi nəzərdə tutulmayan tullantıların zibilxanaya

aparılması, konteynerlərə doldurulması, torpağa basdırılması, dənizə atılması yolu ilə və ya digər təmizləmə üsulunun köməyi ilə birdəfəlik yerləşdirilməsi daxildir.

*05.1.0 Tullantıların yığılması və təmizlənməsi (CS)*

- tullantıların yığılması, emalı və təmizlənməsi, təftişi, istismarı, onlara nəzarət edilməsi və ya təsir göstərilməsi üzrə sistemlərin idarə edilməsi;
- bu sistemlərin istismarı, tikintisi, texniki xidməti və ya təkmilləşdirilməsinə kömək göstərilməsi məqsədilə qaytarılmayan borcların, kreditlərin və subsidiyaların verilməsi.

Daxildir: nüvə tullantılarının yığılması, emalı və basdırılması.

**05.2 Çirkab suların yığılması və təmizlənməsi**

Bu qrup, kanalizasiya və çirkab suların emalı sistemlərinin istismarı məsələlərini əhatə edir.

Kanalizasiya sisteminin istismarına, istənilən çirkab suların (yağış, məişət və digər suların) onların yaranma yerlərindən ya çirkab suların təmizlənmə stansiyalarınadək və ya bu suların tullanacağı yerüstü su hövzələrinədək (və ya çaylaradək) və ya belə sistemlərin qurğularınadək çəkilib axıdılmasına xidmət edən kollektorlar sisteminin, boru kəmərlərinin, arxların və nasosların idarə edilməsi daxildir.

Çirkab suların emalına, bu suların qəbul edilmiş ekoloji standartlara və ya digər normalara uyğunluğunun təmin edilməsi məqsədi ilə təmizlənməsi və ya təmizləmənin tamamlanması üçün istifadə edilən istənilən mexaniki, bioloji və ya digər qabaqcıl proseslər daxildir.

*05.2.0 Çirkab suların yığılması və təmizlənməsi (CS)*

- kanalizasiya və çirkab suların emalı sistemlərinin idarə edilməsi, yoxlanması, istismarı, onlara nəzarət edilməsi və ya kömək göstərilməsi;
- bu sistemlərin istismarı, tikintisi, texniki xidməti və ya təkmilləşdirilməsinə kömək göstərilməsi məqsədilə

qaytarılmayan borcların, kreditlərin və subsidiyaların verilməsi.

**05.3 Ətraf mühitin çirklənməsi ilə mübarizə**

Bu qrup havanın və iqlimin mühafizəsi, torpağın və yeraltı suların qorunması, səs və titrəyişlərlə mübarizə və radiasiyadan qorunma ilə əlaqədar fəaliyyətin müxtəlif növlərini əhatə edir.

Belə fəaliyyət növlərinə monitorinq sistemləri və stansiyalarının (meteoroloji stansiyalardan başqa) yaradılması, texniki xidməti, təmiri və istismarı; şəhər avtomagistrallarının və dəmir yollarının xüsusi səsboğucu materiallarla örtülməsi də daxil edilməklə, səs əleyhinə torpaq töküntülərinin, hasarların və digər səsdən qoruyucu qurğuların qurulması; su hövzələrinin çirkləndirici maddələrdən təmizlənməsi tədbirdləri; havanın keyfiyyətinə mənfi təsir göstərən buxar qazlarının və çirkləndirici maddələrin havaya buraxılmasına nəzarət üzrə və ya onların qarşısının alınması üzrə tədbirlər; çirklənmiş torpaqların təmizlənməsi üçün olan qurğuların və çirkləndirici maddə və materialların saxlanması üçün olan tikililərin tikintisi, texniki xidməti, təmiri və istismarı; belə maddə və materialların nəqli daxildir.

*05.3.0 Ətraf mühitin çirklənməsi ilə mübarizə (CS)*

- ətraf mühitin çirklənməsi ilə mübarizə və çirklənmənin səviyyəsinə nəzarət üzrə fəaliyyətə rəhbərlik, bu fəaliyyətə nəzarət, onun yoxlanması, idarə edilməsi və ya ona təsir göstərilməsi;
- ətraf mühitin çirklənməsi ilə mübarizə və çirklənmənin səviyyəsinə nəzarətlə əlaqədar fəaliyyətə kömək göstərilməsi məqsədilə qaytarılmayan borcların, kreditlərin və subsidiyaların verilməsi.

.

**05.4 Biomüxtəlifliyin qorunması və landşaftın mühafizəsi**

Bu qrup bitki və heyvan növlərinin (nəsli kəsilmiş növlərin reintroduksiyası və nəsli kəsilməkdə olan növlərin bərpa edilməsi də daxil edilməklə) qorunması, bunların mövcudluğu üçün yararlı olan yerlərin (təbii parkların və qoruqların səmərəli istifadəsi də daxil edilməklə) qorunması və landşaftların estetik dəyərinin saxlanması məqsədi ilə onların mühafizəsi ilə

(korlanmış landşaftların estetik dəyərinin artırılması məqsədi ilə onların bərpa edilməsi və atılmış şaxtalar və karxanaların tutduğu ərazilərin bərpa edilməsi də daxil edilməklə) əlaqədar fəaliyyətin müxtəlif növlərini əhatə edir.

*05.4.0 Biomüxtəlifliyin qorunması və landşaftın mühafizəsi (CS)*

- biomüxtəlifliyin qorunması və landşaftın mühafizəsi ilə əlaqədar fəaliyyətə rəhbərlik, bu fəaliyyətə nəzarət, onun yoxlanması, idarə edilməsi və ya ona kömək göstərilməsi;
- biomüxtəlifliyin qorunması və landşaftın mühafizəsi ilə əlaqədar fəaliyyətə kömək göstərilməsi məqsədilə qaytarılmayan borcların, kreditlərin və subsidiyaların verilməsi.

**05.5 Ətraf mühitin mühafizəsi sahəsində ETTKİ**

Əsaslı və tətbiqi tədqiqatların və təcrübi işlərin tərifləri (01.4) və (01.5) qruplarında verilmişdir.

*05.5.0 Ətraf mühitin mühafizəsi sahəsində ETTKİ (CS)*

- ətraf mühitin mühafizəsi ilə əlaqədar tətbiqi tədqiqatlar və təcrübi işlər həyata keçirən dövlət idarələrinə rəhbərlik və onların idarə edilməsi;
- ətraf mühitin mühafizəsi sahəsində elmi-tədqiqat institutları və universitetlər kimi qeyri-dövlət təşkilatları tərəfindən həyata keçirilən tətbiqi tədqiqatlar və təcrübi işlərə kömək göstərilməsi məqsədilə qaytarılmayan borcların, kreditlərin və subsidiyaların verilməsi.

Daxil deyil: əsaslı tədqiqatlar (01.4.0).

**05.6 Ətraf mühitin mühafizəsinin digər kateqoriyalarına daxil edilməyən məsələlər**

*05.6.0 Ətraf mühitin mühafizəsinin digər kateqoriyalarına daxil edilməyən məsələlər (CS)*

- Ətraf mühitin mühafizəsinə yardım məqsədi ilə ümumi siyasətin, planların, proqramların və büdcələrin işlənib hazırlanması kimi fəaliyyətə rəhbərlik, onun idarə edilməsi, tənzimlənməsi, nəzarəti, həyata keçirilməsi və ona kömək

göstərilməsi; ətraf mühitin mühafizəsi xidmətlərinin işini tənzimləyən qanun və normativ sənədlərin işlənib hazırlanması və onlara əməl olunmasının təmin edilməsi; ətraf mühitin mühafizəsi üzrə ümumi xarakterli məlumatların, texniki sənədlərin hazırlanması, yayılması və statistik məlumatların yığılması.

Daxildir: ətraf mühitin mühafizəsi sahəsində (05.1), (05.2), (05.3), (05.4) və ya (05.5) qruplarına aid edilməyən məsələ və xidmətlər.

## 06 MƏNZİL VƏ KOMMUNAL XİDMƏTLƏRİ

### 06.1 Mənzil tikintisi

*06.1.0 Mənzil tikintisi (CS)*

- mənzil tikintisi sahəsində məsələ və xidmətlərə rəhbərlik; dövlət hakimiyyəti orqanlarının himayəsi ilə aparılıb-aparılmamasından asılı olmayaraq mənzil tikintisi sahəsində fəaliyyətin inkişafına yardım, ona nəzarət və onun qiymətləndirilməsi; mənzil məsələləri üzrə standartların işlənib hazırlanması və bu standartlara nəzarət;
- mənzil tikinisi ilə əlaqədar xarabalıqlarda evlərin sökülməsi; yaşayış evlərinin tikintisi üçün torpaq sahələrinin alınması; əhalinin geniş təbəqələri və ya xüsusi tələbatları olan şəxslər üçün yaşayış evlərinin tikintisi və ya alınması və yenidən qurulması;
- mənzil tikintisi sahəsində məsələ və xidmətlər üzrə ümumi xarakterli məlumatların, texniki sənədlərin hazırlanması, yayılması və statistik məlumatların yığılması;
- mənzil fondunun genişləndirilməsi, vəziyyətinin yaxşılaşdırılması və saxlanılmasına kömək göstərilməsi məqsədilə qaytarılmayan borcların, kreditlərin və subsidiyaların verilməsi.

Daxil deyil: tikinti standartlarının işlənib hazırlanması və onlara riayət edilməsinə nəzarət (04.4.3); mənzil xərclərinin ödənilməsində ev təsərrüfatlarına yardım göstərilməsi üçün pul şəklində və ya natural formada müavinətlərin verilməsi.

## 06.2 Kommunal inkişaf

*06.2.0 Kommunal inkişaf (CS)*

- kommunal inkişaf məsələlərinə və bununla bağlı xidmətlərə rəhbərlik; rayonlaşdırmanı tənzimləyən qanunvericiliyə, torpaqdan istifadə və tikinti normaları və qaydaları haqqında əsasnamələrə əməl edilməsinə nəzarət;
- yeni yaşayış rayonlarının salınmasının və köhnələrinin yenidən qurulmasının planlaşdırılması; yaşayış rayonlarında yaşayış evləri, sənaye binaları, kommunal müəssisələri, səhiyyə, təhsil, mədəniyyət obyektləri, istirahət yerləri və s. kimi tikililərin təkmilləşdirilməsi və tikintisi; planlaşdırılan tədbirlərin maliyyələşdirilməsi proqramlarının işlənib hazırlanması;
- kommunal inkişaf sahəsində məsələ və xidmətlər üzrə ümumi xarakterli məlumatların, texniki sənədlərin hazırlanması, yayılması və statistik məlumatların yığılması;

<u>Daxil deyil</u>: planların həyata keçirilməsi, yaşayış evlərinin və sənaye binalarının, küçələrin, kommunal müəssisələrin, mədəniyyət obyektlərinin və s. faktiki tikintisi (həyata keçirilən funksiyaya uyğun olaraq təsnifləşdirilir); aqrar islahatlar və torpaqların məskunlaşdırılması (04.2.1); tikinti standartlarının və mənzil məsələləri üzrə standartlara əməl olunmasına nəzarət [müvafiq olaraq (04.4.3) və (06.1.0)].

## 06.3 Su təchizatı

*06.3.0 Su təchizatı (CS)*

- su təchizatı məsələlərinə rəhbərlik; gələcək tələbatın qiymətləndirilməsi və mövcud imkanların belə qiymətləndirmə nöqeyi-nəzərindən müəyyənləşdirilmə-si; suyun təmizliyi, qiyməti və keyfiyyətinə nəzarət də daxil edilməklə, su təchizatının bütün amillərinə nəzarət və onların tənzimlənməsi;
- qeyri-kommersiya təyinatlı su təchizatı sistemlərinin tikintisi və istismarı;
- su təchizatı sahəsində məsələ və xidmətlər üzrə ümumi xarakterli məlumatların, texniki sənədlərin hazırlanması, yayılması və statistik məlumatların yığılması;

- su təchizatı sistemlərinin istismarı, tikintisi, texniki xidməti, təmiri və ya təkmilləşdirilməsinə kömək göstərilməsi məqsədilə qaytarılmayan borcların, kreditlərin və subsidiyaların verilməsi.

Daxil deyil: irriqasiya sistemləri (04.2.1); çoxməqsədli layihələr (04.7.4); çirkab suların yığılması və təmizlənməsi (05.2.0).

**06.4 Küçələrin işıqlandırılması**

*06.4.0 Küçələrin işıqlandırılması (CS)*

- küçələrin işıqlandırılması məsələlərinə rəhbərlik; küçələrin işıqlandırılması üzrə standartların işlənib hazırlanması və onlara əməl olunmasına nəzarət;
- küçələrin işıqlandırılması üçün olan vasitələrin qurulması, istismarı, saxlanılması, təkmilləşdirilməsi və s.

Daxil deyil: avtostradaların tikintisi və istismarı ilə əlaqədar işıqlandırma sahəsinə dair məsələ və xidmətlər (04.5.1).

**06.5 Mənzil və kommunal təsərrüfatı sahəsində ETTKİ**

Əsaslı və tətbiqi tədqiqatların və təcrübi işlərin tərifləri (01.4) və (01.5) qruplarında verilmişdir.

*06.5.0 Mənzil və kommunal təsərrüfatı sahəsində ETTKİ (CS)*

- mənzil və kommunal təsərrüfatı sahəsində tətbiqi tədqiqatlar və təcrübi işlər həyata keçirən dövlət idarələrinə rəhbərlik və onların idarə edilməsi;
- mənzil və kommunal təsərrüfatı sahəsində, elmi-tədqiqat institutları və universitetlər kimi qeyri-dövlət təşkilatları tərəfindən həyata keçirilən tətbiqi tədqiqatlar və təcrübi işlərə kömək göstərilməsi məqsədilə qaytarılmayan borcların, kreditlərin və subsidiyaların verilməsi.

Daxil deyil: əsaslı tədqiqatlar (01.4.0); tikinti üsulları və tikintidə istifadə edilən materiallar sahəsində tətbiqi tədqiqatlar və təcrübi işlər (04.8.4).

**06.6 Digər kateqoriyalara daxil edilməyən mənzil və kommunal xidmətləri**

*06.6.0 Digər kateqoriyalara daxil edilməyən mənzil və kommunal xidmətləri (CS)*

- mənzil və kommunal xidmətlərə aid edilən ümumi siyasətin, planların, proqramların və büdcələrin işlənib hazırlanması, onların idarə edilməsi, əlaqələndirilməsi, və həyata keçirilməsinə nəzarət kimi fəaliyyətə rəhbərlik, bu fəaliyyətin idarə edilməsi və ona kömək göstərilməsi; mənzil və kommunal xidmətlərə aid qanun və standartların işlənib hazırlanması və onlara əməl olunmasının təmin edilməsi; mənzil və kommunal xidmələrə aid ümumi xarakterli məlumatların, texniki sənədlərin hazırlanması, yayılması və statistik məlumatların yığılması.

Daxildir: mənzil və kommunal xidmələrlə əlaqədar və (06.1), (06.2), (06.3), (06.4) və ya (06.5) qruplarına aid edilməyən fəaliyyətə rəhbərlik və onun idarə edilməsi və ya bu fəaliyyətə kömək göstərilməsi.

**07 SƏHİYYƏ**

Dövlətin səhiyyə xərcləri fərdi əsaslarla şəxslərə göstərilən xidmətlərə çəkilən xərcləri və kollektiv xidmətlərə çəkilən xərcləri özündə birləşdirir. Fərdi xidmətlər (07.1)-(07.4) qruplarına, kollektiv xidmətlər isə (07.5)-(07.6) qruplarına aid edilmişdir.

Səhiyyə sahəsində kollektiv xidmətlər Dövlət siyasətinin müəyyən edilməsi və onun həyata keçirilməsinə rəhbərlik; tibbi və paratibbi personal və xəstəxanalar, klinikalar, tibb məntəqələri və s. üçün standartların işlənib hazırlanması və onlara əməl olunmasının təminatı; səhiyyə sahəsində xidmət göstərənlərin fəaliyyətlərinin tənzimlənməsi və lisenziyalaşdırılması; həmçinin tibb və sağlamlığın qorunması sahəsində tədbiqi tədqiqatlar və təcrübi işlər kimi məsələləri özündə cəmləşdirir. Lakin xəstəxanalar, klinikalar, tibb məntəqələri və s. qrupların idarə edilməsi və ya onların fəaliyyəti ilə əlaqədar qaimə xərcləri, fərdi xidmətlərə çəkilən xərclər kimi hesab edilir və müvafiq olaraq (07.1)-(07.4) qruplarına aid edilmişdir.

## 07.1 Təbabətdə istifadə edilən tibbi məhsullar, avadanlıq və məmulatlar

Bu qrup ayrı-ayrı şəxslər və ya ev təsərrüfatları tərəfindən apteklərdən, əszaçılıq şirkətlərindən və ya tibb avadanlığı ilə təhciz edənlərdən resept üzrə və ya reseptsiz alınan dava-dərmanları, protezləri, tibbi avadanlıq və aparatları və təbabətdə istifadə edilən digər məmulatları əhatə edir. Bunlar, tibb mərkəzləri və müəssisələrindən kənarda istehlak və ya istifadə edilməlidir. Ambulator xəstələrə tibbi, diş həkimləri və paratibbi personal tərəfindən, stasionar xəstələrə isə xəstəxanalar və oxşar müəssisələr tərəfindən verilən belə məmulatlar bu təsnifatın ambulator xidmətlər (07.2) və ya xəstəxanaların xidmətləri (07.3) qruplarına daxil edilmişdir.

*07.1.1 Əczaçılıq məhsulları (IS)*

- tibbi preparatlar, dərman vasitələri, patentlənmiş dərman preparatları, zərdablar və vaksinlər, vitaminlər və mineral maddələr, balıq yağı (treska və paltusun qara ciyərindən alınmış), oral konrtaseptivlər kimi əczaçılıq məhsulları ilə təminat;
- əczaçılıq məhsulları ilə təminat məsələlərinə rəhbərlik və bu məsələlərin idarə edilməsi və ya belə məhsullarla təminata yardım edilməsi.

*07.1.2 Digər tibbi məmulatlar (IS)*

- tibbi istiliölçənlər (termometrlər), yapışqanlı plastırlar (leykoplastırlar) və adi sarğı materialları, dərialtı inyeksiyalar üçün şprislər, ilk yardım üçün dərman qutuları, qrelkalar və buz üçün kisəciklər, müalicəvi corab məmulatları (məsələn, elastik corablar və dizliklər), hamiləliyin müəyyən edilməsi üçün testlər, prezervativlər və hamiləliyin qarşısını alan digər mexaniki vasitələr kimi tibbi məmulatlar ilə təminat;
- həkim tərəfindən təyin edilən digər tibbi məmulatlar ilə təminat məsələlərinə rəhbərlik və bu məsələlərin idarə edilməsi və ya belə məmulatlarla təminata yardım edilməsi.

*07.1.3 Müalicə avadanlığı və aparatları (IS)*

- görmə qabiliyyətini düzəldən eynəklər və kontakt linzaları, eşitmə aparatları, göz protezləri, süni ətraflar və digər protez qurğuları, ortopedik aparatlar və dayaqlar, ortopedik ayaqqabılar, cərrahiyə bandajları, dəbəlik kəmərləri və korsetləri, boyun üçün korsetlər, tibbi masaj üçün avadanlıq və fizioterapiya lampaları, mexaniki və əllə idarə edilən kreslolar və əlil arabaları, xüsusi kreslo-çarpayılar, qoltuq ağacları, qan təzyiqinin ölçülməsi üçün elektron və digər cihazlar və s. kimi müalicə avdanlığı və aparatları ilə təminat;
- həkim tərəfindən təyin edilən müalicə avdanlığı və aparatları ilə təminat məsələlərinə rəhbərlik və bu məsələlərin idarə edilməsi və ya belə məmulatlarla təminata yardım edilməsi.

**07.2 Ambulator xidmətləri**

Bu qrup praktik işləyən həkimlər, diş həkimləri və paratibbi personal və onların köməkçiləri tərəfindən ambulator xəstələrə göstərilən tibbi, stomatoloji və paratibbi xidmətləri əhatə edir. Bu xidmətlər evlərdə, tibbi məsləhətxanalarda fərdi qaydada və qruplar şəklində, xəstəxanaların yanında olan dispanserlərdə və ya poliklinikalarda və s. göstərilə bilər.

Ambulator xidmətlərlə praktik işləyən həkimlər, diş həkimləri, paratibbi personal və onların köməkçiləri tərəfindən ambulator xəstələrə bilavasitə verilən dava-dərmanlar, protezlər, tibbi avadanlıq, aparatlar və təbabətdə istifadə edilən digər məmulatlar daxildir.

Stasionar xəstələrə xəstəxanalar və digər oxşar müəssisələr tərəfindən göstərilən tibbi, stomatoloji və paratibbi xidmətlər bu təsnifatın xəstəxana xidmətləri qrupuna (07.3) aid edilmişdir

*07.2.1 Ümumi profilli tibbi xidmətlər (IS)*

Bu altqrup ümumi profilli tibbi klinikalar (poliklinikalar) və ümumi profilli həkimlər tərəfindən göstərilən xidmətləri əhatə edir.

Ümumi profilli poliklinikalar, əsasən müəyyən tibbi ixtisaslaşma ilə məhdudlaşmayan və ixtisaslı həkimlər tərəfindən həyata keçirilən ambulator xidmətləri göstərən

müəssisələr kimi müəyyən edilir. Ümumi profilli həkimlər ixtisaslaşmaya malik olmur.

- ümumi profilli tibbi xidmətlərin göstərilməsi;
- ümumi profilli tibbi xidmətlərə rəhbərlik, onların təftişi, idarə edilməsi və ya onlara yardım edilməsi.

Daxil deyil: tibbi tədqiqat laboratoriyalarının və rentqen kabinələrinin xidmətləri (07.2.4).

*07.2.2 Xüsusiləşdirilmiş tibbi xidmətlər (IS)*

Bu altqrup xüsusiləşdirilmiş tibbi klinikalar (poliklinikalar) və həkim-mütəxəssislər tərəfindən göstərilən xidmətləri əhatə edir.

Xüsusiləşdirilmiş poliklinikalar və həkim-mütəxəssislər ümumi profilli poliklinikalar və ümumi profilli həkimlərdən fərdi göstərdikləri xidmətlərin müəyyən vəziyyətdə olan, müəyyən xəstəiliklərə düçar olmuş, müəyyən tibbi prosedura qəbul edən və ya müəyyən kateqoriyaya aid olunan xəstələrin müalicə edilməsi ilə məhdudlaşmasıdır.

- xüsusiləşdirilmiş tibbi xidmətlərin göstərilməsi;
- xüsusiləşdirilmiş poliklinikalar və həkim-mütəxəssislər tərəfindən həyata keçirilən xüsusiləşdirilmiş tibbi xidmətlərə rəhbərlik, onların təftişi, idarə edilməsi və ya onlara yardım edilməsi.

Daxildir: stomatoloq-ortodontların xidmətləri.

Daxil deyil: stomatoloji poliklinikalar və diş həkimləri (07.2.3); tibbi tədqiqat laboratoriyalarının və rentqen kabinələrinin xidmətləri (07.2.4).

*07.2.3 Stomatoloji xidmətlər (IS)*

Bu altqrup ümumi profilli və xüsusiləşdirilmiş stomatoloji poliklinikalar və diş həkimləri, ağız boşluğunun gigiyenası sahəsində mütəxəssislər və diş müalicəsinin digər köməkçi personalı tərəfindən həyata keçirilən xidmətləri əhatə edir.

Stomatoloji poliklinikalar ambulator xidmətlər göstərir. Onlara diş həkimləri tərəfindən nəzarət edilməsi və ya onların bu həkimlərlə komplektləşdirilməsi vacib deyil; bu

poliklinikalara ağız boşluğu sahəsində mütəxəssislər və ya diş müalicəsinin digər köməkçi personalı tərəfindən nəzarət edilə və ya bu poliklinikalar həmin personallarla komplektləşdirilə bilər.

- ambulator xəstələrə stomatoloji xidmətlərin göstərilməsi;
- ümumi təyinatlı stomatoloji poliklinikalar və ya xüsusiləşdirilmiş stomatoloji poliklinikalar və diş həkimləri, ağız boşluğu sahəsində mütəxəssislər və ya diş müalicəsinin digər köməkçi personalları tərəfindən həyata keçirilən stomatoloji xidmətlərə rəhbərlik, onların təftişi, idarə edilməsi və ya onlara yardım edilməsi.

Daxildir: diş protezlərinin uyğunlaşdırılmasına çəkilən xərclər.

Daxil deyil: diş protezləri (07.1.3); stomatoloq-ortodontların xidmətdləri (07.2.2); tibbi tədqiqat laboratoriyalarının və rentqen kabinələrinin xidmətləri (07.2.4).

*07.2.4 Paratibbi xidmətlər (IS)*

- ambulator xəstələrə paratibbi xidmətlərin göstərilməsi;
- tibb bacıları, mamalar, fizioterapevtlər, əmək terapiyası sahəsində mütəxəssislər, loqopedlər və ya digər paratibbi personal tərəfindən nəzarət edilən klinikaların həyata keçirdikləri tibbi xidmətlərə, həmçinin tibb bacıları, mamalar və paratibbi personal tərəfindən qəbul kabinetləri olmayan yerlərdə, xəstələrin evlərində və ya digər qeyri-səhiyyə müəssisələrində həyata keçirilən xidmətlərə rəhbərlik, onların təftişi, idarə edilməsi və ya onlara yardım edilməsi.

Daxildir: akupunktura sahəsində mütəxəssislər, ayaq dırnaqları üzrə mütəxəssislər, xiropraktiklər, optometristlər, ənənəvi tibb sahəsində mütəxəssislər və s.; tibbi tədqiqat laboratoriyalarının və rentqen kabinələri; müalicə avadanlığının kirayəsi; həkim tərəfindən təyin olunmuş bədən quruluşuna düzəliş verən müalicəvi gimnastika; bolneoloji ambulator müalicə və ya dəniz suyu ilə müalicə; xəstəxanalara məxsus olmayan təcili yardım xidmətləri.

Daxil deyil: səhiyyə sahəsində xidmət göstərilməsi ilə əlaqədar laboratoriyalar (07.4.0); diaqnostik laboratoriyalar (07.5.0).

## 07.3 Xəstəxanaların xidmətləri

Xəstəxanaya yerləşdirmə xəstənin bütün müalicə müddətinə müvafiq müəssisəyə yerləşdirilməsi kimi müəyyən edilir. Buraya gündüz stasionarında müalicə və evdə stasionar müalicə, həmçinin müalicəsi mümkün olmayan xəstələr üçün xospislər aiddir.

Bu qrup ümumi təyinnatlı xəstəxanaların və xüsusiləşdirilmiş xəstəxanaların xidmətlərini, əsasən stasionar xəstələrə xidmət göstərən tibb mərkəzlərinin, doğum evlərinin, sanatoriyaların və sağalmaqda olanlar üçün evlərin xidmətlərini, göstərdikləri xidmətlərin vacib elementi tibbi müayinə olan hərbi köçürmə hospitallarının, yaşlı şəxslərə xidmət göstərən müəssisələrin xidmətlərini və stasionar tibbi yardım göstərən və bərpa terapiyası ilə məşğul olan, həmçinin xəstələrə uzunmüddətli dayaq verilməsindən çox onların müalicə edilməsi məqsədi güdən sağlamlığın bərpa mərkəzlərinin xidmətlərini əhatə edir.

Xəstəxanalar, stasionar xəstələrin ixtisaslı həkimlərin bilavasitə müşahidəsi altında müalicəsi üçün təsis edilmiş müəssisələr kimi müəyyən edilir. Tibb mərkəzləri, doğum evləri, sanatoriyalar və sağalmaqda olanlar üçün evlər də həmçinin stasionar müalicə xidmətləri göstərir, lakin bu halda həmin xidmətlərə ixtisaslaşması həkimlərdən aşağı olan işçilər tərəfindən nəzarət edilir.

Bu qrupa səhra hospitalları (02.1), yalnız ambulator yardım göstərilməsi üçün nəzərdə tutulan tibb məntəqələri, poliklinikalar və dispanserlər (07.2), fəaliyyəti əsasən uzunmüddətli dayaq verməkdən ibarət olan əlillər üçün xüsusiləşdirilmiş müəssisələr və sağlamlığın bərpa edilməsi mərkəzləri (10.1.2), qocalar evləri (10.2.0) daxil deyil. Bu qrup həmçinin xəstəxanaya yerləşdirilmə nəticəsində gəlirlərini itirmiş xəstələrə verilən ödəmələri (10.1.1) də əhatə etmir.

Xəstəxanaların xidmətlərinə təbabətdə istifadə edilən və xəstəxanaların xəstələrinə verilən dava-dərmanlar, protezlər, tibbi avadanlıq və aparatlar və digər məmulatlar daxildir. Buraya həmçinin xəstəxanaların inzibatçılara, qeyri-tibbi personala, qidaya (içki də daxil daxil olmaqla), binaya (ştatlı

işçilər üçün yerlər də daxil olmaqla) və s. çəkdikləri təbabətlə bağlı olmayan xərclər də daxildir.

*07.3.1 Ümumi profilli xəstəxanaların xidmətləri (IS)*

- ümumi təyinatlı xəstəxanalar tərəfindən xidmətlərin göstərilməsi;
- öz xidmətlərini müəyyən tibbi ixtisaslaşma ilə məhdudlaşdırmayan xəstəxanalara rəhbərlik, onların təftişi, idarə edilməsi və ya onlara yardım edilməsi.

Daxil deyil: bilavasitə ixtisaslı həkimlərin nəzarətində olmayan tibbi mərkəzlər (07.3.3).

*07.3.2 Xüsusiləşdirilmiş xəstəxanaların xidmətləri (IS)*

Xüsusiləşdirilmiş xəstəxanalar ümumi təyinatlı xəstəxanalardan göstərdikləri xidmətlərin müəyyən vəziyyətdə olan, müəyyən xəstəliklərə düçar olmuş və ya müəyyən kateqoriyaya aid edilən xəstələrin müalicəsilə (məsələn, ağ ciyər xəstəliklərinin və vərəmin, cüzamın, xərçəngin, qulaq, boğaz və burun xəstəliklərinin, ruhi xəstəliklərin, hamiləliklə əlaqədar xəstəliklərin, uşaq xəstəliklərinin və s. müalicəsi ilə) məhdudlaşması ilə fərqlənir.

- xüsusiləşdirilmiş xəstəxanalar tərəfindən xidmətlərin göstərilməsi;
- öz xidmətlərini müəyyən tibbi ixtisaslaşma ilə məhdudlaşdıran xəstəxanalara rəhbərlik, onların təftişi, idarə edilməsi və ya onlara yardım edilməsi.

Daxil deyil: bilavasitə ixtisaslı həkimlərin nəzarətində olmayan doğum evləri (07.3.3).

*07.3.3 Tibb mərkəzlərinin və doğum evlərinin xidmətləri (IS)*

- tibb mərkəzləri və doğum evləri tərəfindən xidmətlərin göstərilməsi;
- tibb mərkəzlərinə və doğum evlərinə rəhbərlik, onların təftişi, idarə edilməsi və ya onlara yardım edilməsi.

*07.3.4 Sanatoriyaların və sağalmaqda olanlar üçün evlərin xidmətləri (IS)*

Sanatoriyalar və sağalmaqda olanlar üçün evlər cərrahi əməliyyat keçirmiş, ağır xəstəlikdən durmuş və ya ağır vəziyyətdə olmuş xəstələri, əsasən dava-dərmanların qəbuluna nəzarət, xəstələrin itirilmiş funksiyalarının bərpa edilməsi və ya istirahət üçün fizioterapevtik prosedurların aparılması və sağlamlıq hərəkətlərinin yerinə yetirilməsini tələb edən stasionar xidmətlə təmin edir.

- sanatoriyalar və sağalmaqda olanlar üçün evlər tərəfindən xidmətlərin göstərilməsi;
- sanatoriyalara və sağalmaqda olanlar üçün evlərə rəhbərlik, onların təftişi, idarə edilməsi və ya onlara yardım edilməsi.

Daxildir: yaşlı şəxslərə xidmət göstərən və əsas elementi tibbi müşahidə olan müəssisələr; stasionar tibbi yardım göstərən və bərpa terapiyası ilə məşğul olan, həmçinin xəstələrə uzunmüddətli dayaq verilməsindən çox onların müalicə edilməsi məqsədi güdən sağlamlığı bərpa mərkəzləri.

**07.4 Səhiyyə sahəsində xidmətlər**

*07.4.0 Səhiyyə sahəsində xidmətlər (IS)*

- səhiyyə sahəsində ümumi xidmətlərin göstərilməsi;
- səhiyyə sahəsində göstərilən qan bankları fəaliyəti (qəbul, emal, saxlama, daşınma), diaqnostika (xərçəngin, vərəmin, zöhrəvi xəstəliklərin), profilaktika (immunizasiya, peyvənd), nəzarətin həyata keçirilməsi (uşaq yeməyi, uşağın səhhəti), epidemioloji vəziyyət haqqında məlumatların yığılması, ailə planlaşdırılması üzrə xidmətlər və s. kimi xidmətlərə rəhbərlik, onların təftişi, idarə edilməsi və ya onlara yardım edilməsi;
- səhiyyə məsələləri üzrə məlumatların hazırlanması və yayılması.

Daxildir: səhiyyə sahəsində xüsusi briqadalar tərəfindən əksəriyyəti sağlam olan insanlar qrupuna onların iş yerlərində, məktəblərdə və digər qeyri-tibbi idarələrdə göstərilən xidmətlər; səhiyyə sahəsində xəstəxanalar, klinikalar və ya praktik işləyən həkimlərlə əlaqədar olmayan xidmətlər;

səhiyyə sahəsində həkim olmayanlar tərəfindən həyata keçirilən xidmətlər; səhiyyə sahəsində xidmətlərin göstərilməsi ilə əlaqədar laboratoriyalar.

Daxil deyil: tibbi tədqiqat laboratoriyaları (07.2.4); diaqnostika laboratoriyaları (07.5.0).

**07.5 Səhiyyə sahəsində ETTKİ**

Əsaslı və tətbiqi tədqiqatların və təcrübi işləmələrin tərifləri (01.4) və (01.5) qruplarında verilmişdir.

*07.5.0 Səhiyyə sahəsində xidmətlər ETTKİ (CS)*

- səhiyyə sahəsində tətbiqi tədqiqatlar və təcrübi işlər həyata keçirən dövlət idarələrinə rəhbərlik və onların idarə edilməsi;
- elmi-tədqiqat institutları və universitetləri kimi qeyri-dövlət təşkilatları tərəfindən həyata keçirilən səhiyyə sahəsində tətbiqi tədqiqatlara və təcrübi işlərə kömək göstərilməsi üçün qaytarılmayan borcların, kreditlərin və subsidiyaların verilməsi.

Daxildir: diaqnostika laboratoriyaları.

Daxil deyil: əsaslı tədqiqatlar (01.4.0).

**07.6 Digər kateqoriyalara daxil edilməyən səhiyyə məsələləri**

*07.6.0 Digər kateqoriyalara daxil edilməyən səhiyyə məsələləri (CS)*

- səhiyyə ilə əlaqədar olan ümumi siyasətin, planların, proqramların və büdcələrin işlənib hazırlanması, onlara rəhbərlik, onların əlaqələndirilməsi və onların həyata keçirilməsinə nəzarət kimi fəaliyyət növlərinə rəhbərlik, onların idarə edilməsi və onlara kömək göstərilməsi; səhiyyə sahəsində qanunların işlənib hazırlanması və onlara əməl olunmasının təmin edilməsi; müdafiə məsələləri üzrə ümumi xarakterli məlumatların, texniki sənədlərin hazırlanması, yayılması və statistik məlumatların yığılması; və s.

Daxildir: (07.1), (07.2), (07.3), (07.4) və (07.5) qruplarına aid edilməyən səhiyyə sahəsində məsələlər və xidmətlər.

## 08 İSTİRAHƏT, MƏDƏNİYYƏT VƏ DİN

Dövlət tərəfindən istirahətin təşkilinə, mədəniyyətə və dinə çəkilən xərclər fərdi əsaslarda ayrı-ayrı şəxslərə və ev təsərrüfatlarına göstərilən xidmətlərə çəkilən xərcləri və kollektiv əsaslarda göstərilən xidmətlərə çəkilən xərcləri özündə birləşdirir. Fərdi xidmətlərə çəkilən xərclər (08.1) və (08.2) qruplarına; kollektiv xidmətlərə çəkilən xərclər isə (08.3)-(08.6) qruplarına aid edilmişdir.

Kollektiv xidmətlər ümumilikdə yaşayış məntəqəsinə və ya yaşayış rayonuna göstərilir. Bu xidmətlər Dövlət siyasətinin müəyyənləşdirilməsi və onun həyata keçirilməsinə rəhbərlik; istirahətin təşkili və mədəniyyət sahəsində göstərilən xidmətlərə dair qanun və normativ sənədlərin işlənib hazırlanması və onlara riayət edilməsinin təminatı; istirahətin təşkili və mədəniyyət sahəsində göstərilən xidmətlərlə əlaqədar əsaslı tədqiqatlar və təcrübi işlər kimi fəaliyyətləri özündə birləşdirir.

### 08.1 İstirahətin və idmanla məşğuliyyətin təşkili sahəsində xidmətlər

*08.1.0 İstirahətin və idmanla məşğuliyyətin təşkili sahəsində xidmətlər (IS)*

- istirahətin və idmanla məşğuliyyətin təşkili sahəsində xidmətlərin göstərilməsi; istirahətin və idmanla məşğuliyyətin təşkili sahəsində fəaliyyətə rəhbərlik; idman qurğularına nəzarət və onlardan istifadə edilməsinin tənzimlənməsi;
- idmanla fəal məşğul olmaq üçün və ya idman tədbirləri üçün nəzərdə tutulan qurğuların (futbol meydançaları, idman meydançaları, tennis kortları, skvoş kortları, qaçış zolaqları, qolf oyunu sahələri, boks rinqləri, buz meydançaları, idman zalları və s.) idarə edilməsi və ya onlara kömək göstərilməsi; idmanla qeyri-fəal məşğul olmaq üçün və ya idman tədbirləri üçün nəzərdə tutulan obyekt və yerlərin (əsasən kart oyunu, stolüstü oyunlar və s. üçün xüsusi təchiz olunmuş yerlərin) idarə edilməsi və ya onlara kömək

göstərilməsi; istirahət obyektlərinin (parklar, çimərliklər, kempinqlər və ya bunlara oxşar yerlər, üzgüçülük hovuzları, ictimai hamamlar və s.) idarə edilməsi və ya onlara kömək göstərilməsi;
- komandalara və ayrı-ayrı yarış iştirakçılarına kömək göstərilməsi məqsədilə qaytarılmayan borcların, kreditlərin və subsidiyaların verilməsi.

Daxidir: tamaşıçalar üçün yerlər; milli, regional və ya yerli komandaların idman tədbirlərində nümayəndəliyi.

Daxil deyil: heyvanxanalar və nəbatat bağları, akvariumlar, dendrariyalar və oxşar obyektlər (08.2.0); idmanla məşğul olmaq və istirahət üçün olan, lakin təhsil müəssisələri ilə əlaqədar qurğular (09 bölməsinin müvafiq altqrupuna aid edilmişlər).

**08.2 Mədəniyyət sahəsində xidmətlər**

*08.2.0 Mədəniyyət sahəsində xidmətlər (IS)*

- mədəniyyətlə bağlı xidmətlərin göstərilməsi; mədəniyyət sahəsində fəaliyyətə rəhbərlik; mədəniyyət obyektlərinə nəzarət və onların fəaliyyətlərinin tənzimlənməsi;
- mədəniyyət məqsədləri üçün nəzərdə tutulan obyektlərin (kitabxanalar, muzeylər, şəkil qalereyaları, teatrlar, sərgi zalları, heykəllər, tarixi dəyərə malik binalar və tarixi yerlər, heyvanxanalar və nəbatat bağları, akvariumlar, dendrariyalar və s.) idarə edilməsi və ya onlara köməklik göstərilməsi; mədəni tədbirlərin (konsertlər, səhnə quruluşları, filmlərin istehsalı, incəsənət sərgiləri və s.) təşkili, həyata keçirilməsi və ya onlara kömək göstərilməsi;
- ayrı-ayrı artistlərə, yazıçılara, rəssamlara, bəstəkarlara və digər mədəniyyət işçilərinə və ya idarələrə kömək göstərilməsi məqsədilə qaytarılmayan borcların, kreditlərin və ya subsidiyaların verilməsi.

Daxidir: milli, regional və ya yerli bayramların keçirilməsi, əgər bu tədbirlər əsasən turistlərin cəlb edilməsi üçün nəzərdə tutulmamışdırsa.

Daxil deyil: ölkədən xaricdə təşkil edilən mədəni tədbirlər (01.1.3); əsasən turistlərin cəlb edilməsi üçün nəzərdə tutulan

milli, regional və ya yerli bayramların keçirilməsi (04.7.3); mədəniyyətə aid olan radio- və televerilişlərin istehsalı (08.3.0).

**08.3 Radio və televerilişlər və nəşriyyat işləri sahəsində xidmətlər**

*08.3.0 Radio və televerilişlər və nəşriyyat işləri sahəsində xidmətlər (CS)*

- radio və televerilişlər və nəşriyyat işləri sahəsində xidmətlərə rəhbərlik; radio və televerilişlər və nəşriyyat işləri sahəsində xidmətlərə nəzarət, onların tənzimlənməsi;
- radio və televerilişlər və nəşriyyat işləri sahəsində xidmətlərin idarə edilməsi və ya onlara kömək göstərilməsi;
- radio və ya televerilişlər üçün obyektlərin və avadanlığın tikintisi və ya alınmasına; qəzet, jurnal və ya kitabların nəşr edilməsi üçün mətbəələrin, avadanlıqların və ya materialların alınması və ya tikintisinə; radio və televiziya proqramlarının istehsalı və efirə ötürülməsinə; xəbərlər xidmətinin və ya digər informasiya proqramlarının işinə; nəşr edilmiş işlərin yayılmasına kömək göstərilməsi məqsədilə qaytarılmayan borcların, kreditlərin və ya subsidiyaların verilməsi.

Daxil deyil: iri və kiçik dövlət mətbəələri (01.3.3); radio və televiziya tədris verilişləri vasitəsilə alınmış təhsil (09).

**08.4 Dini və digər ictimai xidmətlər**

*08.4.0 Dini və digər ictimai xidmətlər (CS)*

- din və digər ictimai fəaliyyət sahəsində fəaliyyətə rəhbərlik;
- dini mərasimlərin və digər ictimai tədbirlərin keçirilməsi üçün yerlərin verilməsi, həmçinin bu yerlərin istismarına, saxlanmasına və təmirinə yardım edilməsi;
- dini rəhbərliyə və dini təşkilatların digər xidmətçilərinə ödəmələr; dini ayinlərin keçirilməsinə kömək göstərilməsi; dini, mülki, və ictimai təşkilatların və ya gənclər təşkilatlarının və ya həmkarlar ittifaqlarının və siyasi partiyaların fəaliyyətlərinə kömək göstərilməsi məqsədilə qaytarılmayan borcların, kreditlərin və ya subsidiyaların verilməsi.

## 08.5 İstirahət, mədəniyyət və din sahəsində ETTKİ

Əsaslı və tətbiqi tədqiqatların və təcrübi işlərin tərifləri (01.4) və (01.5) qruplarında verilmişdir

*08.5.0 İstirahət, mədəniyyət və din sahəsində ETTKİ (CS)*

- istirahət, mədəniyyət və din sahəsində tətbiqi tədqiqatlar və təcrübi işlər həyata keçirən dövlət idarələrinə rəhbərlik və onların idarə edilməsi;
- elmi-tədqiqat institutları və universitetləri kimi qeyri-dövlət təşkilatları tərəfindən İstirahət, mədəniyyət və din sahəsində həyata keçirilən tətbiqi tədqiqatlara və təcrübi işlərə kömək göstərilməsi üçün qaytarılmayan borcların, kreditlərin və subsidiyaların verilməsi.

Daxil deyil: əsaslı tədqiqatlar (01.4.0).

## 08.6 Digər kateqoriyalara daxil edilməyən İstirahət, mədəniyyət və din məsələləri

*08.6.0 Digər kateqoriyalara daxil edilməyən İstirahət, mədəniyyət və din məsələləri (CS)*

- idmanın inkişafına, istirahətin təşkilinə, mədəniyyətin inkişafına və dini məsələlərə yardım edilməsi ilə əlaqədar ümumi siyasətin, planların, proqramların və büdcələrin işlənib hazırlanması, onlara rəhbərlik, onların əlaqələndirilməsi və onların həyata keçirilməsinə nəzarət kimi fəaliyyət növlərinə rəhbərlik, onların idarə edilməsi və onlara kömək göstərilməsi; istirahət və mədəniyət sahəsində xidmətlərin göstərilməsi ilə əlaqədar qanunların və standartların işlənib hazırlanması və onlara əməl olunmasının təmin edilməsi; istirahətin, mədəniyyətin təşkili və dini məsələlər üzrə ümumi xarakterli məlumatların, texniki sənədlərin hazırlanması, yayılması və statistik məlumatların yığılması.

Daxildir: istirahətin, mədəniyyətin təşkili və dini məsələlər ilə əlaqədar (08.1), (08.2), (08.3), (08.4) və (08.5) qruplarına aid edilə bilinməyən fəaliyyət və xidmətlər.

## 09 TƏHSİL

Dövlət tərəfindən təhsilə çəkilən xərclər fərdi əsaslarda şagird və tələbələrə göstərilən xidmətlərə çəkilən xərcləri və kollektiv əsaslarda göstərilən xidmətlərə çəkilən xərcləri özündə birləşdirir. Fərdi xidmətlərə çəkilən xərclər (09.1) və (09.6) qruplarına; kollektiv xidmətlərə çəkilən xərclər (09.7)-(09.8) qruplarına aid edilmişdir.

Təhsil sahəsində kollektiv xidmətlər Dövlət siyasətinin müəyyənləşdirilməsi və onun həyata keçirilməsinə rəhbərlik; standartların işlənib hazırlanması və onlara riayət edilməsinin təminatı; təhsil müəssisələrinin lisenziyalaşdırılması, fəaliyyətlərinin tənzimlənməsi və fəaliyyətlərinə nəzarət; təhsil sahəsində fəaliyyətlə və göstərilən xidmətlərlə əlaqədar əsaslı tədqiqatlar və təcrübi işlər kimi fəaliyyətləri özündə birləşdirir.

Təhsil məsələlərinin bölgüsü Birləşmiş Millətlər Təşkilatının təhsil, elm və mədəniyyət üzrə (UNESKO) 1997-ci ildə qəbul edilmiş Beynəlxalq standart təhsil təsnifatında (BSTT-97) öz əksini tapmış təhsil pillələrinin kateqoriyalarına əsaslanır.

Bu bölmə tədris proqramları mülki təhsil müəssisələrinin tədris proqramlarına uyğun olan hərbi məktəbləri, peşə hazırlığından başqa ümumi təhsil verən polis kolleclərini, radio və televiziya tədris verilişləri vasitəsilə alınmış təhsili özündə birləşdirir. Müvafiq xərclər konkret vəziyyətdən asılı olaraq (09.1)-(09.5) qruplarına aid edilmişdir.

### 09.1 Məktəbəqədər və ibtidai təhsil

*09.1.1 Məktəbəqədər təhsil (IS)*

- BSTT-97 təsnifatının 0-cı pilləsində məktəbəqədər təhsilin təmin edilməsi;
- BSTT-97 təsnifatının 0-cı pilləsində məktəbəqədər təhsili təmin edən məktəblərə və digər təhsil müəssisələrinə rəhbərlik, onların təftişi, idarə edilməsi və ya onlara kömək göstərilməsi;

Daxil deyil: təhsil sistemində köməkçi xidmətlər (09.6.0).

*09.1.2 İbtidai təhsil (IS)*

- BSTT-97 təsnifatının 1-ci pilləsində ibtidai təhsilin təmin edilməsi;
- BSTT-97 təsnifatının 1-ci pilləsində ibtidai təhsili təmin edən məktəblərə və digər təhsil müəssisələrinə rəhbərlik, onların təftişi, idarə edilməsi və ya onlara kömək göstərilməsi.

Daxildir: ibtidai məktəblərin kontingentindən yaşca böyük olan şəxslərə yazıb oxumağın öyrədilməsi proqramları.

Daxil deyil: təhsil sistemində köməkçi xidmətlər (09.6.0).

**09.2 Orta təhsil**

*09.2.1 Aşağı səviyyəli orta təhsil (IS)*

- BSTT-97 təsnifatının 2-ci pilləsində aşağı səviyyəli orta təhsilin təmin edilməsi;
- BSTT-97 təsnifatının 2-ci pilləsində aşağı səviyyəli orta təhsili təmin edən məktəblərə və digər təhsil müəssisələrinə rəhbərlik, onların təftişi, idarə edilməsi və ya onlara kömək göstərilməsi;
- BSTT-97 təsnifatının 2-ci pilləsinin aşağı səviyyəli orta təhsilin alınmasını təmin edən proqram üzrə təhsil alan şagirdlərə kömək göstərilməsi üçün təqaüdlərin, subsidiyaların, kreditlərin və müavinətlərin verilməsi.

Daxildir: böyüklər və gənclər üçün məktəbdənkənar aşağı səviyyəli orta təhsil.

Daxil deyil: təhsil sistemində köməkçi xidmətlər (09.6.0).

*09.2.2 Yüksək səviyyəli orta təhsil (IS)*

- BSTT-97 təsnifatının 3-cü pilləsində yüksək səviyyəli orta təhsilin təmin edilməsi;
- BSTT-97 təsnifatının 3-cü pilləsində yüksək səviyyəli orta təhsili təmin edən məktəblərə və digər təhsil müəssisələrinə rəhbərlik, onların təftişi, idarə edilməsi və ya onlara kömək göstərilməsi;

- BSTT-97 təsnifatının 3-cü pilləsinin yüksək səviyyəli orta təhsilin alınmasını təmin edən proqramı üzrə təhsil alan şagirdlərə köməklik göstərilməsi üçün təqaüdlərin, subsidiyaların, kreditlərin və müavinətlərin verilməsi.

Daxildir: böyüklər və gənclər üçün məktəbdənkənar yüksək səviyyəli orta təhsil.

Daxil deyil: təhsil sistemində köməkçi xidmətlər (09.6.0).

**09.3 Uzadılmış orta təhsil**

*09.3.0 Uzadılmış orta təhsil (IS)*

- BSTT-97 təsnifatının 4-cü pilləsində uzadılmış orta təhsilin təmin edilməsi;
- BSTT-97 təsnifatının 4-cü pilləsində uzadılmış orta təhsili təmin edən məktəblərə və digər təhsil müəssisələrinə rəhbərlik, onların təftişi, idarə edilməsi və ya onlara kömək göstərilməsi;
- BSTT-97 təsnifatının 4-cü pilləsinin uzadılmış orta təhsilin alınmasını təmin edən proqramı üzrə təhsil alan şagirdlərə kömək göstərilməsi üçün təqaüdlərin, subsidiyaların, kreditlərin və müavinətlərin verilməsi.

Daxildir: böyüklər və gənclər üçün məktəbdənkənar uzadılmış orta təhsil.

Daxil deyil: təhsil sistemində köməkçi xidmətlər (09.6.0).

**09.4 Ali təhsil**

*09.4.1 Ali təhsilin birinci mərhələsi (IS)*

- BSTT-97 təsnifatının 5-ci pilləsində ali təhsilin təmin edilməsi;
- BSTT-97 təsnifatının 5-ci pilləsində ali təhsili təmin edən ali məktəblərə və digər təhsil müəssisələrinə rəhbərlik, onların təftişi, idarə edilməsi və ya onlara kömək göstərilməsi;
- BSTT-97 təsnifatının 5-ci pilləsinin ali təhsilin alınmasını təmin edən proqramı üzrə təhsil alan tələbələrə kömək

göstərilməsi üçün təqaüdlərin, subsidiyaların, kreditlərin və müavinətlərin verilməsi.

Daxil deyil: təhsil sistemində köməkçi xidmətlər (09.6.0).

*09.4.2 Ali təhsilin ikinci mərhələsi (IS)*

- BSTT-97 təsnifatının 6-cı pilləsində ali təhsilin təmin edilməsi;
- BSTT-97 təsnifatının 6-cı pilləsində ali təhsili təmin edən ali məktəblərə və digər təhsil müəssisələrinə rəhbərlik, onların təftişi, idarə edilməsi və ya onlara kömək göstərilməsi;
- BSTT-97 təsnifatının 6-cı pilləsinin ali təhsilin alınmasını təmin edən proqramı üzrə təhsil alan tələbələrə kömək göstərilməsi üçün təqaüdlərin, subsidiyaların, kreditlərin və müavinətlərin verilməsi.

Daxil deyil: təhsil sistemində köməkçi xidmətlər (09.6.0).

**09.5 Pillələrə bölünməmiş təhsil**

*09.5.0 Pillələrə bölünməmiş təhsil (IS)*

- pillələrə bölünməmiş təhsilin (əsasən böyüklər üçün nəzərdə tutulmuş, qabaqcadan heç bir xüsusi təhsilə ehtiyacı olmayan tədris proqramlarının, məsələn, peşə hazırlığı və mədəni inkişaf proqramlarının) təmin edilməsi;
- pillələrə bölünməmiş təhsili təmin edən təhsil müəssisələrinə rəhbərlik, onların təftişi, idarə edilməsi və ya onlara kömək göstərilməsi;
- pillələrə bölünməmiş təhsilin alınmasını təmin edən proqramlar üzrə təhsil alanlara kömək göstərilməsi üçün təqaüdlərin, subsidiyaların, kreditlərin və müavinətlərin verilməsi.

**09.6 Təhsil sistemində köməkçi xidmətlər**

*09.6.0 Təhsil sistemində köməkçi xidmətlər (IS)*

- təhsil sistemində köməkçi xidmətlərin təmin edilməsi;
- əsasən aldıqları təhsilin pilləsindən asılı olmayaraq təhsil alanlara göstərilən nəqliyyat, qidalanma, yaşayış, tibbi və

stomatoloji, və digər köməkçi xidmətlər ilə əlaqədar xidmətlərə rəhbərlik, onların təftişi, idarə edilməsi və ya onlara kömək göstərilməsi;

Daxil deyil: məktəb səhiyyəsi və profilaktika sahəsində nəzarət üzrə xidmətlər (07.4.0); köməkçi xidmətlər göstərilməsi üzrə xərclərin ödənilməsi üçün pul şəklində verilən təqaüdlər, subsidiyalar, kreditlər və müavinətlər [(09.1), (09.2), (09.3), (09.4) və ya (09.5)].

**09.7 Təhsil sahəsində ETTKİ**

Əsaslı və tətbiqi tədqiqatların və təcrübi işlərin tərifləri (01.4) və (01.5) qruplarında verilmişdir.

*09.7.0 Təhsil sahəsində ETTKİ (CS)*

- təhsilə aid edilən tətbiqi tədqiqatlar və təcrübi işlər həyata keçirən dövlət idarələrinə rəhbərlik və onların idarə edilməsi;
- elmi-tədqiqat institutları və universitetləri kimi qeyri-dövlət təşkilatları tərəfindən təhsil sahəsində həyata keçirilən tətbiqi tədqiqatlara və təcrübi işlərə kömək göstərilməsi üçün qaytarılmayan borcların, kreditlərin və ya subsidiyaların verilməsi.

Daxil deyil: əsaslı tədqiqatlar (01.4.0).

**09.8 Digər kateqoriyalara daxil edilməyən təhsil məsələləri**

*09.8.0 Digər kateqoriyalara daxil edilməyən təhsil məsələləri (CS)*

- təhsil sahəsində ümumi siyasətin, planların, proqramların və büdcələrin işlənib hazırlanması, onların idarə edilməsi, əlaqələndirilməsi və həyata keçirilməsinə nəzarət kimi fəaliyyət növlərinə rəhbərlik, onların idarə edilməsi və onlara kömək göstərilməsi; təhsil sahəsində xidmətlərin göstərilməsi ilə əlaqədar qanunların və standartların işlənib hazırlanması və onlara əməl olunmasının təmin edilməsi; təhsil üzrə ümumi xarakterli məlumatların, texniki sənədlərin hazırlanması, yayılması və statistik məlumatların yığılması.

Daxildir: (08.1), (08.2), (08.3), (08.4) və (08.5) qruplarına aid edilməyən təhsil sahəsində fəaliyyət və xidmətlər.

## 10 SOSİAL MÜDAFİƏ

Dövlət tərəfindən sosial müdafiəyə çəkilən xərclər fərdi əsaslarda ayrı-ayrı şəxslərə və ev təsərrüfatlarına göstərilən xidmətlər və transferlərə çəkilən xərcləri və kollektiv əsaslarda göstərilən xidmətlərə çəkilən xərcləri özündə birləşdirir. Fərdi xidmətlər və transferlərə çəkilən xərclər (10.1)-(10.7) qruplarına; kollektiv xidmətlərə çəkilən xərclər (10.8) və (10.9) qruplarına aid edilmişdir.

Sosial müdafiə sahəsində kollektiv xidmətlər Dövlət siyasətinin müəyyənləşdirilməsi və onun həyata keçirilməsinə rəhbərlik; sosial müdafiə sahəsində qanunlar və standartların işlənib hazırlanması və onlara əməl edilməsinin təminatı; sosial müdafiə məsələləri və bununla bağlı xidmətlərlə əlaqədar əsaslı tədqiqatlar və təcrübi işlər kimi fəaliyyətləri özündə birləşdirir.

Sosial müdafiənin funksiyaları və onların müəyyən edilməsi Avropa Birliyinin Statistika bürosunun (AVROSTAT) sosial müdafiə sahəsində birləşmiş statistik məlumatların Avropa sisteminə (ESSPROS) əsaslanır.

ESSPROS-də sosial müdafiə səhiyyə ilə əlaqədar məsələləri özündə cəmləşdirir, lakin bu bölmə səhiyyə məsələlərini əhatə etmir. Səhiyyə ilə bağlı məsələlər 07-ci bölmədə verilmişdir. Deməli, (10.1)-(10.7) qruplarında göstərilmiş pul və natura formasında müavinətlər alan şəxslərə verilən tibbi məmulatlar və göstərilən tibbi xidmətlər müvafiq olaraq (07.1), (07.2) və ya (07.3) qruplara aid edilmişdir.

### 10.1 Xəstəliklər və əmək qabiliyyətini itirmə

*10.1.1 Xəstəliklər (IS)*

- pul və ya natural formada verilən, xəstəlik və ya zədələnmə nəticəsində əmək qabiliyyətinin müvəqqəti itirilmə dövründə məhrum olunmuş gəlirlərin tamamilə və ya bir hissəsini ödəyən müavinətlər şəklində sosial müdafiənin təmin edilməsi;

- belə sosial müdafiə proqramlarına rəhbərlik, onların idarə edilməsi və ya onlara kömək göstərilməsi;
- müvəqqəti əmək qabiliyyətinin itirilməsi (xəstəliklər) üzrə aylıq məvacib həcmində və ya qazanca mütənasib şəkildə verilən müavinətlər, xəstəlik və ya zədələnmə nəticəsində əmək qabiliyyətini müvəqqəti itirmiş şəxslərə yardım edilməsi üçün nəzərdə tutulan müxtəlif ödəmələr kimi pul müavinətləri;
- xəstəlik və ya zədələnmə nəticəsində əmək qabiliyyətini müvəqqəti itirmiş şəxslərə gündəlik yardım edilməsi (ev üzrə kömək, nəqliyyat vasitələrinin verilməsi və s.) kimi natural formada müavinətlər.

*10.1.2 Əmək qabiliyyətətini itirmə (IS)*

- daimi və ya müəyyən edilmiş minimal dövrü üstələyən vaxt ərzində davam edən fiziki və ya əqli çatışmazlıqlar nəticəsində tamamilə və ya qismən iqtisadi fəaliyyət göstərə bilməyən və ya normal həyat tərzi sürə bilməyən şəxslərə pul və ya natural formada verilən müavinətlər şəklində sosial müdafiənin təqdim edilməsi;
- belə sosial müdafiə proqramlarına rəhbərlik, onların idarə edilməsi və ya onlara kömək göstərilməsi;
- fiziki və ya əqli çatışmazlıqlardan əziyyət çəkən və bunun nəticəsində əmək qabiliyyətini itirmiş, lakin müəyyən edilmiş təqaüd yaşına çatmamış şəxslərə əlilliyə görə verilən təqaüdlər, əmək qabiliyyətinin aşağı düşməsi nəticəsində müəyyən edilmiş təqaüd yaşından əvvəl təqaüdə çıxmış yaşlı şəxslərə verilən vaxtından əvvəl təqaüdə çıxmaqla əlaqədar mavinətlər, qulluq edilmə üzrə müavinətlər, imkanlarına uyğunlaşdırılmış əmək fəaliyyəti göstərən və ya peşə hazırlığı keçən əlillərə verilən müavinətlər, sosial müdafiə xətti ilə əmək qabiliyyətini itirmiş şəxslərə digər müntəzəm və ya birdəfəlik ödəmələr kimi pul müavinətləri;
- əmək qabiliyyətini itirmiş şəxslərin yaşayış yerləri və ola bilər ki, müvafiq müəssisələrdə qidalanma ilə təmin edilməsi, əmək qabiliyyətinin itirmiş şəxslərə gündəlik yardım göstərilməsi (ev üzrə kömək, nəqliyyat vasitələrinin verilməsi və s.), qocalara qulluq edən şəxslərə verilən müavinətlər, qocaların peşə və sosial baxımdan reabilitasiyasına yardım edilməsi məqsədi ilə onların texniki-peşə və digər tədrisinin təmin edilməsi, əmək qabiliyyətini itirmiş şəxslərə boş vaxtın keçirilməsi üzrə və

mədəni tədbirlərdə iştirak etmək, səyahət etmək və ya cəmiyyətin həyatında iştirak etmək imkanı yaratmaq məqsədi ilə təqdim edilən müxtəlif xidmət və əmtəələr kimi natural formada müavinətlər.

Daxil deyil: müəyyən edilmiş təqaüd yaşına çatmış əmək qabiliyyətini itirmiş şəxslərə verilən pul və natural formada müavinətlər (10.2.0).

## 10.2 Qocalıq

### *10.2.0 Qocalıq (IS)*

- yaşlılıqla əlaqədar risklərdən (gəlirlərin itirilməsi, yaşayış üçün çatışmayan gəlirlər, özünə sərbəst xidmət etmək imkanının itirilməsi, sosial və ictimai həyatda iştirak səviyyəsinin aşağı düşməsi və s.) qorunmaq üçün pul və ya natural formada verilən müavinətlər şəklində sosial müdafiənin təqdim edilməsi;
- sosial müdafiə və ya yardım proqramlarına rəhbərlik, onların idarə edilməsi və ya onlara kömək göstərilməsi;
- müəyyən edilmiş pensiya yaşına çatmış şəxslərə qocalığa görə verilən pensiya, müəyyən edilmiş pensiya yaşına çatmamış yaşlı şəxslərə qocalığa görə vaxtından əvvəl verilən pensiyalar, müəyyən edilmiş pensiya yaşına həm çatmış, həm də çatmamış, əmək fəaliyyətini davam etdirən, lakin iş saatları azaldılmış şəxslərə verilən qismən ödənilən pensiyalar, qocalara qulluq üzrə müavinətlər, pensiyaya çıxdıqdan sonra və ya qocalıqla əlaqədar verilən digər müntəzəm və ya birdəfəlik ödəmələr kimi pul müavinətləri;
- xüsusiləşdirilmiş müəssisələrdə tək və ya ailələri ilə birlikdə yaşayan qocaların yaşayış yerləri və hərdən qida ilə təmin edilməsi, qocalara gündəlik yardım göstərilməsi (ev üzrə kömək, nəqliyyat vasitələrinin verilməsi və s.), qocalara qulluq edən şəxslərə verilən müavinətlər, qocalara boş vaxtın keçirilməsi üzrə və mədəni tədbirlərdə iştirak etmək, səyahət etmək və ya cəmiyyətin həyatında iştirak etmək imkanı yaratmaq məqsədi ilə təqdim edilən müxtəlif xidmət və əmtəələr kimi natural formada müavinətlər.

Daxildir: hərbi qulluqçuların və dövlət xidmətçilərinin pensiya təminatı proqramları.

Daxil deyil: müəyyən edilmiş pensiya yaşından qabaq əmək qabiliyyətinin itirilməsi nəticəsində yaşlı şəxslərin vaxtından qabaq pensiyaya çıxması ilə (10.1.2) və ya işsizliklə (10.5.0) əlaqədar müavinətlərin verilməsi.

## 10.3 Ailə başçısını itirmiş öhdədə olanlar

*10.3.0 Ailə başçısını itirmiş öhdədə olanlar (IS)*

- ailə başçısının ölümü zamanı öhdədə olanlara (məsələn, həyat yoldaşına, uşaqlara, nəvələrə, valideynlərə və digər qohumlara) pul və ya natural formada verilən müavinətlər şəklində sosial müdafiənin təqdim edilməsi;
- belə sosial müdafiə proqramlarına rəhbərlik, onların idarə edilməsi və ya onlara kömək göstərilməsi;
- ailə başçısından məhrum olmuş öhdədə olanlara verilən ailə başçısının itirilməsinə görə müavinətlər, dəfn xərci və digər müntəzəm və ya birdəfəlik ödəmələr kimi pul müavinətləri;
- dəfn mərasimi xərclərinin bir hissəsinin ödənilməsi, ailə başçısından məhrum olmuş öhdədə olanlara cəmiyyətin həyatında iştirak etmək imkanı yaratmaq məqsədi ilə təqdim edilən müxtəlif xidmət və əmtəələr kimi natural formada müavinətlər.

## 10.4 Ailə və uşaqlar

*10.4.0 Ailə və uşaqlar (IS)*

- öhdələrində uşaqlar olan ev təsərrüfatlarına pul və ya natural formada verilən müavinətlər şəklində sosial müdafiənin təqdim edilməsi;
- belə sosial müdafiə proqramlarına rəhbərlik, onların idarə edilməsi və ya onlara kömək göstərilməsi;
- uşağın dünyaya gəlməsi ilə əlaqədar müavinətlər, uşaq doğulmasına görə mükafatlar, haqqı ödənilməklə valideynliyə görə məzuniyyət, ailə müavinətləri və ya uşaqlara görə müavinətlər, ev təsərrüfatlarına kömək göstərilməsi və onlara konkret ehtiyacların ödənilməsi üçün yardım (məsələn, bir valideyni olan və ya əqli və ya fiziki çatızmazlıqlı uşağı olan ailələrə yardım) məqsədi ilə digər müntəzəm və ya birdəfəlik ödəmələr kimi pul müavinətləri;
- bütün gün və ya onun bir hissəsi ərzində məktəbəqədər yaşlı uşaqların yer və qida ilə təminatı, gün ərzində uşaqlara

qulluq edən dayənin məvacibinin ödənilməsi məqsədi ilə verilən maliyyə yardımı, daimi əsasda uşaqların və ailələrin yaşayış yerləri və qida (uşaq evləri, övladlığa götürən ailələr və s.) ilə təminatı, uşaqlara və ya onlara qayğı göstərən şəxslərə evdə təqdim edilən əmtəə və xidmətlər, ailələrə, gənclərə və ya uşaqlara təqdim edilən müxtəlif xidmətlər və əmtəələr (uşaq düşərgələri və boş vaxtın keçirilməsi üzrə mərkəzlər) kimi natural formada müavinətlər.

Daxil deyil: ailə planlaşdırılması üzrə xidmətlər (07.4.0).

**10.5 İşsizlik**

*10.5.0 İşsizlik (IS)*

- əmək qabiliyyəti olan, işə hazır olan, lakin müvafiq iş tapa bilməyən şəxslərə pul və ya natural formada verilən müavinətlər şəklində sosial müdafiənin təqdim edilməsi;
- belə sosial müdafiə proqramlarına rəhbərlik, onların idarə edilməsi və ya onlara kömək göstərilməsi;
- işsizliyə görə tam və ya natamam müavinətlər, işsizlik və ya ştatların iqtisadi tədbirlərdən qarşıya çıxan ixtisarı nəticəsində müəyyən edilmiş təqaüd yaşına çatmamışdan əvvəl təqaüdə çıxmış yaşlı şəxslərə vaxtından əvvəl təqaüdə çıxmaqla əlaqədar verilən müavinətlər, işə düzəlmə imkanlarının genişləndirilməsinə xidmət edən peşə təkmilləşdirilməsi proqramlarında iştirak edən işçilərin bu və ya digər qruplarına verilən məqsədli müavinətlər, ştatların ixtisarı üzrə işdən azad edilmə zamanı verilən kompensasiyalar, işsizlərə, xüsusən də uzun müddət ərzində işsiz olan şəxslərə digər müntəzəm və ya birdəfəlik ödəmələr kimi pul müavinətləri;
- çevikliyin və köçmə qabiliyyətinin artırılması üçün ödəmələr, işsizlər üçün peşə hazırlığı tədrisinin və ya iş yerlərini itirmək qorxusu olan şəxslər üçün yenidən hazırlığın təşkili, işsizlərə və onların ailələrinə sığınacaqlar, ərzaq məhsullarının və geyimin verilməsi kimi natural formada müavinətlər.

Daxil deyil: işçi qüvvəsinin çevikliyinin artırılmasına, işsizlik səviyyəsinin aşağı salınmasına və ya məzlum insanların və ya işsizlik səviyyəsinin yüksək olması xarakterik olan digər qrupların məşğul olması üçün kömək göstərilməsinə

istiqamətlənən ümumi proqramlar və ya planlar (04.1.2); müəyyən edilmiş təqaüd yaşına çatmış işsizlərə verilən pul və natural formada müavinətlər (10.2.0).

## 10.6 Yaşayış yeri

*10.6.0 Yaşayış yeri (IS)*

- yaşayış yerləri üçün olan xərclərin ödənilməsində ev təsərrüfatlarına natural formada verilən müavinətlər (bu müavinətləri alanların həmin müavinətlərə ehtiyacı olması yoxlanılmalıdır) şəklində sosial müdafiənin təqdim edilməsi;
- belə sosial müdafiə proqramlarına rəhbərlik, onların idarə edilməsi və ya onlara kömək göstərilməsi;
- icarəyə götürülmüş yaşayış yerlərinin haqqının ödənilməsinə yardım məqsədi ilə qısa və ya uzunmüddətli ödənişlər, evlərin və ya mənzillərin orada yaşayan sahiblərinin cari xərclərinin bir hissəsinin kompensasiyası üçün (yəni onlara girov qoyduqları evlərə və ya mənzillərə görə alınmış borcların qaytarılmasında və ya bu borcların faizlərinin ödənilməsində yardım edilməsi üçün) olan ödənişlər, ucuz və ya bələdiyyələr tərəfindən subsidiyalanan yaşayış yerləri ilə təminat.

## 10.7 Digər kateqoriyalara daxil edilməyən sosial acizlik məsələləri

*10.7.0 Digər kateqoriyalara daxil edilməyən sosial acizlik məsələləri (IS)*

- sosial baxımdan cəmiyyətdən uzaqlaşmış şəxslərə və ya belə uzaqlaşma qorxusu olan şəxslərə (məsələn, yoxsullara, aşağı səviyyəli gəlirləri olanlara, mühacirlərə, yerli xalqların nümayəndələrinə, qaçqınlara, əyyaşlara və narkomanlara, zorakılığa məruz qalanlara və s.) pul və ya natural formada verilən müavinətlər şəklində sosial müdafiənin təqdim edilməsi;
- belə sosial müdafiə proqramlarına rəhbərlik, onların idarə edilməsi və ya onlara kömək göstərilməsi;
- yoxsulluq üzrə müavinətlər (gəlirlərin saxlanılması) və yoxsulların və məzlumların yoxsulluq vəziyyətlərini yüngülləşdirmək və ya çətin vaxtlarında kömək etmək

məqsədi ilə onlara verilən digər ödəmələr kimi pul müavinətləri;
- yoxsul və məzlum şəxşlərə qısa və ya uzunmüddətli sığınacaq və qida verilməsi, əyyaş və narkomanların reabilitasiyası, məzlum şəxslərə hüquqi məsləhətlər, gündüz vaxtı sığınacaq, ev üzrə kömək, ərzaq məhsulları, geyim, yanacaq və s. verilməsi kimi natural formada müavinətlər.

## 10.8 Sosial müdafiə sahəsində ETTKİ

Əsaslı və tətbiqi tədqiqatların və təcrübi işlərin tərifləri (01.4) və (01.5) qruplarında verilmişdir.

### *10.8.0 Sosial müdafiə sahəsində ETTKİ (CS)*

- sosial müdafiə sahəsində tətbiqi tədqiqatlar və təcrübi işlər həyata keçirən dövlət idarələrinə rəhbərlik və onların idarə edilməsi;
- elmi-tədqiqat institutları və universitetləri kimi qeyri-dövlət təşkilatları tərəfindən sosial müdafiə sahəsində həyata keçirilən tətbiqi tədqiqatlara və təcrübi işlərə kömək göstərilməsi üçün qaytarılmayan borcların, kreditlərin və subsidiyaların verilməsi.

Daxil deyil: əsaslı tədqiqatlar (01.4.0).

## 10.9 Digər kateqoriyalara daxil edilməyən sosial müdafiə məsələləri

### *10.9.0 Digər kateqoriyalara daxil edilməyən sosial müdafiə məsələləri (CS)*

- sosial müdafiə sahəsində ümumi siyasətin, planların, proqramların və büdcələrin işlənib hazırlanması, onların idarə edilməsi, əlaqələndirilməsi və həyata keçirilməsinə nəzarət kimi fəaliyyət növlərinə rəhbərlik, onların idarə edilməsi və onlara kömək göstərilməsi; sosial müdafiə sahəsində qanunların və standartların işlənib hazırlanması və onlara əməl olunmasının təmin edilməsi; sosial müdafiə üzrə ümumi xarakterli məlumatların, texniki sənədlərin hazırlanması, yayılması və statistik məlumatların yığılması.

Daxildir: yanğından, daşqınlardan, zəlzələlərdən və sülh zamanı baş verən digər bədbəxtçiliklərdən zərər çəkənlərə pul və ya natural formada verilən müavinətlər şəklində sosial müdafiənin təqdim edilməsi; sülh vaxtı yaranan fovqəladə vəziyyətlərdə istifadə edilməsi məqsədi ilə ərzağın, avadanlıqların və digər resursların alınması və saxlanılması; (10.1), (10.2), (10.3), (10.4), (10.5), (10.6), (10.7) və (10.8) qruplarına aid edilməyən sosial müdafiə sahəsində digər fəaliyyət və xidmətlər.

**Dördüncü hissə**

# EV TƏSƏRRÜFATLARINA XİDMƏT GÖSTƏRƏN QEYRİ-KOMMERSİYA TƏŞKİLATLARININ MƏQSƏDLƏR ÜZRƏ TƏSNİFATI

# (QTMT)

# Ev təsərrüfatlarına xidmət göstərən qeyri-kommersiya təşkilatlarının məqsədlər üzrə təsnifatı

Bölmələr

**01** **Mənzil xidmətləri**

**02** **Səhiyyə**

**03** **İstirahət və mədəniyyət**

**04** **Təhsil**

**05** **Sosial müdafiə**

**06** **Din**

**07** **Siyasi partiyalar, həmkarlar və peşə təşkilatları**

**08** **Ətraf mühitin mühafizəsi**

**09** **Digər kateqoriyalara daxil edilməyən xidmətlər**

# Ev təsərrüfatlarına xidmət göstərən qeyri-kommersiya təşkilatlarının məqsədlər üzrə təsnifatı

Bölmələr və qruplar üzrə bölünmə

**01 Mənzil xidmətləri**

01.0 Mənzil xidmətləri

**02 Səhiyyə**

02.1 Dərman, avadanlıq və cihazlar

02.2 Ambulator xidmətləri

02.3 Xəstəxanaların xidmətləri

02.4 Səhiyyə sahəsində xidmətlər

02.5 Səhiyyə sahəsində ETTKİ

02.6 Səhiyyə sahəsində digər xidmətlər

**03 İstirahət və mədəniyyət**

03.1 İstirahətin və idmanla məşğuliyyətin təşkili üzrə xidmətlər

03.2 Mədəni tədbirlərin təşkili üzrə xidmətlər

**04 Təhsil**

04.1 Məktəbəqədər və ibtidai təhsil

04.2 Orta təhsil

04.3 Uzadılmış orta təhsil

04.4 Ali təhsil

04.5 Pillələrə bölünməyən təhsil

04.6 Təhsil sahəsində ETTKİ

04.7 Təhsil sahəsində digər xidmətlər

**05 Sosial müdafiə**

05.1 Sosial müdafiə sahəsində xidmətlər

05.2 Sosial müdafiə sahəsində ETTKİ

**06 Din**

06.0 Din

**07 Siyasi partiyalar, həmkarlar və peşə təşkilatları**

07.1 Siyasi partiyaların xidmətləri

07.2 Həmkarlar təşkilatlarının xidmətləri

07.3 Peşə təşkilatlarının xidmətləri

**08 Ətraf mühitin mühafizəsi**

08.1 Ətraf mühit sahəsindəki xidmətlər

08.2 Ətraf mühit sahəsindəki ETTKİ

**09 Digər kateqoriyalara daxil edilməyən xidmətlər**

09.1 Digər kateqoriyalara aid edilməyən xidmətlər

09.2 Digər kateqoriyalara aid edilməyən, xidmət sahəsində ETTKİ

# Ev təsərrüfatlarına xidmət göstərən qeyri- kommersiya təşkilatlarının məqsədlər üzrə təsnifatı

Altqruplar üzrə bölünmə

**01 MƏNZIL XİDMƏTLƏRİ**

**01.0 Mənzil xidmətləri**

*01.0.0 Mənzil xidmətləri*

Bu altqrup aşağıdakı ETXQT-nı özündə birləşdirir:

- mənzillərin tikintisini, inkişafını, idarəedilməsini, kirayəsini, maliyyələşdirilməsini, təmirini və yenidən qurulmasını həyata keçirən təşkilatları.

**02 SƏHİYYƏ**

Bu bölmə aşağıdakı ev təsərrüfatlarına xidmət göstərən qeyri-kommersiya təşkilatlarını özündə birləşdirir:

- ümumi təyinatlı və ixtisaslaşdırılmış xəstəxanaları, sağalmaqda olanlar üçün sanatoriya və xəstələr evlərini, tibbi mərkəzləri və doğum evlərini, müalicə olunmayan xəstələr üçün xospisləri;
- tibb məntəqələrini, klinikaları, vaksinasiya məntəqələrini və dispanserləri;
- xəstələrə uzun müddət kömək göstərilməsilə deyil, onları müalicə edən bərpa mərkəzlərini;
- təxirəsalınmayan tibbi xidmət göstərən təcili yardım və paratibbi personalların könüllü təşkilatlarını;
- səhiyyənin inkişafına və sanitar maarifçiliyinə yardım göstərən təşkilatları;
- öz ölkələrində və yaxud başqa ölkədə müharibə, aclıq və təbii fəlakət qurbanları olan şəxslərə tibbi xidmət göstərən təşkilatları;
- tibb və səhiyyə sahəsində elmi tədqiqatlarla məşğul olan təşkilatları və bu sahəni maliyyələşdirən məqsədli fondları, yaxud xeyriyyə təşkilatlarını;
- xəstəxanaları, sanatoriyaları, tibb məntəqələrini və s., həmçinin xəstələrə maliyyə köməyi göstərən xeyriyyə fondlarını.

Daxildir: həmçinin dini təşkilatlar tərəfindən maliyyələşdirilən xəstəxanalar, sanatoriyalar, tibb məntəqələri və s.

Daxil deyil: əlillər və qocalar evləri (05.1.0); kimsəsizlər üçün sığınacaqlar(05.1.0)

**02.1 Tibbi ləvazimat, avadanlıq və cihazlar**

Bu qrup ayrı-ayrı şəxslər və ya ev təsərrüfatları tərəfindən apteklərdən, əczaçılıq firmalarından, və ya tibb avadanlığı daşıyıcılarından reseptlə və ya reseptsiz əldə edilən tibbi ləvazimatı, protezləri, tibb avadanlıqlarını, cihazları və digər tibb təyinatlı məhsulları əhatə edir. Bu məhsullar qeyri-tibb mərkəzlərində və təşkilatlarında istifadə üçün nəzərdə tutulub. Məmulatlar bilavasitə ambulator xidmətləri (02.2) və ya xəstəxana xidmətlərinə (02.3) aid edilən ambulator xəstələrə tibbi, diş həkimləri və paratibbi personal və ya stasionar xəstələrə xəstəxanada və analoji təşkilatlarda verilir.

*02.1.1 Əczaçılıq məhsulları*

- Tibb avadanlığı, dərman vasitələri, patentləşdirilmiş dərman avadanlığı, zərdab və vaksinlər, vitamin və mineral maddələr, treska və ya paltus qaraciyərindən balıq piyi kimi əczaçılıq məhsulları ilə təmin etmək.

*02.1.2 Digər tibbi təyinatlı məhsullar*

- Tibb termometrləri, leykoplastırlar və adi sarğı materialları, şprislər, ilk yardım çantaları, buz üçün qrelka və kisələr, müalicəvi corab materialları, hamiləlik testləri, prezervativlər və digər mexaniki qorunma vasitələri kimi tibbi təyinatlı məhsullarla təmin etmək.

*02.1.3 Müalicə avadanlığı və cihazları*

- Düzəltmə linzalar, kontakt linzaları, eşitmə cihazları, göz protezləri, digər sünii protez qurğuları, ortopedik cihazlar və ortopedik ayaqqabı, cərrahiyyə bandajları, qrıja bandajları və korsetləri, boyun korsetləri, tibb masajı üçün avadanlıq və fizioterapiya lampaları, mexaniki və qeyri-mexaniki əlil kresloları, xüsusi kreslo-çarpayılar, qoltuqağacları, qan təzyiqini ölçmək üçün elektron və digər qurğular.

Daxildir: protezin qoyulma xərcini saymadan diş protezlərinə çəkilən xərclər; müalicə avadanlığı və cihazlarının təmiri.

Daxil deyil: müalicə avadanlığının kirayəsi (02.2.3)

**02.2 Ambulator xidmətləri**

Bu qrup təcrübə keçən həkimlər, diş həkimləri, paratibbi personal və onların köməkçiləri tərəfindən ambulator xəstələrinə göstərilən tibbi, stomatoloji və paratibbi xidmətləri əhatə edir. Bu xidmətlər evdə, fərdi qaydada və ya qrup şəklində tibb məsləhətxanalarında, dispanserlərdə və ya xəstəxana yanında göstərilə bilər.

Ambulator xəidmətləri təcrübə keçən həkimlər, diş həkimləri və paratibbi personal və onların köməkçiləri tərəfindən, bilavasitə ambulator xəstələrinə təqdim edilən dərman, protez, tibb avadanlığı, tibb cihazları və digər tibbi təyinatlı məhsulları özündə birləşdirir.

Xəstəxanalar və analoji təşkilatlar tərəfindən stasionar xəstələrinə göstərilən tibbi, stomatoloji və paratibbi xidmətlər, xəstəxanaların xidmətinə daxil edilmişdir.

*02.2.1 Tibbi xidmətlər*

- Ümumi profilli həkimlər və mütəxəssislər tərəfindən göstərilən tibbi xidmətlər.

Daxildir*:* stomatoloq-ortodontların xidmətləri.

Daxil deyil*:* tibbi xidmət laboratoriyalarının və rentgen kabinetlərinin (02.2.3) xidmətləri; ənənəvi tibb sahəsində mütəxəssislərin xidmətləri (02.2.3)

*02.2.2 Stomatoloji xidmətlər*

- Ağız boşluğu gigiyenası sahəsində diş həkimləri, mütəxəssislər və digər diş müalicəsi sahəsində yardımçı personal tərəfindən göstərilən stomatoloji xidmətlər.

Daxildir: Diş protezlərinin qoyulması xərcləri.

Daxil deyil: diş protezləri (02.1.3); stomatoloq-ortodontların (02.2.1) xidmətləri; tibbi – tədqiqat laboratoriyaları və rentgen kabinetlərinin xidmətləri (02.2.3).

*02.2.3 Paratibbi xidmətlər*

- Aşağıdakılar kimi paratibbi xidmətlərin göstərilməsi:

  - tibbi-tədqiqat laboratoriyalarının və rentgen kabinetlərinin xidmətləri;
  - tibb bacılarının və mamaların xidmətləri;
  - akupunktura, xirotəcrübə, optometrist, fizioterapeya sahəsində mütəxəssislər tərəfindən göstərilən xidmətlər;
  - həkim tərəfindən yazılmış, korrektə edən müalicəvi gimnastika;
  - dəniz suyu ilə müalicə də daxil olmaqla, ambulator balneoloji müalicə;
  - xəstəxanaya aid olmayan, təcili yardım xidmətləri;
  - müalicə avadanlığı kirayəsi.

Daxildir: ənənəvi səhiyyə sahəsində mütəxəssislərin xidmətləri.

Daxil deyil: səhiyyə sahəsində göstərilən xidmətlərlə bağlı laboratoriyalar (02.4.0); diaqnostika laboratoriyaları (02.5.0).

**02.3 Xəstəxana xidmətləri**

Xəstəxanada yerləşdirmək, xəstəni bütün müalicə dövründə müvafiq yerdə yerləşdirmək kimi müəyyən edilir. Bura gündüz stasionarlarında müalicə, stasionar kimi evlərdə müalicə və müalicəolunmaz xəstələr üçün xospislər daxil edilir.

Bu qrup ümumi profilli xəstəxanaları və ixtisaslaşmış xəstəxanaları əhatə edir; birinci növbədə stasionar xəstələrə xidmət göstərən tibb mərkəzlərinin, doğum evlərinin, sağalanlar üçün sanatoriyaların və evlərin xidmətləri; əsas elementi tibbi müşahidə olan, yaşlı insanlara xidmət göstərən təşkilatların xidmətlərini; vəzifələrinə təkcə xəstələrə uzunmüddətli dəstək deyil, müalicə də daxil olan terapiyanın bərpası və stasionar tibbi yardım göstərilməsi ilə məşğul olan reabilitasiya mərkəzlərinin xidmətləri;

Xəstəxanalar yüksək ixtisaslı həkimlərin bilavasitə nəzarəti altında stasionar xəstələrin müalicəsi üçün nəzərdə tutulmuş təşkilat kimi

müəyyən edilir. Tibb mərkəzləri, doğum evləri, sanatoriyalar və sağalanlar üçün evlər də stasionar müalicəni təmsil edirlər. Lakin bu halda xidməti həkimlərin ixtisaslaşmasından aşağı işçilər həyata keçirirlər.

Bu qrup ambulator yardımı (02.2) göstərmək üçün nəzərdə tutulmuş poliklinikaları, dispanserləri əhatə etmir. Bu qrupa həmçinin qocalar evi, uzunmüddətli dəstək verilən (05.1) əlillər üçün ixtisaslaşmış reabilitasiya mərkəzləri də daxil deyil.

*02.3.0 Xəstəxanaların xidməti*

- stasionar xəstələrə aşağıdakı xidmətlərin göstərilməsi:
  - əsas xidmətlər: idarəetmə; yemək və içməklə təminat; yardımçı personal (yardımçı orta tibbi personal) tərəfindən qulluq və nəzarət; ilk tibbi yardımın göstərilməsi və reanimasiya; sanitar-nəqliyyat vasitələri; dərman və digər əczaçılıq məhsulları ilə təminat; müalicə avadanlığı və cihazları ilə təminat;
  - tibb xidmətləri: ümumi profilli həkimlər və ya mütəxəssislərin, cərrahların və diş həkimlərinin xidmətləri; tibb analizləri və rentgen tədqiqatları; tibb bacılarının, mamaların, xiroraktiklərin, optometristlərin, fizioterapevtlərin paratibbi xidmətləri.

## 02.4 Səhiyyə sahəsində xidmətlər

*02.4.0 Səhiyyə sahəsində xidmətlər*

- Səhiyyədə əhalinin sağlamlığının qorunması məsələləri üzrə məlumatların işlənməsi və yayılması, ailə planlaşdırılması üzrə xidmətlər, qan bankının yaradılması (qanın qəbulu, işlənməsi, saxlanması, köçürülməsi), diaqnostika (xərçəng, vərəm, zöhrəvi xəstəliklərin diaqnostikası), profilaktika (vaksinləmə, immuniləşdirmə), nəzarətin həyata keçirilməsi (uşaq qidası, uşaqların sağlamlığının qorunması), epidemioloji vəziyyət haqqında məlumatın toplanması sahəsində və s. xidmətlərin göstərilməsi.

Daxildir: səhiyyə sahəsində xüsusi briqadalar tərəfindən iş yerlərində, məktəblərdə və digər qeyri - tibbi yerlərdə göstərilən xidmətlər; Səhiyyə sahəsində xəstəxana, klinika və ya təcrübə keçən həkimlərlə bağlı olmayan xidmətlər; səhiyyə sahəsində həkim olmayanlar tərəfindən göstərilən xidmətlər.

Daxil deyil: tibbi tədqiqat laboratoriyaları (02.2.3); diaqnostika laboratoriyaları (02.5.0)

**02.5 Səhiyyə sahəsində ETTKİ**

*02.5.0 Səhiyyə sahəsində ETTKİ*

- Səhiyyə məsələləri ilə bağlı tətbiqi tədqiqat və eksperimental işləmələr.

**02.6 Səhiyyə sahəsində digər xidmətlər**

*02.6.0 Səhiyyə sahəsində digər xidmətlər*

- Səhiyyə sahəsində (02.1.1)-(02.5.0) altqruplarına aid edilməyən ev təsərrüfatlarına xidmət göstərən qeyri kommersiya təşkilatları tərəfindən göstərilən xidmətlər.

## 03 İSTİRAHƏT VƏ MƏDƏNİYYƏT

**03.1 İstirahətin və idmanla məşğuliyyətin təşkili üzrə xidmətlər**

*03.1.0 İstirahətin və idmanla məşğuliyətin təşkili üzrə xidmətlər*

Bu qrup aşağıdakı ev təsərrüfatlarına xidmət göstərən qeyri kommersiya təşkilatlarını özündə birləşdirir:

- oyun idmanı növləri üzrə məşğul olmaq üçün qapalı və ya açıq havada klublar, fitnes-klubları, yelkən və avar idmanı klubları;
- bütün idman növləri üzrə azarkeşlərin klubları;
- qumar oyunları da daxil olmaqla, stolüstü oyunlar;
- gənc pionerlərin təşkilatı və gənc xristianların ümumdünya alyansı kimi gənclər təşkilatı və klubları;

- piyada turizm, gəzinti, alpinizm, paraşut idmanı, akvalanq üzgüçülüyü və s. kimi aktiv istirahət həvəskarlarının klubları;
- veteranlar klubu kimi ictimai klublar;
- quşların yaşayışını müşahidə edənlərin, həvəskar-entomoloqların, modelçilərin, filatelistlərin, qatarı müşahidə edənlərin, köhnə avtomobil həvəskarlarının, antikvariat kolleksionerlərinin assosiasiyaları;
- heyvanlar üçün sığınacaqlar, veterinar müalicəxanaları və ev heyvanlarına göstərilən veterinar xidmətləri;
- maliyyə vasitələrinin axtarılması və ya idmançıların beynəlxalq yarışlarda iştirakını təmin etmək üçün dəstək göstərən təşkilatlar;

Daxil deyil: vəzifələri vəhşi heyvanları qorumaqdan ibarət olan təşkilatlar (08.1.0).

**03.2 Mədəni tədbirlərin təşkili üzrə xidmətlər**

*03.2.0 Mədəni tədbirlərin təşkili üzrə xidmətlər*

- kitabxanalar, muzeylər və şəkil qalareyaları;
- tarixi, ədəbiyyat, humanist və fəlsəfi cəmiyyətlər;
- opera, balet göstərən xoreoqrafiya kollektivləri, orkestrlər, teatr truppaları, xor və musiqi ansamblları və s;
- foto-, kino- və digər bədii klublar;
- tarixi abidələrin, hərbi qəbiristanlıqların, zooparkların, botanika bağlarının və akvariumların qorunması və saxlanması üzrə assosiasiyalar;
- aktyorların, müğənnilərin, kino ulduzlarının və digər bədii ifaçıların pərəstişkarlarının klubları;
- tele və radioyayım.

Daxil deyil: bu və ya digər alternativ həyat tərzini təbliğ etmənin təşkili (07.1.0).

**04 TƏHSIL**

Bu bölmə aşağıdakı ev təsərrüfatlarına xidmət göstərən qeyri-kommersiya təşkilatlarını özündə birləşdirir:

- məktəbəqədər təşkilat və ibtidai məktəbləri;
- tam orta, orta texniki-peşə və ya texniki təhsil verən orta məktəbləri;
- davamlı orta təhsil verən təşkilatları;

- universitetləri, kollecləri və onlar kimi analoji ali təhsil verən təşkilatları;
- pillələrə bölünməyən təhsil sahəsində proqram həyata keçirən təşkilatları;
- valideyn və müəllimlərin assosiasiyalarını;
- təhsil məsələləri üzrə müxtəlif elmi-tədqiqat fəaliyyəti ilə məşğul olan təşkilatları və bu fəaliyyəti maliyyələşdirmək üçün yaradılan xeyriyyə fondlarını;
- məktəblərə, kollecləra, universitetlərə və s. yardım göstərən və tələbələrə maliyyə yardımı göstərən və təqaüdlər verən xeyriyyə fondlarını.

Daxildir. Fəaliyyətlərinin əsası onların müalicəsi deyil, onlara orta təhsil verilməsindən ibarət olan əlillər üçün xüsusi məktəblər; həmkarlar təşkilatlarının və həmkarlar ittifaqlarının gecə məktəbləri; ruhanilər, kulta qulluq edənlər, rabbinlər və digər din sahəsində mütəxəssis hazırlayan seminar və kolleclər; radio və teleproqramların köməyi ilə əldə edilən təhsil.

Daxil deyil: uşaq bağçaları, körpələr evləri və uşaqlara qulluq üçün nəzərdə tutulmuş digər təşkilatlar (05.1.0); fəaliyyətlərinin əsas məqsədi onlara təhsil verməkdən çox, əlilliyi (05.1.0) aradan qaldırmaqdan ibarət olan xüsusi əlil məktəbləri.

Təhsil sahəsində xidmətlər bölməsi Birləşmiş Millətlər Təşkilatının elm, təhsil və mədəniyyət məsələləri üzrə (UNESKO) Beynəlxalq Standart Təhsil Təsnifatının təhsil pillələri kateqoriyalarına əsasən hazırlanmışdır.

## 04.1 Məktəbəqədər və ibtidai təhsil

*04.1.0 Məktəbəqədər və ibtidai təhsil*

- Pillə 0 və 1 TBST-97: məktəbəqədər və ibtidai təhsil.

Daxildir: ibtidai məktəb kontingentindən yaşca böyüklərə savadlandırma proqramının keçilməsi.

## 04.2 Orta təhsil

*04.2.0 Orta təhsil*

- Pillə 2 və 3 TBST-97: aşağı və yuxarı səviyyəli orta təhsil.

Daxildir: böyüklər və gənclər üçün məktəbdənkənar orta təhsil

**04.3 Uzadılmış orta təhsil**

*04.3.0 Uzadılmış orta təhsil*

- Pillə 4 TBST-97: uzadılmış orta təhsil

Daxildir: böyüklər və gənclər üçün məktəbdənkənar uzadılmış orta təhsil.

**04.4 Ali təhsil**

*04.4.0 Ali təhsil*

- Pillə 5 və 6 TBST-97: ali təhsilin birinci və ikinci pilləsi.

**04.5 *Pillələrə bölünməyən təhsil***

*04.5.0 Pillələrə bölünməyən təhsil*

- böyüklər üçün peşəkar hazırlıq, mədəni inkişaf və xüsusi hazırlıq kursu tələb olunmayan təhsil proqramları.

**04.6 *Təhsil sahəsində ETTKİ***

*04.6.0 Təhsil sahəsində ETTKİ*

- təhsil mövzusu ilə bağlı tətbiqi tədqiqatlar və eksperimental işlər.

**04.7 Təhsil sahəsində digər xidmətlər**

*04.7.0 Təhsil sahəsində digər xidmətlər*

- təhsil sahəsində (04.1.1)-(04.6.0) qruplarına aid edilməyən və ev təsərrüfatlarına xidmət göstərən qeyri-kommersiya təşkilatları tərəfindən göstərilən xidmətlər

**05 SOSİAL MÜDAFIƏ**

Burada müəyyənləşdirildiyi kimi, sosial müdafiə aşağıdakı şəxslərə kömək və dəstək göstərir: qocalara, əlillərə, istehsal zədəsi və peşə xəstəliyi almış şəxslərə, himayədə olanlara, işsizlərə, evsizlərə, az gəlirli şəxslərə, yerli xalqlara, immiqrantlara, qaçqınlara, alkoqoliklərə və narkomanlara. Bu qrup həmçinin ailələrə və uşaqlara kömək və yardımını da əhatə edir.

**05.1 Sosial müdafiə sahəsində xidmətlər**

*05.1.0 Sosial müdafiə sahəsində xidmətlər*

Bu qrup aşağıdakı ev təsərrüfatlarına xidmət göstərən qeyri-kommersiya təşkilatlarını özündə birləşdirir:

- qocalar, əlillər evlərini, məqsədlərinin əsasını tibbi yardım və müalicədən çox uzunmüddətli dəstək təşkil edən reabilitasiya mərkəzlərini, əlillər üçün əlilliyin qarşısını almaq məqsədi ilə yaradılmış xüsusi məktəbləri;
- mənzillərin təmizlənməsi, isti xörəklə təminat, gündüz mərkəzlərinin işinin təmin edilməsi, gündüz və bayram günləri qulluq, qocalara və əlillərə nəqliyyat xidmətləri üzrə xidmətlər göstərən təşkilatları;
- uşaqlara qulluq üçün nəzərdə tutulmuş yetimlər, körpələr evlərini, uşaq otaqlarını, gündüz mərkəzlərini və digər təşkilatları;
- ailələrə məsləhətlər vermə, əlaqələndirmə, mübahisələrin həll edilməsi, uşaqları oğulluğa və yaxud qızlığa götürmə üzrə xidmətlər göstərən təşkilatları;
- tək qalmış valideyinlərə yardım göstərən xidmətlər və təşkilatları, ailədə təcavüzə məruz qalmışlar üçün sığınacaqları;
- təbii və s. fəlakətdən zərər çəkmiş, hücuma və qəddar rəftara məruz qalmış və intihar etmək istəyində olan şəxslərə məsləhətlər verən təşkilatları;
- evsizlərə müvəqqəti ev və sığınacaqlar verən təşkilatları;
- qumar oyunları oynayanlar, alkoqoliklər və narkomanlara uzunmüddətli kömək göstərən təşkilatları;
- qaçqınlara, immiqrantlara və aztəminatlı şəxslərə pul, ərzaq, geyim, müvəqqəti mənzil və s. kömək göstərən təşkilatları;
- həbsxanaları ziyarət və sosial reabilitasiya da daxil edilməklə, həbsxanalarda şəraitin yaxşılaşdırılmasına çalışan təşkilatları;
- öz ölkəsində və digər ölkələrdə evsiz - eşiksiz insanlara sosial-iqtisadi inkişaf üçün şərait yaratmağa çalışan təşkilatları.

## 05.2 Sosial müdafiə sahəsində ETTKİ

*05.2.0 Sosial müdafiə sahəsində ETTKİ*

Bu qrup aşağıdakı ev təsərrüfatlarına xidmət göstərən qeyri-kommersiya təşkilatlarını özündə birləşdirir:

- Sosial müdafiə və bu fəaliyyətləri maliyyələşdirən xeyriyyə fondları ilə bağlı, tətbiqi tədqiqatlar və eksperimental işlərlə məşğul olan təşkilatları.

## 06 DİN

## 06.0 Din

*06.0.0 Din*

Bu qrup aşağıdakı ev təsərrüfatlarına xidmət göstərən qeyri-kommersiya təşkilatlarını özündə birləşdirir:

- dinə inamı yaymaqla, dini xidmət aparmaqla, dini mərasimlər keçirməklə, sitayiş etmək, dini təhsil almaq və dini mərasimlər keçirməyə yer və şərait yaratmaqla məşğul olan təşkilatları;
- məscidlər, mədrəsələr, kilsələr, qadın monastr məktəbləri, qadın və kişi monastrları, sinaqoqlar, müqəddəslərə sitayiş yerlərini və s.

Daxildir: qeyri ənənəvi ibadət və sektalar.

Daxil deyil: dini təşkilatlar tərəfindən maliyyələşdirilən xəstəxanlar, sanatoriyalar, tibb məntəqələri və s. (02.2.1)-(02.4.0); hərbi qəbiristanlıqların qorunması (03.2.0); dini təşkilatlar tərəfindən maliyyələşdirilən məktəblər, kolleclər və ali təhsil ocaqları (04.1.0)-(04.5.0); ruhanilər, rabbinlər və s. Dini mütəxəssislər hazırlayan seminar və kolleclər (04.1.0)-(04.5.0); dini təşkilatlar tərəfindən maliyyələşdirilən qaçqınlar və yetimlər üçün sığınacaqlar (05.1.0).

# 07 SİYASİ PARTİYALAR, HƏMKARLAR VƏ PEŞƏ TƏŞKİLATLARI

## 07.1 Siyasi partiyaların xidmətləri

*07.1.0 Siyasi partiyaların xidmətləri*

Bu qrup aşağıdakı ev təsərrüfatlarına xidmət göstərən qeyri-kommersiya təşkilatlarını əhatə edir:

- siyasi partiyaları;
- öz ölkəsində və digər ölkələrdə insan hüquqlarının tam qorunmasına çalışan siyasi qrup və təşkilatları;
- irqi, cinsi, yaş, cinsi əlaqələndirmə göstəriciləri üzrə ayrı-seçkiliyə qarşı yaradılmış siyasi qrupları;
- ətraf mühitin qorunması, odlu silaha nəzarət, heyvanların öldürüldüyü idman və əyləncə növlərinin qadağan edilməsi məsələləri ilə məşğul olan siyasi partiya və qrupları;
- siyasi partiya və qruplarla bilavasitə bağlı olan elmi-tədqiqat orqanlarını.

## 07.2 Həmkarlar təşkilatlarının xidmətləri

*07.2.0 Həmkarlar təşkilatlarının xidmətləri*

Bu qrup aşağıdakı ev təsərrüfatlarına xidmət göstərən qeyri kommersiya təşkilatlarını əhatə edir:

- məqsədləri öz üzvlərinin yaşayış şəraitini müvafiq səviyyədə saxlamaqdan ibarət olan həmkarlar təşkilatlarını və analoji qrupları.

Daxil deyil: həmkarlar təşkilatı və birliklərinin gecə məktəbləri və tədris ocaqları (04.1.0)-(04.5.0).

## 07.3 Peşə təşkilatlarının xidmətləri

*07.3.0 Peşə təşkilatlarının xidmətləri*

Bu altqrup aşağıdakı ev təsərrüfatlarına xidmət göstərən qeyri-kommersiya təşkilatlarını əhatə edir:

- öz üzvlərinin maraqlarını müdafiə edən, onlarla məlumat mübadiləsi yaradan və mövcud peşə ilə bağlı mövzular üzrə külliyyatlar nəşr edən konkret peşə nümayəndələrinin assosiasiyalarını.

## 08 ƏTRAF MÜHITIN MÜHAFIZƏSI

### 08.1 Ətraf mühitin mühafizəsi sahəsində xidmətlər

*08.1.0 Ətraf mühitin mühafizəsi sahəsində xidmətlər*

Bu altqrup ev təsərrüfatlarına xidmət göstərən aşağıdakı qeyri-kommersiya təşkilatlarını əhatə edir:

- ətraf mühitin çirklənməsinin qarşısını almaq məqsədi ilə yaradılan təşkilatları;
- vəhşi hevanların və nadir hevanların, quşların, balıqların, həşəratların qorunması üzrə assosiasiyaları;
- meşələrin, su-bataqlıq torpaq sahələrinin və nadir təbiət gözəlliyinin qorunması ilə məşğul olan təşkilatları.

Daxil deyil: ekoloji problemlərlə məşğul olan siyasi partiyalar (07.1.0); ev heyvanları ilə qəddar münasibətə qarşı mübarizə aparan assosiasiyalar (09.1.0).

### 08.2 Ətraf mühitin mühafizəsi sahəsində ETTKİ

*08.2.0 Ətraf mühitin mühafizəsi sahəsində ETTKİ*

Bu qrup aşağıdakı ev təsərrüfatlarına xidmət göstərən qeyri-kommersiya təşkilatlarını özündə birləşdirir:

- ətraf mühitin mühafizəsi mövzusu ilə bağlı tətbiqi tədqiqatlar və eksperimental işlərlə məşğul olan təşkilatları və bu fəaliyyəti maliyyələşdirən xeyriyyə fondlarını.

## 09 DİGƏR KATEQORİYALARA AİD EDİLMƏYƏN XİDMƏTLƏR

### 09.1 Digər kateqoriyalara aid edilməyən xidmətlər

*09.1.0 Digər kateqoriyalara aid edilməyən xidmətlər*

- qonşu və icma təşkilatları;
- ev heyvanları ilə qəddar münasibətə qarşı mübarizə aparan təşkilatlar;
- hüquqi xidmət və kömək göstərən təşkilatlar;
- iqtisadi proqnoz və iqtisadi təhlillə məşğul olan təşkilatlar;
- 01-08 bölmələrinə aid edilməyən xidmətləri göstərən təşkilatlar.

## 09.2 Digər kateqoriyalara aid edilməyən xidmətlər sahəsində ETTKİ

*09.2.0 Digər kateqoriyalara aid edilməyən xidmətlər sahəsində ETTKİ*

Bu altqrup aşağıdakı ev təsərrüfatlarına xidmət göstərən qeyri-kommersiya təşkilatlarını əhatə edir:

- 02, 04, 05 və 08 bölmələrinə aid edilməyən mövzular üzrə tətbiqi və fundamental tədqiqatlar həyata keçirən təşkilatları və bu fəaliyyəti maliyyələşdirən xeyriyyə fondlarını.

# Beşinci hissə

# Məqsədlər üzrə istehsalçıların xərclər təsnifatı

# Məqsədlər üzrə istehsalçıların xərclər təsnifatı

Bölmələr

| | |
|---|---|
| **01** | **İnfrastrukturaya yönəldilən xərclər** |
| **02** | **Elmi-tədqiqat və təcrübi-konstruktor işlərinə yönəldilən xərclər** |
| **03** | **Ətraf mühitin mühafizəsinə yönəldilən xərclər** |
| **04** | **Marketinq xərcləri** |
| **05** | **Əmək ehtiyatlarına yönəldilən xərclər** |
| **06** | **Cari istehsal proqramlarına, inzibati-təsərrüfat fəaliyyətinə və idarəetməyə yönəldilən xərclər** |

# Məqsədlər üzrə istehsalçıların xərclər təsnifatı

Bölmələr və qruplar üzrə bölünmə

**01 İnfrastrukturaya yönəldilən xərclər**

01.1 Yolların tikintitisi və yaxşılaşdırılmasına və torpaqların meliorasiyasına yönəldilən xərclər

01.2 Mühəndis-texniki işlərə yönəldilən xərclər

01.3 Məlumatların idarə edilməsinə yönəldilən xərclər

**02 Elmi-tədqiqat və təcrübi-konstruktor işlərinə yönəldilən xərclər**

02.1 Təbiət elmləri və texnika sahəsində elmi-tədqiqat və təcrübi-konstruktor işlərinə yönəldilən xərclər

02.2 İctimai və humanitar elmlər sahəsində elmi-tədqiqat və təcrübi-konstruktor işlərinə yönəldilən xərclər

**03 Ətraf mühitin mühafizəsinə yönəldilən xərclər**

03.1 Havanın və iqlimin mühafizəsinə yönəldilən xərclər

03.2 Çirkab suların yığılmasına və təmizlənməsinə yönəldilən xərclər

03.3 Tullantıların yığılmasına, təmizlənməsinə və təkrar emalına yönəldilən xərclər

03.4 Torpaqların və yeraltı suların qorunmasına yönəldilən xərclər

03.5 Səs və vibrasiyalarla mübarizəyə yönəldilən xərclər

03.6 Biomüxtəlifliyin mühafizəsinə və landşaftın qorunmasına yönəldilən xərclər

03.7 Digər kateqoriyalara aid edilməyən ətraf mühitin mühafizəsinə yönəldilən xərclər

**04 Marketinq xərcləri**

04.1 Birbaşa satışların təşkili üzrə tədbirlərə yönəldilən xərclər

04.2 Reklam xərcləri

04.3 Digər kateqoriyalara aid edilməyən marketinq xərcləri

**05 Əmək ehtiyatlarına yönəldilən xərclər**

05.1 Tədrisə və peşə hazırlığına yönəldilən xərclər

05.2 Səhiyyə xərcləri

05.3 Sosial xidmətlərə yönəldilən xərclər

**06 Cari istehsal proqramlarına, inzibati-təsərrüfat fəaliyyətinə və idarəetməyə yönəldilən xərclər**

06.1 Cari istehsal proqrapmlarına yönəldilən xərclər

06.2 Xarici nəqliyyat xidmətlərinə yönəldilən xərclər

06.3 Təhlükəsizlik və mühafizə xərcləri

06.4 İdarəetməyə və inzibati-təsərrüfat fəaliyyətinə yönəldilən xərclər

# Məqsədlər üzrə istehsalçıların xərclər təsnifatı

Altqruplar üzrə bölünmə

**01 İNFRASTRUKTURAYA YÖNƏLDİLƏN XƏRCLƏR**

İnfrastrukturaya yönəldilən xərclər müəyyən idarənin infrastruktur imkanlarının, onun inkişafı və məhsuldarlığının yüksəldilməsi üçün potensialın saxlanılması və genişləndirilməsinə yönəldilmişdir.

<u>Daxil deyil:</u> ETTKİ-nə (02); tədrisə və peşə hazırlığına (05.1) yönəldilən xərclər; marketinq xərcləri (04); kapitalın konkret olaraq digər məqsədlərə aid edilə bilən ümumi yığımı (02)-(06).

**01.1 Yolların tikintitisi və yaxşılaşdırılmasına və torpaqların meliorasiyasına yönəldilən xərclər**

*01.1.0 Yolların tikintitisi və yaxşılaşdırılmasına və torpaqların meliorasiyasına yönəldilən xərclər*

- yolların tikintitisi və yaxşılaşdırılmasına və torpaqların meliorasiyası üzrə məqsədli məsələlərə yönəldilən xərclər

**01.2 Mühəndis-texniki işlərə yönəldilən xərclər**

*01.2.0 Mühəndis-texniki işlərə yönəldilən xərclər*

- qurğuların, maşınların, cihazların, və istehsal proseslərinin, və ya istehsal müəssisələrinin, layihələşdirilməsinə yönəldilən, müstəqil və ya qarışıq istifadə üçün nəzərdə tutulmuş mühəndis-texniki işlərə yönəldilən xərclər; bu fəaliyyət növləri həmişə cüzi yeniləşdirmə elementlərinin tətbiqi və ya ümumiyyətlə belə elementlər olmadan konkret praktiki və tətbiqi məqsədlərə nail olunmasına yönəlir ki, bu da onları ETTKİ-dən fərqləndirir.

<u>Daxildir:</u> mühəndis işlərinə (kimyəvi, mülki təyinatlı, mexaniki, elektriki və s.), texniki işlərə (memarlıq, kəşfiyyat, geoloji və xəritə çəkmə çəkilişləri, tədqiqat xarakterli

olmayan nəzarət və laborator işləri, işçi çertyojlarının işlənib hazırlanması və s.) yönəldilən xərclər.

**01.3 Məlumatların idarəedilməsinə yönəldilən xərclər**

Məlumatların idarəedilməsinə yönəldilən xərclər qərarların qəbul edilməsinə və onlara əməl olunmasına nəzarət üçün vacib olan, həmçinin daxili və xarici istifadə üçün ötürülməsi məqsədi ilə məlumatın yığılmasına, emalına, saxlanmasına və yayılmasına yönəldilir.

Daxildir: kompüterlərə, kompüter şəbəkələrinə və bununla əlaqədar xidmətlərə, həmçinin poçt və elektrik rabitə xidmətlərinə yönəldilən xərclər.

Daxil deyil: hüquqi, mühasibat, auditor xidmətlərinin və hesabların aparılması üzrə xidmətlər (06.4); satış bazarlarının öyrənilməsi (04.3).

*01.3.1 Məlumatın idarə edilməsinin operativ məqsədlərinə yönəldilən xərclər*

*01.3.2 Proqram təminatının işlənib hazırlanmasına yönəldilən xərclər*

**02 ELMİ-TƏDQİQAT VƏ TƏCRÜBİ-KONSTRUKTOR İŞLƏRİNƏ YÖNƏLDİLƏN XƏRCLƏR**

ETTKİ-nə yönəldilən xərclər yeniləşdirmə və ya yeniliyin xeyli elementini özündə cəmləşdirir. Bu xərclərə həmçinin əsaslı tədqiqatlara (konkret məqsədə nail olunmasına yönəldilməyən yeni biliklərin əldə edilməsi), tətbiqi tədqiqatlara (konkret məqsədə nail olunmasına yönəldilən yeni biliklərin əldə edilməsi) və ya təcrübi işlərə (yeni materialların, məhsulların və qurğuların yaradılmasına, yeni proseslərin, sistemlərin və xidmətlərin tətbiqinə, mövcud materialların, məhsulların və qurğuların və ya proseslərin, sistemlərin və xidmətlərin təkmilləşdirilməsinə yönəldilən) yönəldilən xərclər də daxildir.

Daxil deyil: cari istehsal proqramı ETTKİ olan idarələr (06.1); ETTKİ ilə əlaqədar tədrisə yönəldilən xərclər (05.1); bazarın öyrənilməsi (04).

**02.1 Təbiət elmləri və texnia sahəsində elmi-tədqiqat və təcrübi-konstruktor işlərinə yönəldilən xərclər**

*02.1.0 Təbiət elmləri və texnika sahəsində elmi-tədqiqat və təcrübi-konstruktor işlərinə yönəldilən xərclər*

- təbiət elmləri (riyaziyyat, fizika, astronomiya, kimya və s.), tibb elmləri, kənd təsərrüfatı, maşınqayırma və texnika sahəsində yaradıcı xarakterli sistematik işlərə yönəldilən xərclər.

**02.2 İctimai və humanitar elmlər sahəsində elmi-tədqiqat və təcrübi-konstruktor işlərinə yönəldilən xərclər**

02.2.0 İctimai və humanitar elmlər sahəsində elmi-tədqiqat və təcrübi-konstruktor işlərinə yönəldilən xərclər

- ictimai elmlər (iqtisadiyyat, psixologiya, sosiologiya, hüquq və s.) və humanitar elmlər (linqvistika və dillər, incəsənət və s.) sahəsində yaradıcı xarakterli sistematik işlərə yönəldilən xərclər; bu xərclər, xüsusilə siyasi, iqtisadi və ictimai hadisələrə yeni baxışların formalaşmasına və bu hadisələrin daha yaxşı başa düşülməsinə yardım edə bilər.

**03 ƏTRAF MÜHİTİN MÜHAFİZƏSİNƏ YÖNƏLDİLƏN XƏRCLƏR**

Ətraf mühitin mühafizəsinə yönəldilən xərclər havanın və iqlimin mühafizəsi; tullantıların yığılması, təmizlənməsi və təkrar emalı və çirkab suların yığılması və təmizlənməsi; torpaqların və yeraltı suların qorunması; səs və vibrasiyalarla mübarizə; biomüxtəlifliyin mühafizəsi və landşaftın qorunması; radiasiyadan qorunma; ölçməyə, nəzarətə, laboratoriyaların fəaliyyətinə yönəldilən xərclər və s. daxil edilmiş «Ətraf mühitin mühafizəsi üzrə fəaliyyət təsnifatı»nda verilmiş (CEPA) müvafiq fəaliyyətlərin bütün diapazonunu əhatə edir. Buraya məsələn, çirklənmənin səviyyəsini qüvvədə olan və planlaşdırılan dövlət qanunvericiliyinə uyğunlaşdırmaq və yaxud etika və ya ictimai rəyin tələblərini təmin etmək məqsədi ilə onun azaldılmasına yönəldilən xərclər daxildir. Bu

məsrəflər əsasən, müvafiq idarələrlə əlaqəsi olmayan şəxslərin maraqlarının təmin edilməsi məqsədilə həyata keçirilir.

Daxil deyil: sağlamlığın möhkəmləndirilməsi, şəraitin yaxşılaşdırılması və ya işçilərin təhlükəsizliyinin yüksəldilməsinə yönəldilmiş tədbirlərə (05); ETTKİ-nə (02) yönəldilən xərclər.

**03.1 Havanın və iqlimin mühafizəsinə yönəldilən xərclər**

*03.1.0 Havanın və iqlimin mühafizəsinə yönəldilən xərclər*

- texnoloji proseslərə, işlənmiş qazların və ventilyasiya olunan havanın təmizlənməsinə dəyişikliklərin edilməsi və s. yolu ilə havanın çirklənməsinin qarşısının almasına yönəldilən xərclər.

**03.2 Çirkab suların yığılmasına və təmizlənməsinə yönəldilən xərclər**

*03.2.0 Çirkab suların yığılmasına və təmizlənməsinə yönəldilən xərclər*

- texnoloji proseslərə, kanalizasiya şəbəkələrinə, çirkab suların təmizlənməsinə, soyuducu suların təmizlənməsinə və s. dəyişikliklərin edilməsi yolu ilə suların çirklənməsinin qarşısının alınmasına yönəldilən xərclər.

**03.3 Tullantıların yığılmasına, təmizlənməsinə və təkrar emalına yönəldilən xərclər**

*03.3.0 Tullantıların yığılmasına, təmizlənməsinə və təkrar emalına yönəldilən xərclər*

- texnoloji proseslərə, tullantıların yığılması və daşınması, zəhərli tullantıların emalı və basdırılması və s. dəyişikliklərin edilməsi yolu ilə bərk tullantıların yaranmasının qarşısının almasına yönəldilən xərclər.

**03.4 Torpaqların və yeraltı suların qorunmasına yönəldilən xərclər**

*03.4.0 Torpaqların və yeraltı suların qorunmasına yönəldilən xərclər*

- çirkləndiricilərin sızmasının qarşısının alınmasına, zərərsizləşdirilməsinə və s. yönəldilən xərclər.

**03.5 Səs və vibrasiyalarla mübarizəyə yönəldilən xərclər**

*03.5.0 Səs və vibrasiyalarla mübarizəyə yönəldilən xərclər*

- quru yol nəqliyyatı və dəmir yolu nəqliyyatının yaratdığı səsin və titrəyişlərin, hava nəqliyyatının yaratdığı səsin, sənayedə yaranan səsin və s. qarşısının alınmasına yönəldilən xərclər.

**03.6 Biomüxtəlifliyin mühafizəsinə və landşaftın qorunmasına yönəldilən xərclər**

*03.6.0 Biomüxtəlifliyin mühafizəsinə və landşaftın qorunmasına yönəldilən xərclər*

- təbiətin və landşaftın qorunmasına (görünüşlərin, məskunlaşma yerlərinin, sahilyanı zonanın qorunmasına, torpaqların eroziyası ilə mübarizəyə, qum təpələrinin möhkəmləndirilməsinə, qar uçqunlarından qorunmaya, yanğından mühafizəyə və s.) yönəldilən xərclər.

**03.7 Digər kateqoriyalara aid edilməyən ətraf mühitin mühafizəsinə yönəldilən xərclər**

*03.7.0 Digər kateqoriyalara aid edilməyən ətraf mühitin mühafizəsinə yönəldilən xərclər*

- digər kateqoriyalara aid edilməyən ətraf mühitin mühafizəsinə yönəldilən xərclər, ətraf mühitin mühafizəsi məsələlərinə ümumi rəhbərlik və s.

**04 MARKETİNQ XƏRCLƏRİ**

Marketinq xərclərini idarələr tərəfindən istehsal proqramlarının həyata keçirilməsi nəticəsində əldə etdikləri məhsulun satışı üçün həyata keçirilən, bir-biri ilə bağlı tədbirlər kompleksi kimi müəyyən etmək olar. Marketinqin təyinatı çox geniş ola bilər: buraya yalnız birbaşa satışların təşkili üzrə tədbirlər deyil, məhsulun satışına yardım üzrə bununla əlaqədar

reklam (məlumatlandırma, bazarların saxlanması və genişləndirilməsi məqsədi ilə), marketinq tədqiqatları (bazar potensialının müəyyən edilməsi məqsədi ilə), ictimaiyyət ilə əlaqələr (ictimaiyyət arasında əlverişli imicin yaradılması məqsədi ilə), lobbiləşmək və s. kimi fəaliyyət də daxil ola bilər.

Daxil deyil: cari istehsal proqramları başqaları üçün marketinq tədbirlərindən və birbaşa satışların təşkilindən ibarət olan idarələrin (məsələn, ISIC təsnifatının 7413 «Bazar konyunkturasının tədqiqi və ictimai rəyin öyrənilməsi» altqrupuna; 7430 «Reklam» altqrupuna daxil olan idarələrin; həmçinin 50-52 bölmələrinə daxil olan topdan və pərakəndə ticarətin (komponentləri) bu məqsədlər üçün sərf etdiyi xərclər (06.1).

**04.1 Birbaşa satışların təşkili üzrə tədbirlərə yönəldilən xərclər**

*04.1.0 Birbaşa satışların təşkili üzrə tədbirlərə yönəldilən xərclər*

- birsaşa satışların təşkili üzrə tədbirlərə yönəldilən xərclər satışla məşğul olan personallarla alıcılar arasında sıx əlaqələrin olması ilə xarakterizə olunur.

Daxildir: cari məhsulun satışı üzrə tədbirlərə cəlb edilmiş personala və avdanlığa, məsələn, sərgi zallarının personalına, satıcılara, satış üzrə agentlərə, satışların təşkili üzrə mütəxəssislərə, satış üzrə menecerlərə, dəftərxana işçilərinə, həmçinin sərgi zallarının avadanlığına, məhsul nümunələrinə və sərgi modellərinə və s. yönəldilən xərclər

**04.2 Reklam xərcləri**

*04.2.0 Reklam xərcləri*

- reklam materiallarına (kataloqlara, kitabçalara və s.), dövri nəşrlərdə yerlərin alınmasına, efir vaxtının alınmasına və reklam məlumatının yayılması üçün olan digər vasitələrə yönəldilən xərclər; həmçinin personala (fotoqraflara, fotomodellərə, dizaynerlərə, kütləvi informasiya vasitələri ilə əlaqələr üzrə mütəxəssislərə, digər texniki personala, həmçinin idarəedənlərə və dəftərxana işçilərinə yönəldilən xərclər.

**04.3 Digər kateqoriyalara aid edilməyən marketinqə yönəldilən xərclər**

*04.3.0 Digər kateqoriyalara aid edilməyən marketinqə yönəldilən xərclər*

- marketinq tədqiqatlarına, ictimaiyyətlə əlaqələrə, lobbiləşməyə və kommersiya və ticarət assosiasiyalarında iştirak etməyə görə yönəldilən xərclər.

**05 ƏMƏK EHTİYATLARINA YÖNƏLDİLƏN XƏRCLƏR**

Əmək ehtiyatlarına yönəldilən xərcləri əmək ehtiyatlarından istifadənin səmərəliliyinin və onların işləmək bacarığının yüksəldilməsinə, həmçinin işçilərin vəziyyətinin yaxşılaşdırılmasına yönəldilmiş tədbirlərin məcmusu kimi müəyyənləşdirmək olar. Bu xərclərə həmçinin müvafiq avadanlığa, ləvazimata, personala və s. yönəldilən xərclər də daxildir.

Daxildir: ərzaq məhsullarının və geyimin, pulsuz və ya subsidiyalaşdırılan yaşayış yerlərinin verilməsi kimi natural formada ödəmələr (06.1); iş yerlərində müdafiə və təhlükəsizlik vasitələri ilə təminat (06.3); mədəni məqsədlər, istirahətin və təhsilin təşkili üçün istifadə edilən və əhalinin geniş kütləsinə xidmət göstərən obyektlərə edilən köçürmələr (04.3).

**05.1 Tədrisə və peşə hazırlığına yönəldilən xərclər**

*05.1.0 Tədrisə və peşə hazırlığına yönəldilən xərclər*

- təhsil sahəsində fəaliyyətə (istehsalatdan ayrılmamaq şərti ilə hazırlığa, texniki-peşə tədrisinə və s.), həmçinin müvafiq avadanlıq, yer və personala yönəldilən xərclər.

**05.2 Səhiyyə xərcləri**

*05.2.0 Səhiyyə xərcləri*

- tibbi xidmətlərə (təxirəsalınmaz tibbi yardımın, planlı tibbi müayinənin və s. təqdim edilməsinə), həmçinin müvafiq avadanlıq, yer və personala yönəldilən xərclər.

**05.3 Sosial xidmətlərə yönəldilən xərclər**

*05.3.0 Sosial xidmətlərə yönəldilən xərclər*

- sosial müdafiə, mədəniyyət və istirahətin təşkili sahəsində fəaliyyətə (uşaq müəssisələrinə, idman komandalarına, orkestrlərə və s.); müvafiq avadanlığa (idman ləvazimatına, musiqi alətlərinə və s.); qurğulara (futbol meydançalarının, idman meydançalarının və s. alınması və ya icarəsinə) və personala (instruktorlara, məşqçilərə və s.) yönəldilən xərclər.

**06 CARİ İSTEHSAL PROQRAMLARINA, İNZİBATİ-TƏSƏRRÜFAT FƏALİYYƏTİNƏ VƏ İDARƏETMƏYƏ YÖNƏLDİLƏN XƏRCLƏR**

Cari istehsal proqramları müəssisələrin müstəsna olaraq və ya əsasən istehsalla məşğul olan bölmələrində həyata keçirilən bir-biri ilə bağlı fəaliyyət növlərinin məcmusudur. Müəssisənin istehsal proqramı ISIC təsnifatında onun aid olduğu kateqoriyasını xarakterizə edən əmtəə və ya xidmətlərin istehsalı kimi müəyyənləşdirilir.

**06.1 Cari istehsal proqramlarına yönəldilən xərclər**

*06.1.0 Cari istehsal proqramlarına yönəldilən xərclər*

- birbaşa məsrəflərə, yəni əmək və materiallara, hazır məmulatlar və yarımfabrikatlara, xammal və materiallara və s. yönəldilən xərclər; birbaşa qaimə xərcləri, yəni istehsala nəzarət və müvafiq dəftərxana personalına yönəldilən xərclər; alətlərə, istehsal mexanizmlərinə və uzunmüddətli işləmə qabiliyyəti olan avadanlığa, istehsal binalarına və yerlərinə, nəqliyyat vasitələri üçün yerlərə yönəldilən xərclər.

Daxildir: istehsal proqramları ilə əlaqədar xərclərin digər bəndləri (istehsal olunan məmulatların komponentlərinin daxili yerdəyişməsinə, operativ nəzarəti həyata keçirən personala yönəldilən xərclər).

Daxil deyil: layihələşdirmə xərcləri (01.2); təcrübə nümunələrinin hazırlanması və sınaqdan keçirilməsinə, laboratoriyaların personalına və avadanlığına yönəldilən xərclər (02.1).

**06.2 Xarici nəqliyyat xidmətlərinə yönəldilən xərclər**

*06.2.0 Xarici nəqliyyat xidmətlərinə yönəldilən xərclər*

- insanların daşınması (işçi briqadalarının iş yerlərinə çatdırılması) və müəssisələr arasında (istehsal prosesində) məmulatların daşınması üzrə nəqliyyat xidmətlərinə yönəldilən xərclər.

Daxil deyil: müəssisə hüdudlarında daxili yerdəyişmə (06.1).

**06.3 Təhlükəsizlik və mühafizə xərcləri**

*06.3.0 Təhlükəsizlik və mühafizə xərcləri*

- insanların və əmlakın müntəzəm nəzarətinə, mühafizəsinə və qorunmasına yönəldilən xərclər.

Daxildir: binaların, inzibati yerlərin, zavodların, tikinti meydançalarının, mehmanxanaların, teatrların, anbarların mühafizəsinə yönəldilən xərclər; gözətçi itləri, zirehli avtomobillər kimi xüsusi müdafiə vasitələrinə yönəldilən xərclər; təhlükəsizlik vasitələri və tədbirlərinə, təhlükəsizlik sahəsində tədbirlərin həyata keçirilməsinə, təhlükəsizlik və fövqəladə vəziyyətlərdə ediləcək hərəkət məsələləri üzrə hazırlığa yönəldilən xərclər; .

Daxil deyil: işin ekoloji və tibbi standartlarına və qidalanma normalarına əməl olunmasına nəzarət (06.4).

**06.4 İdarəetməyə və inzibati-təsərrüfat fəaliyyətinə yönəldilən xərclər**

*06.4.0 İdarəetməyə və inzibati-təsərrüfat fəaliyyətinə yönəldilən xərclər*

- digər kateqoriyalara aid edilməyən fəaliyyət növlərinə (mühasibat uçotuna, təchizata, kadrlarla işə, hüquq

fəaliyyətinə və s.); baş nəzarətçi, inzibati və ya idarəetmə personalına yönəldilən xərclər.

Daxil deyil: bilavasitə satışa cavabdeh olan ali icra orqanlarına (04.3); ETTKİ-nə (02); ətraf mühitin qorunmasına (03.7) yönəldilən xərclər.

# *Əlavə və dəyişikliklərin siyahısı*

*Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi kollegiyasının 25 dekabr 2024-cü il tarixli 8/6 nömrəli qərarına əsasən Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi kollegiyasının 2002-ci il 25 sentyabr tarixli qərarı ilə təsdiq edilmiş "Xərclərin məqsədlər üzrə təsnifatı"nda aşağıdakı dəyişikliklər edilmişdir:*

*1. "Birinci hissə. GİRİŞ" hissəsi üzrə:*

*1.1. "I fəsil. 1993-cü ilin milli hesablar sistemində xərclərin məqsədlər üzrə təsnifatı" bölməsi yeni redaksiyada verilmişdir;*

*1.2. "II fəsil. Dövlət idarəetmə orqanlarının funksiyalarının təsnifatı (DİOFT)" bölməsinin:*

*1.2.1. 15-ci hissəsinin birinci cümləsindən "1993-cü ilin MHS-nə əsasən" sözləri çıxarılsın və həmin cümlədə "ŞİMT-nın 14-cü" sözləri "MFİT-nın 15-ci" sözləri ilə əvəz edilmişdir;*

*1.2.2. 25-ci hissəsinin ikinci cümləsində "ŞİMT-nın 14-cü" sözləri "MFİT-nın 15-ci" sözləri ilə əvəz edilmişdir;*

*1.2.3. 28-ci hissəsində mətn üzrə bütün hallarda "ŞİMT" akronimi "MFİT" akronimi ilə, "spirtsiz" sözü "alkoqolsuz" sözü ilə əvəz edilmişdir;*

*1.3. "III fəsil. Ev təsərrüfatlarında şəxsi (fərdi) istehlak məqsədləri üçün istifadə edilən mal, məhsul və xidmətlərin təsnifatı" bölməsi ləğv edilmişdir;*

*1.4. "IV fəsil. Ev təsərrüfatlarına xidmət göstərən qeyri-kommersiya təşkilatlarının məqsədlər üzrə təsnifatı (QTMT)" bölməsinin 56-cı hissəsinin dördüncü cümləsində "ŞİMT-nın 13-cü" sözləri "MFİT-nın 14-cü" sözləri ilə əvəz edilmişdir;*

*1.5. "V fəsil. Məqsədlər üzrə istehsalçıların xərcləri təsnifatı (MİXT)" bölməsinin:*

*1.5.1. 58-ci hissəsinin üçüncü cümləsində, 61-ci, 62-ci və 69-cu hissələrinin dördüncü cümlələrində, 71-ci hissəsinin ikinci cümləsində və 72-ci hissəsinin doqquzuncu cümləsində "ŞİMT" akronimi "MFİT" akronimi ilə əvəz edilmişdir;*

*1.5.2. 70-ci hissəsinin birinci və beşinci cümlələrində "ŞİMT" akronimi "MFİT" akronimi ilə, altıncı cümləsində "ŞİMT-nın yalnız qeyri-altqrup" sözləri "MİFT-nın yalnız sinif" sözləri ilə əvəz edilmişdir;*

*2. "Üçüncü hissə. Ev təsərrüfatlarında şəxsi (fərdi) istehlak məqsədləri üçün istifadə edilən mal, məhsul və xidmətlərin təsnifatı" hissəsi ləğv edilmişdir.*

# MÜNDƏRİCAT

Ön söz……………………………………………………………………….3

## Birinci hissə
## Giriş

I fəsil. Milli hesablar sistemində funksional təsnifatlar ….……………………..….…..…6
II fəsil. Dövlət idarəetmə orqanlarının funksiyalarının təsnifatı ……..………………10
IV fəsil. Ev təsərrüfatlarına xidmət göstərən qeyri-kommersiya təşkilatlarının məqsədlər üzrə təsnifatı ……….……………………………………………...17
V fəsil. Məqsədlər üzrə istehsalçıların xərcləri təsnifatı………. …………………....20

## İkinci hissə

## Dövlət idarəetmə orqanlarının funksiyalarının təsnifatı

DİOFT: Bölmələr……………………………………………………………..30
DİOFT: Bölmələr və qruplar üzrə bölünmə……………………………………..31
DİOFT: Altqruplar üzrə bölünmə………………………………………..…34

## Dördüncü hissə

## Ev təsərrüfatlarına xidmət göstərən qeyri-kommersiya təşkilatlarının məqsədlər üzrə təsnifatı

QTMT: Bölmələr…………………………………………………………...……97
QTMT: Bölmələr və qruplar üzrə bölünmə…………………………….………98
QTMT: Altqruplar üzrə bölünmə……………………………...………………..101

## Beşinci hissə

## Məqsədlər üzrə istehsalçıların xərcləri təsnifatı

MİXT: Bölmələr……………………………………………………………115
MİXT: Bölmələr və qruplar üzrə bölünmə…………………………………….116
MİXT: Altqruplar üzrə bölünmə……………………………………….………118

## Əlavə və dəyişikliklər

Əlavə və dəyişikliklərin siyahısı ……………………………………………128